лено, что на участках образования плен трубных заготовок наблюдается скопления неметаллических включений. Элементный анализ на этих участках подтвердил на них наличие большого количества углерода, кислорода и в некоторых случаях кремния. Для предотвращения образования дефектов типа плен на трубных заготовках рекомендовано повышение качества степени раскисления стали выплавляемой стали.

Abstract. *A study was made of captive-type defects on tubular blanks obtained by continuous casting, and the reasons for its formation were determined. Metallographic studies were carried out near and on the part of the pipe remote from the captivity. It has been determined that accumulations of non-metallic inclusions are observed in the areas of formation of shells of pipe blanks. Elemental analysis in these areas confirmed the presence of a large amount of carbon, oxygen and, in some cases, silicon. To prevent the formation of captive-type defects on pipe billets, it is recommended to improve the quality of the degree of deoxidation of the steel of the steel being smelted.*

Açar sözlər: *qaysaq, boru, şlif, qeyri-metal ünsürlər, optik mikroskop, yanıq*

Ключевые слова: *плен, труба, шлиф, неметаллические включения, оптический микроскоп, окалина*

Key words: *captivity, pipe, thin section, non-metallic inclusions, optical microscope, scale*

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə dəstəyilə yerinə yetirilmişdir: Qrant №EİF-MQM-ETS-2020-1(35)-08/02/1-M-02.

Giriş. Maye poladın pəstah üçün tökülməsində fasiləsiz tökmə texnologiyası ən mütərəqqi texnologiya sayılır. Bu, xüsusən neft-qaz sənayesi üçün tikişsiz boru pəstahlarının istehsalında xüsusi əhəmiyyət kəsb edir. Lakin fasiləsiz tökmə texnologiyasının əsas tələblərindən biri maye poladın sobada yüksək səviyyədə emalıdır. Digər tərəfdən, tökmə prosesi çox mərhələli, yəni əsas çalov-aralıq çalovu ilə həyata keçirildiyinə görə tökmə zamanı metalın oksidləşməsi baş verə bilir.

Aydındır ki, bu halda maye metalda qeyri-metal ünsürlərin yaranması sürətlə gedir, nəticədə alınan pəstahda təzyiqlə emal zamanı müxtəlif qüsurlar, o cümlədən qaysaq tipli qüsurlar yaranır. Qaysaq sonrakı mərhələdə hazır metallurji məhsulda yaranma ocağı rolunu oynayır [1,2].

Əsas hissə. Bu işdə qaysağın poladın strukturunda oynadığı neqativ rol şərh olunur, onun ətrafında və ondan kənarda aparılmış element analizinin nəticələri verilir. Onun ləğv edilməsi üçün zəruri tədbirlərin görülməsi haqqında tövsiyələr qeyd edilir.

Metalın mikrostrukturunun tədqiqini nital (HNO_3-ün 4%-li spirt məhlulu) reaktiv ilə aşındırmadan sonra ×200 və ×500 böyütmələrdə optik mikroskopda yerinə yetirdik. Metalın mikrostrukturu borunun divarının qalınlığı üzrə bircinsdir və termiki emal (tablama+tabəksiltmə) rejimindən sonra xırda dənəli formalaşmış ferrit-karbid qarışığından ibarətdir.

Poladın qeyri-metallarla çirkliliyinin qiymətləndirilməsini "GX51" markalı "Olympus" optik mikroskopun və "Philips" firmasının, "EDAX" kimyəvi analizatorla təchiz olunmuş "XL30" rastr elektron mikroskopunun tətbiqilə aşılanmamış uzununa mikroşliflərdə apardıq.

Bu tətqiqatlardan sonra müəyyən olunmuşdur ki, borunun metalı müasir poladlar üçün anomal yüksək dərəcədə qeyri-metal ünsürlərlə çirklənmə dərəcəsilə səciyyələnir (cədvəl). Boruda qeyri-metal ünsürlərinin uzunluğu 6 mm-dək təşkil edir. Cədvəldən göründüyü kimi ünsürlərlə poladın çirkliliyi keyfiyyətli boru poladının tələblərinə, məsələn ГОСТ 34636-2020 və ОСТ 14-21-77-nin tələblərinə uyğun deyildir.

Bundan əlavə az ünsürlərdə həm də Ca, K, Ti vardır, onlar metala posadan və ya posaəmələgətirici qarışıqdan düşə bilərlər. Ən iri oksidlərin ehtimal olunan yaranma səbəbi - əritmə və tökmə texnologi prosesinin pozulması ucbatından posanın polada düşməsidir. Bu ünsürlər yaymada dartılmış formaya malik olur.

Cədvəl

Borunun metalında qeyri-metal ünsürlərin növləri


Ərintilərin növləri	Poladın qeyri-metal ünsürlərlə çirkliliyi						
	Nöqtəvi oksidlər	Sətirvari oksidlər	Sulfidlər	Kövrək silikatlar	Lövhəvari silikatlar	Deformasiya olunmayan silikatlar	Nitridlər
1	1,5	-	1,5	-	5	-	-
2	1,5	-	1	-	5	-	-
ГОСТ34636-2020 tələbləri çox olmadan							
1k	3	3	3	3	3	3,5	2
2k	4,5	4,5	4,5	4,5	4,5	5	3
OCT1421-77 çox olmadan							
5	4,5	4,5	4,5	-	4,5	-	-

Aydındır ki, iri dartılmış ünsürlər gərginliklər konsentratorudur və boru metalının kövrək dağılmasını çağıra bilər. Qaysaqların yaranma səbəblərinin təyini üçün bir sıra metalloqrafik tədqiqatlar aparılmışdır. Aşılanmamış şliflərdən görünür ki, qaysaqların səthində dəmir oksidləri – yanıq mövcuddur. Yanığın qatının qalınlığı qaysağın səthində qeyribircinsdir və 50-200 mkm diapozonunda dəyişir. Qaysağın səthinin altında metalın həcmində manqan və silisiumla zənginləşmiş dairəvi oksid ünsürlər müəyyən olunmuşdur (şəkil 1 və şəkil 2). Bu ünsürlər havanın oksigenilə metalın təkrar oksidləşməsinin nəticəsidir. Silisium və manqanın artırılmış konsentrasiyası onunla şərtlənir ki, bu elementlər dəmirə nisbətən oksigenə böyük hərisliyə malikdir və ona görə oksidlərdə dəmiri əvəz edirlər.


Aşılanmaq şliflərdən görünür ki, qaysaqlar karbonsuzlaşmışlar, bu, qüsurun altında metalın oksidləşməsi ilə izah olunur. Bu ona dəlalət edir ki, istehsalın hansısa mərhələsində qüsurun açıq səthi yüksək temperaturda havanın oksigenilə kontaktda olmuşdur. Ehtimal olunur ki, bu, külçənin dairəyə və dairənin deşilməsindən qabaq qızdırma mərhələsində baş vermişdir.

Nəticə. Yuxarıda deyilənləri umumiləşdirərək qaysağın və karbonsuzlaşmış zolaqların inkişaf mexanizmini aşağıdakı kimi fərz etmək olar. Pəstahın səthi yaymadan əvvəl dərin cizgilər və çatlar şəkilində qüsurlara malik olmuşdur. Yaymaya pəstahın qızdırılmasında bu qüsurların səthinin oksidləşməsi baş vermişdir, bu, səthdə pasın formalaşmasına, metalın həcmində isə qüsurların altında karbonsuzlaşmış qatın və dairəvi oksid birləşmələrinin yaranmasına gətirmişdir. Sonrakı yaymada göstərilən qüsurların bir hissəsi qaynaqlanmış və həcmdə karbonsuzlaşmış zolağın yaranmasına gətirmişdir.

Boruların səthində qaysaqların yaranmasının ən ehtimal olunan səbəbi boru pəstahının səthində uzununa qüsurların (çatların) mövcudluğudur. Öz növbəsində pəstahın səthində qüsurların yaranmasına metalın qeyri-metal ünsürlərlə artırılmış lokal (və ya ümumi) çirklənməsi kömək edə bilər [3,4].



Şəkil 1. *Borunun uzununa kəsiyində xarici səthdə qaysağın görünüşü*



		C	O	Si	Mn	Fe
Sahə 1	Wt, %	02,13	-	00,54	01,27	96,05
Sahə 2		02,78	13,63	-	-	83,59
Sahə 3		15,92	12,98	-	-	70,47

Şəkil 2. *Qaysaqda qeyri-metal ünsirlərin görünüşü və kimyəvi tərkibi*

Metalda qeyri-metal ünsürlərin azalması üçün əritmə və sobadankənar emal proseslərində maye metalı silisium və manqanla yanaşı, həm də kifayət dərəcədə alüminiumla oksigensizləşdirmək lazımdır.

Mikrostruksutun analizi ona dəlalət edir ki, qüsurların səthi və qüsurlar altında metalın həcmi yüksək temperaturlu oksidləşməyə məruz olmuşdur. Ona görə boruların xarici səthində qaysaqların yaranmamasına gətirən qüsurlar, artıq pəstahın yaymaya qızdırılma prosesində iştirak etmişlər, yayma prosesində onların bir hissəsi qaynaqlanmış və metalda karbonsuzlaşmış zolağın yaranmasına gətirmişdir. Beləliklə, boruların səthində olan qaysaqlar metallurji təbiətə malikdir (külçənin metalının ilkin keyfiyyətinin təsiri).

Ədəbiyyat

1. Məmmədov V.A., Kərimov R.İ., Quliyev F.T. Fasiləsiz tökmə pəstahlarında yaranan daxili qüsurların təhlili. / "Təhsil-tədqiqat-istehsalat mexanizminin qurulması" mövzusunda keçirilən Elmi-texniki konfransının materialları. 4-5 aprel 2018-ci il, AzTU, Bakı. s.158-161
2. Рахмахов С.Р., Мамедов А.Т. и др. Процессы и машины электрометаллургического производства. Монография. Баку-Днепр: «Системные технологии» - Издательство «Сабах», 2017. 568 с.
3. Величко А.Г., Мамедов А.Т. и др. Внепечная обработка при производтве высококачественных сталей (Монография), НМетАУ и АГУНП, Баку, 2021, 467 с.
4. Babanlı M.B., Kerimov R.İ., Bayramov A.T., Abbasov İ.B. An impact of the ladie lining on the refining of reinforeed steel when blowing with powders // EASTERN-EUROPEAN JOURNAL OF ENTERPRISE TECHNOLOGIES. ISSN 1729-3774, 2019. p.65-71

Məqalə qəbul olunub: 21.04.2022
Tövsiyə ediblər: t.e.d., prof. A.T.Məmmədov; t.e.d., prof. N.Ş.İsmayılov

UOT 621.742

ADDİTİV TEXNOLOGİYALARIN SİYİRTMƏ GÖVDƏLƏRİNİN HAZIRLANMASI PROSESİNƏ İNTEQRASİYASI

Mənsimov A.H., İsmayılov N.Ş.

Azərbaycan Texniki Universiteti
AZ1073, Bakı şəh., H.Cavid pr., 25
E-mail: aykhanm00@gmail.com

Xülasə. *İnternet informasiya texnologiyaları sahəsində inqilab yaratdığı kimi, additiv texnologiyalar da siyirtmələr və hidravlik klapanlar da daxil olmaqla fiziki obyektlərin istehsal texnologiyasını əhəmiyyətli şəkildə dəyişdirmişdir. Bu texnologiyların üstünlüklərinə tamamilə avtomatlaşdırılmış sistemin insan əməyinin minimum həddə endirilməsi, hazırlanan məhsulun yüksək dəqiqliyi, ənənəvi üsullarla müqayisədə məhsulun dəfələrlə qısa müddətdə hazırlanmasını şamil etmək olar. Müasir istehsal texnologiyalarının əsas prioritet vəzifəsi istehsalın təşkili üçün iqtisadi cəhətdən səmərəli, eyni zamanda istismar üçün zəruri keyfiyyət, təhlükəsizlik və funksionallıq kimi tələblərə cavab verən məhsul hazırlamaqdır.*

Siyirtmə və klapanların additiv istehsalının ənənəvi proseslərlə istehsalından əsas üstünlüyü ondan ibarətdir ki, bu mürəkkəb konfiqurasiyalı hissələr model tərtibatı olmadan birbaşa hazırlana bilər. Məsələn, ayrı-ayrı elementlərdən yığılmasına ehtiyac olmadan bütün klapanı additiv texnologiya ilə birbaşa istehsal etmək mümkündür. Mütərrəqi texnologiya kimi AT-nin əsas üstünlükləri mürəkkəb həndəsə və mürəkkəb axın bölmələri ilə olduqca dəqiq hissələrin istehsalına imkan verməsidir.

Abstract. *Additive technologies have revolutionized the technology of manufacturing physical objects, including valves and hydraulic valves, just as the Internet revolutionized information technology. The advantages of these technologies include minimization of human resources of a fully automated system, high product accuracy, and product manufacturing in a much shorter time frame than traditional methods. The main priority of modern production technologies is at the same time cost-effective operation.*

The main advantage of additive valve manufacturing over traditional processes is that some complex parts can be manufactured without manufacturing processes. For example, the entire valve can be manufactured using additive manufacturing to avoid the need for installation. The main advantage of advanced AT technology is the ability to produce high-precision parts with complex geometries and complex flow patterns.

Аннотация. *Аддитивные технологии произвели революцию в технологии производства физических объектов, включая клапаны и гидравлические клапаны, точно так же, как Интернет произвел революцию в информационных технологиях. К преимуществам аддитивных технологий можно отнести минимизацию человеческих ресурсов, полностью автоматизированную систему, высокую точность продукции, изготовление изделий в гораздо более короткие сроки, чем традиционные методы. Главный приоритет современных производственных технологий – рентабельность производства.*

Основное преимущество аддитивного производства клапанов по сравнению с традиционными процессами заключается в том, что некоторые детали сложной конфигурации можно изготавливать без производственных процессов. Например, весь клапан может быть изготовлен с использованием аддитивных технологий, чтобы избежать необходимости в установке. Основным преимуществом передовой технологии АТ является возможность изготавливать высокоточные детали со сложной геометрией и сложными узлами потока.

Açar sözlər: *additiv istehsal, qatlı hazırlama, 3D çapı, prosesin parametrləri, modelləşdirmə*
Key words: *additive production, layered production, 3D printing, process parameters, process modeling*
Ключевые слова: *аддитивное производство, слоистое изготовление, 3D печать, параметры процесса, моделирование*

Giriş. Müasir dövrdə dünyada təzahür edən inkişaf prosesləri digər sahələr kimi metallurgiya sahəsinə də öz təsirini göstərməkdədir [1,2]. İqtisadiyyatda baş verən dəyişikliklər, informasiya texnologiyalarının inkişafı daimi, yeni və sürətli texnologiyalara keçidi tələb edir. Bazar iqtisadiyyatı şəraiti təkcə istehsalı həyata keçirtməklə kifayətlənməməyi, həmçinin yüksək texnologiyaların da satıcısı olmağı üçün şərait yaradır [3,4]. İstehsal müəssisələri artan azad rəqabət şəraitində bazara daima keyfiyyətli və müasir tələblərə cavab verən məhsullar çıxarmalıdırlar. Əsas tələblərdən biri isə yeni texnologiyaların tətbiqində istifadə olunan vaxta və resurslara qənaət etməkdir [5,6].

Klapan sənayesində, ənənəvi tökmə üsulu ilə klapan istehsalı son 200 il ərzində qum tökmə prosesində inqlabı əhəmiyyət yaratmışdır. Müasir dövrdə istehsal prosesi çərçivəsində layihələr məhz tibbi sahəsi üçün modellərin işlənib hazırlanmasında əhəmiyyətli dərəcədə təsir göstərmişdir [7]. 2016-cı ilin may ayında İtaliyanın Talamon şəhərində yerləşən GE Oil & Gas zavodu qaz turbinlərinin yanması kameraları üçün torsov odluqlarının 3D-çapı üçün lazer texnologiyasından istifadə edən yeni xətti istismara verib [8].

Metallurgiya sənayesində baş verən dəyişikliklər digər ölkələr kimi, Azərbaycana da təsir etmişdir. Azərbaycanda pəstah istehsalı sahəsində yeni texnologiyaların tətbiqi, sahənin maddi-texniki bazasının gücləndirilməsi, müasirləşdirilməsi və səmərəli idarə edilməsi üçün tədbirlər həyata keçirilir.

Əsas hissə. Dünyada metal məmulatlar hazırlanarkən tərtibatların layihələndirilməsi zamanı dəqiqlik və möhkəmlik kimi göstəricilərin tələblərə uyğun olması vacibdir ki, bu səbəbdən də yeni və sürətli texnologiyalar işlənib hazırlanır. Layihələrin qısa zaman ərzində hazırlanması məhsulun istehsalında mühüm rol oynayır. Məhsulun tez ərsəyə gəlməsi istehsalçıya bir müddət sonra yarana biləcək olan fəsadların aradan qaldırılması üçün kifayət qədər vaxt qazandırır [3,5].


Layihəsi hazırlanmış məhsullar istehsalatdan əvvəl bir sıra testlərdən keçməlidir ki, bu da ənənəvi üsullardan istifadə nəticəsində həftələrlə vaxt itkisinə səbəb ola bilər. Lakin sürətli prototipləmə vasitəsilə bu prossesin davam etmə müddəti əhəmiyyətli dərəcədə azaldıla bilər. Bu isə böyükmiqyaslı texniki-iqtisadi səmərə əldə etmək deməkdir [6,8].

Hazırda respublikanın metallurgiya müəssisələrində tətbiq olunan əritmə texnologiyalarında xammal kimi əsasən metal qırıntıları və tullantılarından istifadə edilir. Ölkə iqtisadiyyatının sürətli inkişafı müasir dövrün tələblərinə cavab verən yeni istehsal müəssisələrinin yaradılmasını tələb edir. Hazırda inkişaf etməkdə olan sürətli prototipləmə üsulu vasitəsi ilə məhsulun eyni olan yeni modelini qısa müddətdə əldə etməyə imkan yaranır. SolidWorks CAD kimi proqramlar və 3D texnologiyaların köməyi ilə çətin konfiqurasiyalı materialların istehsalı prosesi sadələşmişdir (şəkil 1).

Sürətli prototipləmə texnologiyaları maye, bərk və toz halında olmaqla 3 qrupa bölünür. İlkin mərhələdə maye halında olan məhsul lazer, işıq və temperaturun təsiri ilə bərk hala keçir. Bərk halda olan məhsuldan isə qəliblər vasitəsi ilə yeni məhsul bütöv şəkildə çıxardılır. Toz halında olan məmulatlar forma baxımından fərqli kateqoriyaya aid edilir və təhlil olunur. Belə ki, toz dənəcikləri əridilir və ya yapışdırıcı vasitə ilə birləşdirilərək məsaməsiz vəziyyətə gətirilir.


Müasir kompüter layihələndirmə sistemləri (CAD) yeni məmulatların işlənib hazırlanmasında vaxt və vəsait sərfinin əhəmiyyətli dərəcədə azaldılmasına imkan yaradır. Lakin məmulatın ilk fiziki nümunəsinin hazırlanması problemi hələ də zəif cəhət kimi qalır. Detalların və müvafiq qəliblərin hazırlanma texnologiyasının işlənib hazırlanması böyük məsrəf tələb edir. Modernizasiya olunmuş istehsal məhsulları nisbətən sürətli dəyişməsi və məhsulun funksional keyfiyyətlərini müəyyən edən əsas komponentlərin dəyişməzliyi ilə xarakterizə olunur. Dizayn xüsusən termoplastik avtomatlarına,

qəlibləmə üsulu ilə hazırlanmış gövdə hissələrinə, dekor elementlərinə aiddir. Additiv texnologiyasından istifadə edərək daha aşağı bir qaynaq ilə yüngül lehimli bir qəlib hazırlamaq mümkündür.



Şəkil 1. *SolidWorks proqramında siyirtmə gövdəsinin hazırlanması üçün 3D modeli*

Ənənəvi tökmə texnologiyası üçün AT texnologiyaları yeni imkanlar təklif edir. Məsələn, bir qəlib, adi işləmə metodları ilə hazırlana bilməyən konfiqurasiya soyutma kanalları ilə birlikdə asan sadə bir CAD dizayn və 3D qurğunun köməyi ilə hazırlanması kimi erqonomik həllər təklif edir (şəkil 2 və 3).



Şəkil 2. *3D texnologiyası ilə hazırlanmş siyirtmə gövdəsi*



Şəkil 3. *3D çapı ilə hazırlanmış metal hidravlik kollektorlar*

3D texnologiyası ilə hazırlanmış hidravlik kollektorların çəkisi 1,5 kq-dan 0,98 kq-a qədər azalır, çəki itkisi 35%-ə qədərdir. Həcmi 535 sm3-dən 116 sm 3-ə qədər azalır, həcminin azalması 78%-ə qədərdir. Bu da ənənəvi üsullarla hazırlanmış kollektorlardan əhəmiyyətli dərəcədə üstünlükləri ilə seçilir. Axının xüsusiyyətləri qövdə boyunca hamar keçid üçün düz bucaqlı keçidlə axın trayektoriyasının dəyişdirilməsi hesabına yaxşılaşır. Metal qəliblərin istehsalı hidravlik kollektorun inteqrasiya olunmuş strukturunu yarada biləcəyi üçün əlavə texnoloji qazma tələb olunmur, bu da sızma riskini azaldır və performansını və sabitliyini artırır.

3D çap klapan istehsalında yeni bir dövrdür və demək olar ki, hər gün yeni texnologiyaların inkişafına töhfə verir. 3D çap klapan mühəndislərinin məhsulların necə inkişaf etdirildiyini və

təkmilləşdirildiyini, eləcə də istifadəçilərin xüsusi klapan istehsalı prosesinin necə istifadəyə yararlı olduğunun bariz nümunəsidir.

"3D-çap" termini bu gün adətən siyirtmə və hidravlik klapanlarin layihələndirməsinin modelləşdirilməsi istehlakçı yönümlü modellərlə assosiasiya olunur. "Additive Production" termini insanların sənaye proseslərini nəzərdə tutduqları zaman prosesə daxil olur. Bu iki proses adətən eynidir. Polimerlər və ya metallar maddələr olub-olmamasından asılı olmayaraq, texnologiya ardıcıl qat ilə avtomatlaşdırılmış nəzarət altında bütün 3D iş texnologiyalarının birləşməsi ilə nəticələnir.

Tədqiqat layihələri, keçmişdə mümkün olduğundan daha sürətli, daha iqtisadi və daha yaxşı mexaniki xüsusiyyətləri ilə emal sənayesi üçün tənzimləyici klapanların layihələndirilməsi və istehsalı üçün metodların inkişaf etdirilməsini sürətləndirir. İnkişaf etdirilən texnologiyaların əksəriyyəti müxtəlif sənaye sahələrində də tətbiq oluna biləcəyinə inanılır. Additiv istehsal əsasən subtraktiv istehsalın ənənəvi üsullarından fərqli olaraq, məhsulun yaradılması üçün qat-qat əlavə edilən üçölçülü modeldən obyektlərin yaradılması üçün materialların birləşdirilməsi prosesidir.

Nəticə. Beləliklə, apardığımız təhlil göstərir ki, additiv texnologiyalarin siyirtmə və hidravlik klapanlarin layihələndirmə və istehsal dinamikasını xeyli sürətləndirir. Yeniliklərlə də paralel olaraq standartlara ehtiyac yaranır və bu problemi həll etmək üçün Additiv texnologiyalar əlavə istehsal standartlaşdırma üzrə birgə proqram yaradılmasına ehtiyac yaranır.

Additiv texnologiyanin məqsədi ümumi sənaye standartlarının və additiv istehsal spesifikalarının inkişafını koordinasiya etmək və sürətləndirməkdir. Additiv istehsal və ya 3D çap böyük miqyaslı kütləvi istehsalı və ya daha ixtisaslaşdırılmış klapan istehsalı üçün iqtisadi cəhətdən məqsədəuyğun hesab olsa da, bu sahə də zamanla siyirtmə və hidravlik klapan sənayesinin inkşafına öz müsbət tövhələrini verəcəkdir.

Additiv texnologiyalar vasitəsi ilə yeni məhsul bazara çıxmadan təkcə prototip hazırlanmasında yox, kütləvi istehsalda da aktual məsələyə çevrilmişdir. 2020-ci ildə İtaliyada pandemiyadan tibbi ləvazimat qıtlığı yaşanarkən kütləvi sistem klapan istehsalının köməyi ilə böhrannan qısa müddətdə çıxmaq mümkün olmuşdur. Additiv texnologiyalar hal hazırda təkcə metallurgiya sahəsində yox digər sənaye sahələrindədə aktiv istehsal olunur.

Ədəbiyyat

1. Gebhard, A. Additive Fertigungsverfahren: Additive Manufacturing und 3D-Drucken für Prototyping - Tooling – Produktion. Verlag: Carl Hanser, München; 2016, 736 S.
2. Gibson, I., Rosen, D. W., Stucker, B. Additive Manufacturing Technologies: Rapid Prototyping to Direct Digital Manufacturing. Verlag: Springer; 2010- 459 p.
3. Pham, D.T., Dimov, S.S. Rapid Manufacturing: the technologies and applications of rapid prototyping and rapid tooling. London-Berlin Heidelberg, 2000. pp. 206.
4. Meyer, R.(Hrg.) Euro-u Rapid 2002 (Tagungsband) Internationale Konferenz zu RP & RT & RM, Frankfurt/Main 2./3. 12.2002. Fraunhofer- Allianz Rapid Prototyping
5. Messe Erfurt AG (Hrg.) Rapid.Tech (Tagungsband) Anwendertagung und Fachausstellung für Rapid-Technologien 25./26.05.04. DESOTRON Verlagsgesellschaft Dr. Günter Hartmann & Partner GbR Erfurt[1]
6. Ambos, E., Hornig, T. et al.: Erfahrungen zum Einsatz von Stereolithographiemodellen in der Giessereitechnik// Giesserei-Praxis Nr. 13/14 1995.
7. Jacobs, P.F. Recent Advances in Rapid tooling from Stereolithography. 3D- Systems, Darmstadt 1997.
8. Jacobs, P.F. Rapid Prototyping&Manufacturing. Society of Manufacturing Engineers, Dearborn 1992.

Məqalə qəbul olunub: 29.03.2022
Tövsiyə ediblər: t.e.d., prof. A.T.Məmmədov; t.e.d., prof. N.Ş.İsmayılov

УДК 629.5

ВЛИЯНИЕ УСЛОВИЙ ЭКСПЛУАТАЦИИ НА КОРПУСА СУДОВ И ШТАНГ ГЛУБИННОНАСОСНЫХ ШТАНГОВЫХ УСТАНОВОК ИЗ СТЕКЛОВОЛОКНИСТОГО МАТЕРИАЛА

Рагимова А.А., Нариманов Р.Н., Мамедов Э.Д.

Азербайджанский Государственный Университет Нефти и Промышленности
AZ1010, г. Баку, пр. Azadlıq, 20
Азербайджанская Государственная Морская Академия
AZ1000, г. Баку, ул. З.Алиевой, 18
E-mail: ragimova.adila@mail.ru, rustam.narimanov.73@inbor.ru, elxantec@mail.ru

Аннотация. *Тема статьи указывает на тяжелые условия работы конструкций корпусов судов и глубиннонасосных штанговых установок. Корпуса судов и наиболее ответственная деталь в глубиннонасосных сважинных установках штанга изготавливаются из стекловолокнистого материала. В качестве примера для штанг приводится материал марки СВАМ, так как он по своей однонаправленной структуре более прочный материал. Рассматриваются нагрузки, действующие при эксплуатации корпусов судов и глубиннонасосных штанг. Так же отмечаются неблагоприятные условия работы, отрицательно, влияющие на структуру стекловолокнистого материала. Учитываются определенные преимущества стекловолокнистого материала по сравнению со сталью и другими материалами.*

Xülasə. *Məqalənin mövzusu gəmi gövdəsi strukturlarının və dərin quyu nasos ştanq qurğularının çətin iş şəraitini göstərir. Gəmi gövdələri və quyu nasos qurğularının ən vacib hissəsi olan ştanq şüşəlifli materialdan hazırlanır. Ştanq üçün nümunə olaraq ŞLAM markasının materialı verilmişdir, ona görə ki o, bir istiqamətli strukturunda daha güclü bir materialdır. Gəmi gövdələrinin və dərin quyuların nasos ştanqlarının istismarı zamanı təsir edən qüvvələr nəzərə alınır. Şüşəlifli materialın strukturuna mənfi təsir göstərən əlverişsiz iş şəraiti də qeyd olunur. Şüşəlifli materialın polad və digər materiallarla müqayisədə müəyyən üstünlükləri nəzərə alınır.*

Abstract. *The subject of the article points to the difficult working conditions of the structures of ship hulls and deeppumping rod installations. The hulls of ships and the most important part in deeppumping borehole installations, the rod are made of fiberglass material. As an example for barbells, the material of the SWAM brand is given, since it is a more durable material in its unidirectional structure. The loads operating during the operation of ship hulls and deep-pumping rods are considered. Unfavorable working conditions are also noted, negatively affecting the structure of the fiberglass material. Certain advantages of glassfiber material in comparison with steel and other materials are taken into account.*

Ключевые слова: *условия эксплуатации, корпуса судов, глубинные насосы, штанги, стекловолокнистый материал*

Açar sözlər: *istismar şəraiti, gəmi gövdəsi, dərin nasoslar, ştanqlar, şüşəlifli material*

Key word: *operating conditions, ship hulls, deep pumps, rods, fiberglass material*

Введение. Эксплуатация конструкций деталей, корпусов и других частей оборудования в различных областях промышленности в данном случае нефтегазодобыче, судопроизводстве, происходит в тяжелых условиях и агрессивных средах. Это приводит к износу и старению.В глубинонасосных нефтедобывающих скважинных установках, одной из наиболее нагруженной деталью является колонна штанг, соединенная с плунжерным механизмом глубинного насоса. Корпуса и корпусные детали малых судов, подвергаются действию агрессивной морской среды и т.д. В целях экономии металла, применяют стекловолокнистый материал, как для

глубиннонасосных штанг, так и для корпусов судов. Необходимо учитывать влияние условий эксплуатации данного типов деталей и частей из этого материала, для его рационального применения. Для этого учитывается структура материала и его механические характеристики.

Основная часть. Известно что стекловолокнистый материал со времени его создания учеными, технологами является одним и основных конструкционных материалов. Он применяется в различных отраслях промышленности в том числе судопроизводстве и нефтегазодобыче.

Конструкции корпусов судов взаимодействуют с агрессивной морской средой. При статическом положении, то есть в неподвижном состоянии корпус судна больше подвержен агрессивной среде. В этом случае уменьшается прочность стекловолокнистого материала корпуса судна при взаимодействии с морской водой. Вспомогательные суда малых размеров с корпусами из стекловолокна (стеклопластика), в условии морского нефтегазового промысла, транспортируют оборудование и их части, в том числе глубинные насосы и штанги на эстакады. Следовательно, корпус судна при транспортировке определенного груза, воспринимает нагрузку от веса груза, ударную нагрузку морской волны и агрессивной среды воды. Учитывая эти факторы, необходимо увеличить прочность стекловолокнистого материала. Например обработкой адгезионно-гидрофобным веществом. Так же необходимо отверждение стекловолокна, при специальном условии не ниже температуры 18^0 и не высокая относительная влажность воздуха. Преимущество конструкции корпусов судов из стекловолокна этих антикоррозионность, меньший вес по сравнению с деревом и металлом при той же прочности, имеют высококую ударную стойкость и т.д.

В отличии от судопроизводства, добыча нефти и газа, скважинными глубиннонасосной установки, работающие в этих условиях. С этой целью рассмотрим, какие процессы происходят в структуре стекловолокнистого материала штанг. Для эксплуатации штанг из стекловолокна в глубинных насосах, необходимо применять наиболее прочный и долговечный материал то есть высокого качества и соответствующей марки. Технология изготовления стекловолокна и ее механические характеристики, отличаются от стали. Приведем пример стекловолокна марки СВАМ (рис1).




Рис.1. *Схематичное изображение части тела глубиннонасосной штанги, изготовленной из стекловолокнистого материала марки СВАМ*

Ниже приводится таблица изменения прочности стекловолокнистого материала этой же марки горячего прессования после выдерживания в воде.

Таблица 1

Изменение прочности стеклопластиков горячего прессования после выдерживания в воде

Тип стекло-пластика	Связующая смола	Армирующее стекло-волокно	Объемный вес, г/см^3	Толщина образца, мм	Испытание	Предел прочности, МПа					
						контрольные образцы	после выдерживания в воде, час				
							24	72	240	480	960
СВАМ	Эпоксид-нофе-нольная (35,8 %)	Волокно из бесще-лочного чтекла (1:1)	1,69	3,25	Растя-жение	1360	122,2 (89,8 %)	129,6 (95,3 %)	-	115,5 (84,7%)	113,5 (81,5%)
					Изгиб	2311	210,1 (91 %)	175,1 (75,8%)	175,1 (75,8%)	172,9 (75,8%)	171 (74,0)

Этот материал изготовляется, как непрерывное, однонаправленное волокно, как непрерывное, однонаправленное волокно, покрываемое жидкой синтетической смолой или ее раствором без замасливателей. Следовательно связь между волокнами этого материала более прочная, что способствует более надежной эксплуатации стекловолокнистых штанг. На рис.2 показана схема установки, для изготовления материала стекловолокна марки СВАМ.




Рис. 2. *Получение стекловолокна СВАМ*
1-бункер для стеклянных шариков; 2-электропечь; 3 – фильеры; 4 – наматывающий барабан

Известно что, наиболее высокая прочность стеклопластика обеспечивается при 65%-ном содержании стекловолокна. При вертикальном движении штанги вниз, на ее тело действует сжимающая нагрузка P_c, что приводит к сжимающим напряжениям в структуре материала (стекловолокна). То есть волокна в теле штаги подвергаются сжимающей деформации и относительному изгибу. Перемещение штанги вверх, будет действовать растягивающая нагрузка P_p, следовательно волокна материала растягивают воспринимают напряжения растяжения σ_p. В результате этих нагрузок и напряжений, образуется определенная температура в теле штанги, способствующим усталостным напряжениям. Это приводит к расширению волокон в поперечном сечении штанги и образованию деффекта, а так же есть вероятность обрыва. Вышеуказанные растягивающие и сжимающие нагрузки и напряжения, так же есть действуют при образовании давлений всасывания и нагнетания плунжером глубинного насоса, из-за движения штанг вверх и вниз.

Учитывая волокнистую, однонаправленную структуру выбранного в качестве примера материала марки СВАМ для штанг и атомно-молекулярное строение волокна, можно проанализировать движение и взаимодействие этих частиц в структуре волокна данного материала при эксплуатации штанг. Как указанно выше на штангу действуют растягивающие

нагрузки, что приводит к смещению по вертикальной плоскости сечения тела волокнистого материала штанги, его атомов и молекул, то есть увеличению расстояния между ними и уменьшению взаимодействия между этими частицами. Сжимающие нагрузки в теле штанги, уменьшают расстояние между молекулами волокна, приводящие к их сближению. Эти процессы способствуют анизотропности материала и как следствие к его износу. В тяжелых условиях эксплуатации глубинных насосов, как на суше так и на морских эстакадах (сооружениях), материал штанг воспринимает влажность среды и температуру. Антикоррозионные свойства стекловолокнистого материала, аналогично как с конструкцией корпуса судна, уменьшает действие влажной среды. Действие температуры, расширяет или сужает тело штанги, цилиндрической конструкции значит и сам ее материал. Относительно высокая температура, повышает движение молекул в стекловолокне, а низкая температура уменьшает подвижность частиц.

Неблагоприятные условия работы, как глубиннонасосных штанговых установок на суше и на морских эстакадах, так же вспомогательных судов малых размеров, отрицательно влияют на стекловолокнистый материал их конструкций штанг и корпусов судов то есть на ихнюю структуру. Учитывая это, уменьшается долговечность материала. Но определенные преимущества стекловолокнистого материала, перед другими материалами, применяемыми как в судопроизводстве, так и в нефтегазодобыче, в частнасти, как сталь, делает эксплуатацию корпусов судов и глубиннонасосных штанг рационально и экономично.

Выводы. Эксплуатация вспомогательных судов в суровых морских промысловых условиях, способствует износу конструкций их корпуса. Так же тяжелые условия работы глубинных скважинных насосных установок, как на суше так и на море, изнашивают их колонну штанг. С целью экономии металла или стали, корпуса судов и колонны штанг изготовлают из стекловолокнистого материала. Этот материал по своим характеристикам по сравнению с металлом или сталью имеет определенные преимущества. При выборе данного материала, необходимо учитывать условия работы и их влияние на эксплуатацию корпусов судов и колонны глубиннонасосных штанг с целью повышения долговечности материала и конструкции.

Литература

1. Мейслинг Г. Оборудование и отделка судовых помещений (пер. с немец.), Судпромгиз.
2. Михайлов Н.В. Полимерные химические волокна, изд-во «Знание».
3. Николаев Л.А. Синтетические материалы в народном хозяйстве, Изд-во «Знание».
4. Петров Г.С., Рутовский Б.Н., Лосев И.П. Технология синтетических смол и пластмасс, Госхимиздат.
5. Пешехонов А. А. Физико-механические свойства пластиков.
6. Сборник «Пластмассы в машиностроении, сборник.
7. Delmont G., Plastics in Engineering, Cleveland, USA.
8. Kinney G. F. Engineering Properties and Application of plastics, New-York.
9. Mandler Heinz. Duroplaste, Halle.

Məqalə qəbul olunub: 21.04.2022
Tövsiyə ediblər: t.e.d., prof. A.T.Məmmədov; t.e.d., prof. N.Ş.İsmayılov

UOT 621.941.01

MÜASİR RPİ ÇOXMƏQSƏDLİ DƏZGAHLARINDA ÇOXALƏTLİ EMALIN XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMİ

Yusubov N.D., Abbasova H.M.

Azərbaycan Texniki Universiteti
AZ1073, Bakı şəh., H.Cavid pr., 25
E-mail: nizami.yusubov@aztu.edu.az

Xülasə. *Məqalədə müasir RPİ ÇMD-lər, onların üstün cəhətləri, müasir RPİ ÇMD-lərin imkanlarının çoxalətli emal nöqteyi-nəzərindən araşdırılması, çoxalətli sazlamalar şəklində ÇMD-lərin texnoloji imkanları nümunələri, çoxalətli çoxsupportlu emal (paralel çoxalətli emal) prosesinin xüsusiyyətləri, çoxalətli emalın ölçü-dəqiqlik nəzəriyyəsi, mexaniki emal texnoloji proseslərinin riyazi modelləşdirilməsi, ölçülərin təhrif olunmasının tamfaktorlu modeli kimi məsələlərə baxılmışdır.*

Analiz əsasında müasir RPİ ÇMD-lər konstruksiyasına görə 5 tipə ayrılmışdır. ÇMD-lərin konstruksiya tiplərinin hər birinin imkanlarının analizi aparılmış və sazlama imkanlarına baxılmışdır. Qeyd etmək lazımdır ki, müasir şərtlər daxilində RPİ avadanlıqlarından istifadə zamanı maksimal effektivliyin əldə olunması qarşıya məqsəd olaraq qoyulur. Çoxalətli sazlamanı ÇMD-lərə tətbiq etməklə hissələrin emal vaxtını əhəmiyyətli dərəcədə aşağı salmaq, buraxılan məmulun keyfiyyətini yüksəltmək və stabilləşdirmək, alət xərclərini azaltmaq mümkündür.

Abstract. *The article discusses modern multi-purpose CNC machines, their advantages, study of the capabilities of modern multi-purpose CNC machines from the point of view of multi-tool machining, examples of the technological capabilities of multi-tool machines in the form of multi-tool adjustments, features of the process of multi-tool multi-carriage machining (parallel multi-tool machining), dimensional-accuracy theory of multi-tool machining, mathematical modeling of technolo-gical processes of mechanical processing, full-factor size distortion model.*

Based on the analysis of the design, 5 types of modern multi-purpose CNC machines were identified. The analysis of the capabilities of each of the design types of multipurpose machines is carried out and the possibilities of adjustment are considered. It should be noted that the goal is to achieve maximum efficiency when using CNC equipments in modern conditions. By applying a multi-tool adjustment to multi-purpose machines, it is possible to significantly reduce the machining time of parts, improve and stabilize the quality of the product, and reduce tool costs.

Аннотация. *В статье рассматриваются современные многоцелевые станки с ЧПУ, их преимущества, исследование возможностей современных многоцелевых станков с ЧПУ с точки зрения многоинструментной обработки, примеры технологических возможностей многоцелевых станков в форме многоинструментных наладок, особенности процесса многоинструментной многосуппортной обработки (параллельной многоинструментной обработки), размерно-точностная теория многоинструментной обработки, математическое моделирование технологических процессов механической обработки, полнофакторная модель искажения размеров.*

На основании анализа по конструкции выделено 5 типов современных многоцелевых станков с ЧПУ. Проведён анализ возможностей каждого из конструктивных типов многоцелевых станков и рассмотрены возможности наладки. Следует отметить, что целью является достижение максимальной эффективности при использовании оборудования с ЧПУ в современных условиях. Применяя многоинструментную наладку на многоцелевых станках с ЧПУ, можно значительно сократить время обработки деталей, улучшить и стабилизировать качество изделия, снизить затраты на изготовление инструмента.

Açar sözlər: *çoxalətli emal, çoxməqsədli dəzgahlar, çoxalətli sazlamalar, dəqiqlik modelləri*
Key words: *multi-tool machining, multi-purpose machines, multi-tool adjustments, accuracy models*
Ключевые слова: *многоинструментная обработка, многоцелевые станки, многоинструментные наладки, модели точности*

Giriş. Çoxməqsədli dəzgahlar (ÇMD) – bir neçə müxtəlif növ kəsmə ilə emalı (yonma, frezləmə, içyonuş, burğulama, yiv açma və s.) yerinə yetirmək üçün alətin avtomatik dəyişdirilməsinə və rəqəmli proqramla idarəetməyə malik dəzgahlardır. Başqa sözlə, RPİ ÇMD mürəkkəb hissələrin müxtəlif tərəflərdən və onların başqa yerə (digər dəzgaha) köçürülməsi olmadan kompleks emalını təmin edən və bir qayda olaraq, alətin avtomatik dəyişdirilməsinə malik RPİ dəzgahı adlanır [1, s. 3-5], [2, s. 57]. Bu dəzgahlar fırlanma cisim tipli və müstəvi hissələrin, gövdələrin emalı üçün buraxılırlar. Birinci halda emal üçün torna-frez və pardaq dəzgahları qrupundan, ikinici halda isə burğu-frez-içyonuş dəzgahları qrupundan ÇMD-lər (emal mərkəzləri (EM-lər) və ya çoxəməliyyatlı dəzgahlar (ÇƏD-lər) istifadə olunur [1, s. 3].

EM-lərdə sağ tərəfli düzbucaqlı koordinat sistemi qəbul edilir. Bu sistemin X, Y, Z koordinat oxları sağ əlin böyük (baş), şəhadət və orta barmaqları istiqamətinə uyğun olur. Ümumi proqramlaşdırma halında, Z oxu şpindelin fırlanma oxları ilə üst-üstə düşür və onun müsbət istiqaməti hissə tərəfdən qəbul edilir. Adətən EM hissəni ardıcıl olaraq bir neçə alət ilə emal edir. Frez emalının konturu bir çox prosedurlarda X-Y planında formalaşır, burğulama isə alətlərin Z ox boyunca hərəkəti zamanı həyata keçirilir [3, s. 5-6].

ÇMD-lər çoxməqsədli olmayan, lakin alətlərin avtomatik dəyişdirilməsi ilə digər RPİ dəzgahlarından yüksək emal konsentrasiyası ilə xüsusilə seçilir [4, s. 176]. Onlarda özündə onlarla emal olunan səthləri birləşdirən mürəkkəb gövdə pəstahlarının kobud, yarımtəmiz və təmiz emalını, ən müxtəlif texnoloji keçidləri – müstəvilərin, çıxıntıların, qanovcuqların, quyuların frezlənməsini, hamar və pilləli deşiklərin burğulanmasını, zenkerlənməsini, rayberlənməsini, içyonuşunu, xarici və daxili səthlərin emalını və s. həyata keçirirlər [5, s. 36-37].

Bu əməliyyatları yerinə yetirmək üçün dəzgah metalkəsən alətlərin böyük ehtiyatına malik olmalıdır. ÇMD-lər 15-30 ədəd ehtiyatı ilə, ehtiyac olduqda 50-100 və daha çox alət ehtiyatına malik alət mağazalarına (anbarlarına) malik olur. Bu da onları digər RPİ dəzgahlarından fərqləndirən cəhətlərdən biridir [6, s. 305-355].

Əksər ÇMD-lərin daha bir mühüm xüsusiyyəti onlarda stolun və ya dövri və ya fasiləsiz (proqram üzrə) bölgü ilə bölücü tərtibatın olmasıdır. Bu yenidən yerləşdirmə olmadan bir neçə tərəfdən pəstahın emalı üçün mütləq (zəruri) şərtdir. Yeni konstruksiyalı dəzgahları əlavə stollar və pəstahı avtomatik dəyişmək üçün qurğular ilə təchiz edirlər. Pəstah ilkin olaraq tərtibat-peykdə (cığırdaşda) bərkidilir və onlar birlikdə əlavə stoldan əsas stola ötürülür. Pəstahın sputnikə (peykə) yerləşdirilməsi və emal olunmuş hissənin çıxarılması dəzgahın işi zamanı yerinə yetirilir. Beləliklə, dəzgahın yüklənməsinə sərf olunan köməkçi vaxt minimuma endirilir [1, s. 3; s. 176-178].

Müasir RPİ çoxməqsədli dəzgahların imkanlarının çoxalətli emal nöqteyi nəzərindən araşdırılması. Texnoloji avadanlıq bazarında təqdim olunmuş RPİ ÇMD-lərin bazasında çoxalətli emala imkan verən analiz aparılmışdır. Araşdırma zamanı ÇMD-lərin konstruksiyalarının 5 tipi qeyd edilmişdir [7, s. 67]. Hər konstruksiya tipi üçün dəzgah modelləri və istehsalçı firma (dəzgah nümayəndələri) qeyd edilmişdir. Tez-tez rast gəlinən ÇMD-lərin konstruksiya tipləri ilə tanış olduqdan sonra hər avadanlıq tipinin imkanlarının analizi aparılmış və sazlama imkanlarına baxılmışdır. Dəzgahların konstruksiyalarının sxemləri, texniki xarakteristikaları və bu dəzgahlarda mümkün sazlamalar hər avadanlıq tipi üçün müvafiq olaraq cədvəllərdə göstərilmişdir [2, s. 60-61].

Çoxalətli sazlamalar şəklində çoxməqsədli dəzgahların texnoloji imkanları nümunələri. Sazlamanı layihələndirərkən sazlamada iştirak edən alətlərin eyni vaxtda işləməsinə səy göstərməli və səthlərin emalının elə uyğunlaşdırılmasına nail olmaq lazımdır ki, bu zaman bir alətdən yaranan kəsmə qüvvəsi digər alətdən yaranan kəsmə qüvvəsi ilə balanlaşdırılsın.

ÇMD-lərdə emalın dəqiqliyi 11-13-cü kvalitetdə təmin olunur. Sazlama və texnoloji təchizatın düzgün seçilməsi nəticəsində dəqiqlik 6-9-cü kvalitetə qədər yüksəldilə bilər [2, s. 61].

Eyni zamanda işləyən alətlərin sayını artırarkən dəzgahın sərtliyi, hissə və onun dəzgahda bərkidilməsi mütləq nəzərə alınmalıdır.










Sazlama zamanı alətlərin sayını həddən artıq götürmək olmaz, belə ki, bu zaman dəzgahda titrəmələrə, kəsmə qüvvəsinin artması isə alətin sürətlə yeyilməsinə və onun tez-tez tənzimlənməsinə və dəyişilməsinə gətirib çıxarır.

Çoxalətli texnoloji avadanlıqlardan tam istifadə etmək məqsədilə sürətli kəsmə rejimlərində sazlama zamanı iki və az hallarda üç alət götürmək məsləhətdir. Bu zaman kəsmə sürətinin və verişin artması hesabına məhsuldarlıq 30-40% yüksəlir, eləcə də alət xərcləri də azalmış olur [4, s.176].




Cədvəl 1-də RPİ ÇMD-lərdə geniş istifadə olunan alətlər göstərilmişdir.

Cədvəl 1

RPİ ÇMD-lərdə istifadə edilən kəsən alətlər

<table>
<tr><td colspan="4">Tutqaclı alətlər qrupu</td></tr>
<tr><td>1</td><td>2</td><td>3</td><td>4</td></tr>
<tr><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="2">5</td><td colspan="2">6</td></tr>
<tr><td colspan="2"></td><td colspan="2"></td></tr>
<tr><td colspan="4">İçyonuş sağanaqlı kəskilər qrupu</td></tr>
<tr><td>7</td><td>8</td><td colspan="2">9</td></tr>
<tr><td></td><td></td><td colspan="2"></td></tr>
</table>

Cədvəl 1-in ardı

<table>
<tr><td colspan="4">Yiv açmaq üçün alətlər qrupu</td></tr>
<tr><td colspan="3">10</td><td>11</td></tr>
<tr><td colspan="2">
</td><td>
</td><td rowspan="2">
</td></tr>
<tr><td colspan="2">Xarici yivləri açmaq üçün</td></tr>
<tr><td>Aləti aşağıdan yaxınlaşdırmaq üçün</td><td>Aləti yuxarıdan yaxınlaşdırmaq üçün</td><td>Daxili yivləri açmaq üçün</td></tr>
<tr><td colspan="4">Oxlu alətlər qrupu</td></tr>
<tr><td>12</td><td>13</td><td>14</td><td>15</td></tr>
<tr><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>burğu</td><td>zenker</td><td>rayber</td><td>sekovka</td></tr>
<tr><td>16</td><td>17</td><td>18</td><td>19</td></tr>
<tr><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Haşiyə frezi</td><td>Ümumi təyinatlı frez</td><td>Nov frezi</td><td>Lövhə frez</td></tr>
<tr><td>20</td><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Yiv burğusu</td><td></td><td></td><td></td></tr>
</table>

Cədvəl 2-də isə hər 5 tip dəzgahda çoxalətli emal zamanı istifadə olunan sazlamalarda alətlərin uyğunluğu və iki alətdən ibarət olan sazlamaların xülasəsi bütün variantlarda verilmişdir.

Cədvəl 2

ÇMD-lərdə iki alətdən ibarət olan sazlamaların xülasəsi

1-ci tip avadanlıq üçün

Alətin nömrələnməsi cədvəl 1-ə əsaslanır	Alətin nömrəsi (cədvəl 1 üzrə)																				
	1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20
1	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	o	o	o	o
2	t	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	o	o	o	o
3	t	t	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	o	o	o	o
4	t	t	t	+	+	+	+	+	+	+	+	+	+	+	+	+	o	o	o	o
5	t	t	t	t	+	+	+	+	+	+	+	+	+	+	+	+	o	o	o	o
6	t	t	t	t	t	o	o	o	o	+	o	o	o	o	o	o	o	o	o	o
7	t	t	t	t	t	t	o	o	o	+	o	o	o	o	o	o	o	o	o	o
8	t	t	t	t	t	t	t	o	o	+	o	o	o	o	o	o	o	o	o	o
9	t	t	t	t	t	t	t	t	o	+	o	o	o	o	o	o	o	o	o	o
10	t	t	t	t	t	t	t	t	t	+	+	+	+	+	+	+	+	+	o	+
11	t	t	t	t	t	t	t	t	t	t	o	o	o	o	o	o	o	o	o	o
12	t	t	t	t	t	t	t	t	t	t	t	+	+	+	+	+	+	+	+	+
13	t	t	t	t	t	t	t	t	t	t	t	t	+	+	+	+	+	+	+	+
14	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	+	+	+	+	+	+	+
15	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	+	+	+	+	+	+
16	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	+	+	+	+	+
17	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	+	+	+	+
18	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	+	+	+
19	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	+	+
20	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	+

2-ci tip avadanlıq üçün

Alətin nömrələnməsi cədvəl 1-ə əsaslanır	Alətin nömrələnməsi cədvəl 1-ə əsaslanır																				
	1	2	3	4	5	6	(7)	8	9	10	11	12	13	14	15	16	17	18	19	20
1	o	o	o	o	o	o	+/-	o	o	o	o	+!	+!	+!	+!	+!	+!	+!	o	+!
2	t	o	o	o	o	o	+/-	o	o	o	o	+!	+!	+!	+!	+!	+!	+!	o	+!
3	t	t	o	o	o	o	+/-	o	o	o	o	+!	+!	+!	+!	+!	+!	+!	o	+!
4	t	t	t	o	o	o	+/-	o	o	o	o	+!	+!	+!	+!	+!	+!	+!	o	+!
5	t	t	t	t	o	o	+/-	o	o	o	o	+!	+!	+!	+!	+!	+!	+!	o	+!
6	t	t	t	t	t	o	o	o	o	o	o	o	o	o	o	o	o	o	o	o
(7)	t	t	t	t	t	t	o	o	o	+/-	o	o	o	o	o	o	o	o	o	o
8	t	t	t	t	t	t	t	o	o	o	o	o	o	o	o	o	o	o	o	o
9	t	t	t	t	t	t	t	t	o	o	o	o	o	o	o	o	o	o	o	o
10	t	t	t	t	t	t	t	t	t	o	o	+!	+!	+!	+!	+!	+!	+!	o	+!
11	t	t	t	t	t	t	t	t	t	t	o	o	o	o	o	o	o	o	o	o
12	t	t	t	t	t	t	t	t	t	t	t	+!	+!	+!	+!	+!	+!	+!	o	+!
13	t	t	t	t	t	t	t	t	t	t	t	t	+!	+!	+!	+!	+!	+!	+!	+!
14	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	+!	+!	+!	+!	+!	+!	+!

Cədvəl 2-in ardı

		1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20
	15	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	+!	+!	+!	+!	+!	+!
	16	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	+!	+!	+!	+!	+!
	17	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	o	o	o	+!
	18	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	o	o	+!
	19	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	o	+!
	20	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	t	+!

+	Istehsalatda istifadə olunan sazlama
+	Avadanlıqların imkanlarına əsaslanan nəzəri mümkün sazlama
+!	əks şpindeldə yerləşən alətlə ancaq mərkəz yuvalarını emal etmək mümkündür, belə ki, eninə yerdəyişmə mümkün deyil.
+/-	Sazlama iqtisadi cəhətdən məqsədyönlü deyil, belə ki, xüsusi kəsici alət hazırlanmasını tələb edir.
o	Sazlamada alətlərin belə uyğunlaşdırılması mümkün deyil.
t	Təkrarlanan sazlamalar, yəni 2-1 və 1-2
3-cü tip avadanlıqlar üçün	
1-ci tip avadanlıqlarda istifadə olunan sazlamalar hamısı burada istifadə olunur.	
4(a) tip avadanlıqlar üçün	
2-ci tip avadanlıqlarda istifadə olunan sazlamalar hamısı burada istifadə olunur.	
4(b) tip avadanlıqlar üçün	
1-ci tip avadanlıqlarda istifadə olunan sazlamalar hamısı burada istifadə olunur.	

Üçalətli sazlamalara aşağıdakı avadanlıqların imkanları şərait yaradır: 3 revolver başlıqlı birinci tip avadanlıqlar; üçüncü və dördüncü b tipli avadanlıqlar. Dördalətli sazlamalara üçüncü tip dəzgahların imkanları şərait yaradır.

Qeyd etmək lazımdır ki, hazırda istənilən RPİ dəzgahından maksimum sə-mərəlilik əldə olunmasına çalışırlar. RPİ ÇMD-lərdə də çoxalətli sazlamaların tətbiq edilməsi hissələrin emal vaxtının kəskin azalmasına, buraxılan məhsulun keyfiyyətinin stabilləşdirilməsinə və yüksəldilməsinə və alət sərfininn azaldılmasına imkan verər.

Çoxalətli sazlamaların tətbiqinin araşdırılması göstərir ki, nəzəri olaraq mümkün 400 sazlamadan (cədvəl 2) yalnız 36-sı, yəni 9 %-dən istifadə olunur. Bu fakt isə ondan xəbər verir ki, müasir RPİ ÇMD-lərin yüksək potensialına baxmayaraq, belə texnoloji imkanların reallaşdırılması çox aşağı səviyyədədir. Bu isə öz növbəsində, belə sazlamaların layihələndirilməsi və tətbiq edilməsi ilə əlaqədar tövsiyələrin olmaması ilə izah olunur [7, s. 68].

Hazırda RPİ dəzgahları ilə bağlı ədəbiyyatlarda [8, s. 108-159], [9, s. 185-404], [10, 472 s.] kəsmə rejimlərinin və vaxt normalarının təyini üzrə tövsiyələr mövcuddur. Lakin bu ədəbiyyatlarda çoxalətli emal haqqında və belə emal zamanı kəsmə rejimlərinin təyini haqqında heç bir məlumat verilmir. Bu səbədən məhz çoxalətli çoxsupportlu sazlamaların layihələndirilməsi və tətbiqi üzrə tövsiyələrin işlənməsi zəruridir [4, s.177].

Çoxalətli çoxsupportlu emal prosesinin xüsusiyyətləri. Torna avtomat-dəzgahlar qrupunda çoxalətli çoxsupportlu sazlamaların layihələləndirilməsi zamanı bir sıra xüsusiyyətləri nəzərə almaq lazımdır.

Buraya ayrı-ayrı mövqe və keçidlərin qarşılıqlı kinematik və təşkilati əlaqəsi, supportların verişlərinin təyin edilməsi məsələsi, sazlamanın ayrı-ayrı alətlərinin qarşılıqlı təsiri və s. daxildir. Bununla əlaqədar, limitləyici alət üzrə dövrlər sayının təyin edilməsi sazlamanın əksər alətlərinin konkret alət üçün qeyri-rasional kəsmə şərtlərində (adətən kiçik sürətlər zonasında) işləməsinə gətirib çıxarır. İstehsalatda əldə olunan təcrübə göstərir ki, emalın keyfiyyətini təmin etmək üçün (ölçülərin qeyri-stabilliyindən və emal olunan səthdə pillələrin əmələ gəlməsindən qaçmaqdan ötrü) müxtəlif

alətlərin işlərinin başlanğıc və son anlarını üst-üstə salmaq lazımdır. Bu məqam uzununa və eninə supportların verişlərinin işçi gedişlərinin vaxtlarının bərabərləşdirilməsi yolu ilə həll edilməsini tələb edir. Çoxalətli çoxsupportlu sazlamalar zamanı alətlərin sayının çox olması ilə əlaqədar olaraq, onların dəyişdirilməsi üçün paralel-qrup üsulundan istifadə edilməsi rasional hesab edilir. Bu da kəsmə rejimlərinin lazımı korrektə edilməsini (xüsusilə, kəsmə sürətlərini) zəruri edir.

Bundan başqa, çoxalətli çoxsupportlu əməliyyatın layihələndirilməsi sazlama strukturunun seçilməsinin çoxvariantlı məsələ olması ilə fərqlənir. Belə ki, hər bir səthin formalaşdırılması zamanı işçi gedişlər üzrə emal payının bölüşdürülməsi, mövqelər və supportlar üzrə alətlərin paylaşdırılması, keçidlərin üst-üstə salınması müxtəlif üsullar ilə həyata keçirilə bilər. Zavod sazlamalarının araşdırılması əməliyyatın məhsuldarlığının sazlamanın strukturundan əhəmiyyətli dərəcədə asılı olduğunu göstərir. Eyni zamanda texnoloji variantın seçilməsi icra edənin (məsələn, texnoloqun) şəxsi təcrübəsinə əsaslanır. Əlbəttə ki, emal sxemlərinin mümkün böyük sayında hissənin texniki tələblərini yerinə yetirməklə qəbul edilmiş variant texnoloji maya dəyəri, məhsuldarlıq və s. baxımından optimal olmayacaqdır.

Beləliklə, çoxalətli çoxsupportlu emal əməliyyatlarının mürəkkəbliyi və çoxvariantlığı layihələndirmə zamanı müəyyən avtomatlaşdırılmış layihələndirmə sistemlərinə və ya konkret sazlamalar üçün tövsiyələrə ehtiyac olduğunu göstərir.

Maşınqayırma istehsalının müasir inkişaf mərhələsi RPİ dəzgahlarının istehsala geniş tətbiqi ilə səciyyələnir. Hazırda respublikanın müxtəlif istehsal sahələrində böyük sayda RPİ dəzgahları istismar edilir. Son dövrlərdə əlavə funksiyalara (koordinat yerdəyişmələrinin asılı olmayan idarə edilməsi, kəsmə proseslərinin kinematikasının idarə edilməsi və s.) malik ikisupportlu RPİ dəzgahlarının istehsalatda istifadə edilməsinə xüsusi diqqət verilir. Belə dəzgahların mürəkkəb və bahalı olması onların istismarı zamanı yüksək məhsuldarlığı təmin edən istehsalın səmərəli hazırlığını tələb edir. Lakin belə dəzgahların istismarı zamanı müxtəlif supportlarda alətlərin yerləşdirilməsinə baxmayaraq (burada koordinat yerdəyişmələrinin müstəqil idarəetmə funksiyalı RPİ mikroprosessor qurğusu olmasına rəğmən) ikialətli ikisupportlu emal əsas etibarı ilə keçidlərin ardıcıl yerinə yetirilməsi ilə müşahidə olunur.

Müasir RPİ ÇMD-lərdə əməliyyatların proqramlaşdırılmasının mövcud avtomatlaşdırılmış sistemlərində ikisupportlu torna dəzgahları üçün texnoloji keçidlərin üst-üstə salınması məsələsinin həlli sınaq və səhvlər metodu ilə əl rejimində həyata keçirilir. Bu isə RPİ ÇMD-lərdə çoxalətli çoxsupportlu emalın layihələndirilməsi üzrə elmi əsaslandırılmış metodikanın olmamasını bir daha təsdiq edir və onun işlənməsinin aktual olduğunu bildirir.

Çoxalətli emalın ölçü-dəqiqlik nəzəriyyəsi. Yerinə yetirilən ölçülərin dəqiqliyi texnoloji prosesin layihələndirilməsi, sazlanması və reallaşdırılması zamanı ən birinci tələbdir [11, s. 39-42]. Buna görə də layihələndirilən texnoloji prosesin parametrləşdirilməsinin birinci məsələsi "Texnoloji prosesin ölçü araşdırılması" vahid bölməsini təşkil edən emal paylarının və əməliyyat ölçülərinin hesablanmasıdır. Parametrləşdirmə mərhələsinin ikinci məsələsi isə kəsmə rejimlərinin hesablanmasıdır [8, 368 s.], [9, s. 108-159].

Çoxalətli sazlamalarda yerinə yetirilən ölçülər və aralıq emal payları məhz kəsmə rejimlərinin parametrləri ilə əlaqəlidir. Bu səbəbdən texnoloji prosesin parametrləşdirilməsinin bu iki məsələsi eyni zamanda həll olunmalıdır [12, s. 191-232].

Ölçü-dəqiqlik layihələndirilməsi zamanı çoxalətliliyin nəzərə alınması metodları A.A. Koşin [12, s. 127-189] və N. D. Yusubovun [13, s. 36-39], [14, s. 52-54], [15, s. 15-188], [16, s. 51-117] işlərində göstərilmişdir. Çoxalətli sazlamaların alətlərinin qarşılıqlı qüvvə təsirinin nəzərə alınmasına əsaslanan çoxalətli emalın layihələndirilməsi və optimallaşdırma nəzəriyyəsinin əsasları A.A. Koşinin işlərində işlənmişdir [12, s. 127-211]. A.A. Koşin torna yarımavtomatları və avtomatlarında çoxalətli sazlamalar sistematikasını yaradaraq, eləcə də dəqiqlik üzrə məhdudiyyətin qrup xarakterini nəzərə alaraq çoxalətli sazlamaların üç əsas qrupu üçün dəqiqlik modellərinin baza dəstini işləmişdir. Bu modellər texnoloji sistemin və emal olunan materialın xassələri və rejim parametrlərindən başqa, çoxalətli sazlamanın strukturunu – kəsən alətlərin tiplərini və sazlamada yerləşmə sxemini nəzərə

alırlar. O, işlənmiş bu modellər bazasında çoxalətli emalın idarəetmə modelləri dəstini də yaratmışdır. Amma onun tərəfindən yalnız yumruqlu idarəetməli dəzgah-avtomatlarda reallaşdırılan sadə müstəvi çoxalətli sazlamalara baxılmışdır. N.D. Yusubov müasir çoxşpindelli və çoxsupportlu RPİ dəzgahlarında çoxalətli emalın layihələndirilməsi nəzəriyyəsinin alətlərin əyri xətli trayektoriya üzrə hərəkət imkanları, eləcə də sazlamadakı alətlərin ixtiyari fəza yerləşməsi nəzərə alınmaqla sazlamadakı alətlərin qarşlıqlı qüvvə təsiri balansı əsasında qurulmalı olduğunu əsaslandırmış və müasir RPİ dəzgahlarında çoxalətli emalın layihələndirilməsi üçün funksional idarəetmə səviyyəsinə qədər çoxalətli emalın matris dəqiqlik nəzəriyyəsini yaratmışdır. O, çoxalətli emalın təşkili üzrə müasir RPİ torna dəzgahları qrupunun texnoloji imkanlarını nəzərə almaqla çoxalətli sazlamaların çoxfaktorlu sistematikasını - təsnifatını işləmiş, sonra isə çoxalətli sazlamaların yaradılmış təsnifatı əsasında yerinə yetirilən ölçülərin dəqiqliyinin təhrif edilməsi və pəstah dəstlərinin emalı zamanı ölçülərin səpələnmə sahəsi modelindən ibarət kompleks matris modellərini işləmişdir. Burada ilk dəfə olaraq o, bütün koordinat oxları üzrə texnoloji sistemin elastikliyini nəzərə alınmış, sazlamanın alətlərinin ixtiyari fəza yerləşməsi mümkünlüyünü göstərmişdir [15, 256 s.], [16, 216 s.].

Çoxalətli emal matris nəzəriyyəsinin əsasını çoxalətli sazlamalarda alətlərin yerinə yetirdiyi ölçülərin dəqiqliyinin riyazi modelləri təşkil edir. Buna görə də çoxalətli sazlamalarda ölçülərin xətalarının formalaşmasının riyazi modellərinin müasir səviyyəsi xüsusi maraq doğurur.

Mexaniki emal texnoloji proseslərinin riyazi modelləşdirilməsi. Çoxalətli emalın dəqiqlik nəzəriyyəsinin əsasını çoxalətli sazlamalarda alətlər tərəfindən yerinə yetirilən ölçülərin dəqiqliyinin riyazi modelləri təşkil edir. Ona görə də çoxalətli sazlamada ölçü xətalarının formalaşmasının riyazi modelinin müasir səviyyəsi maraq yaradır.

Emal dəqiqliyinin miqdarca xüsusiyyəti emal xətasıdır. Bu emal xətası real hissənin forma və ölçülərinin hissənin konstruksiyasında verilmiş onun ideal sxeminə uyğunsuzluq (müvafiq olmama) dərəcəsini səciyyələndirir.

Emal dəqiqliyinin modelləşdirilməsi zamanı kəsmə qüvvəsi təsirindən texnoloji sistemin elastiki yerdəyişmələri nəticəsində yaranan Δ_y elementar xətası xüsusi yer tutur. Onun qiyməti kəsmə rejimləri ilə, texnoloji sistemin xüsusiyyətləri ilə müəyyənləşdirilir. Bu səbəbdən Δ_y elementar xətası burada əsas idarəetmə obyekti kimi çıxış edir və onun riyazi təsviri tələb olunur.

Yuxarıda qeyd olunanlara əsasən qeyd etmək olar ki, çoxalətli sazlamaların hesabi layihələndirilməsi nəzəriyyəsinin işlənməsi üçün yerinə yetirilən ölçülərin təhrif olunması və onların səpələnmə sahələrinin kompleks modelləri lazımdır və bu modellər çoxalətli sazlamanın strukturunu – uzununa supportdan və ya eninə supportda müxtəlif növ kəskilər, uzununa və eninə supportların eyni zamanda işini nəzərə almalıdırlar.

Araşdırılmış xarici mənbələrdə çoxalətli emalın çox vaxt eksperimental olaraq tədqiqinə rast gəlinir. Məsələnin riyazi modelləşdirilməsi və bu zaman çoxalətli emalın spesifikasiyası demək olar ki tam olaraq heç bir mənbədə rast gəlinmir.

Çoxalətli emalın layihələndirilməsinin hesablama nəzəriyyəsinin yaradılması zamanı A.A. Koşin [12, s. 9-72; s. 122-224] və N.D. Yusubov [15, s. 63-188], [16, s. 51-96], [17, s. 268-271], ilk növbədə, yerinə yetirilən ölçülərin təhrif edilməsi və onların səpələnmə sahələrinin modellərinin çoxalətli sazlamaların strukturunu (uzununa supportun və eninə supportun müxtəlif növ alətlərini, uzununa və eninə supportların eyni zamanda işləməsini və s.) nəzərə alan kompleks riyazi modellərinin işlənməsinin zəruri olduğunu göstərmişlər. N.D. Yusubov göstərmişdir ki, müasir çoxşpindelli və çoxsupportlu RPİ dəzgahlarında çoxalətli emalın layihələndirilməsi nəzəriyyəsi alətlərin əyri xətli trayektoriya üzrə hərəkət imkanları, eləcə də sazlamadakı alətlərin ixtiyari fəza yerləşməsi nəzərə alınmaqla sazlamadakı alətlərin qarşlıqlı qüvvə təsiri balansı əsasında qurulmalıdır. Bu səbəbdən, ilk növbədə, fəza yerləşməli alətlərli çoxalətli sazlamalarda sazlamadakı bütün alətlərin kəsmə qüvvəsinin bütün təşkiledicilərinin eyni zamanda təsirini və texnoloji sistemin bütün koordinat istiqamətləri üzrə elastiki yerdəyişmələrini nəzərə alan emal xətaları modellərinin olması zəruridir. Bunun üçün isə fəzada maddi cisimlər sisteminin qarşılıqlı elastiki qüvvə təsirini təsvir edən matris

nəzəriyyəsi əsasında analitik mexanika aparatı əlverişli hesab olunur. Bununla da o, çoxalətli emalın matris dəqiqlik nəzəriyyəsinin yaradılması zərurətini göstərmiş və bu nəzəriyyəni yaratmışdır.

Beləliklə, emal dəqiqliyi modelinin işlənməsində iki əsas amil var: kəsmə qüvvələri və texnoloji sistemin elementlərinin elastikliyi. Çoxalətli emalda kəsmə qüvvələri kompleksi fəaliyyət göstərir. Bu qüvvələrin təsiri sxemi sazlamanın strukturu tərəfindən verilir, yəni kəsən alətlərin emal olunan pəstaha nisbətən yerləşdirilməsi sxemi ilə, onların tipi və hər bir alətdə kəsmə dərinliyi ilə. N. D. Yusubov tərəfindən işlənmiş çoxalətli emalın dəqiqlik matris modelləri çoxalətli sazlamanın strukturunu təsvir edir və bütün əsas təsir edici amilləri nəzərə alır. Bu səbəbdən çoxalətli emalın layihələndirilməsinin hesabı nəzəriyyəsinin əsasını təşkil edir. Lakin burada da işlənmiş modellərin sistematikası və onların çoxalətli sazlamalar təsnifatı ilə müqayisə edilməsi göstərir ki, dəqiqliyin proqnozlaşdırma ilə qiymətləndirilməsinin analitik modelləri texnoloji keçidlərin üst-üstə salınmasının bütün variantlarını nəzərə almır.

Ölçülərin təhrif olunmasının tamfaktorlu modeli. N.D. Yusubovun çoxalətli emalın dəqiqliyinin matris nəzəriyyəsi əsasında işlədiyi emal xətalarının demək olar ki, əksər modelləri texnoloji sistemin altsistemlərinin XYZ dekart koordinat sisteminin oxları boyunca düzxətli-paralel yerdəyişmələrini nəzərə alır [15, s. 63-165], [16, s. 51-96; 97-114], [17, s. 268-271]. Emal xətalarının formalaşma prosesinə belə yanaşma qabarit ölçüləri bütün koordinat oxları boyunca eyni tərtibdə olan hissələr üçün buraxıla biləndir.

Lakin praktikada torna əməliyyatı zamanı qabarit ölçüləri müxtəlif istiqamətlərdə kəskin fərqlənən hissələr də emal edilir. Məsələn, uzun vallar (xətti ölçüləri üstünlük təşkil edən), disk və flans (diametral ölçüləri üstünlük təşkil edən) tipli hissələr. Belə hallarda emal xətalarına əhəmiyyətli dərəcədə mövcud vəziyyətdə emal edilən pəstahın dönmələri, xüsusilə də qabarit ölçülərinin üstünlük təşkil etdiyi istiqamətdə dönməsi də təsir edəcəkdir [15, s. 168].

Beləliklə, texnoloji sistemin elastikliyinin hər bir altsistem üçün iki matrisdən ibarət kompleks xarakteristikası (koordinat oxları və onların qarşılıqlı təsiri üzrə altsistemlərin elastikliyini xarakterizə edən koordinat elastiklik matrisi və koordinat oxları ətrafında dönməyə müqaviməti və onların qarşılıqlı təsirini xarakterizə edən bucaq elastiklik matrislərinin qiymətləri) müəyyən edilə bilər.

Nəticədə, texnoloji sistemin altsistemlərinin deformasiyası xassəsini bilməklə dəqiqlik modellərin bazasında [15, s. 179-181] sazlamaların strukturu üzrə kəsmə rejimlərinin emal dəqiqliyinə təsir səviyyəsinin müəyyən edilməsi və proqnozlaşdırılması üçün imkan yaranır.

Nəticə. Tədqiqatın məqsəd və vəzifələri. Analiz əsasında müasir RPİ ÇMD-lər konstruksiyasına görə 5 tipə ayrılmışdır. ÇMD-lərin konstruksiya tiplərinin hər bir tipinin imkanlarının analizi aparılmış və sazlama imkanlarına baxılmışdır. Qeyd etmək lazımdır ki, müasir şərtlər daxilində RPİ avadanlıqlarından istifadə zamanı maksimal effektivliyin əldə olunması qarşıya məqsəd olaraq qoyulur. Çoxalətli sazlamanı ÇMD-lərə tətbiq etməklə hissələrin emal vaxtını əhəmiyyətli dərəcədə aşağı salmaq, buraxılan məmulun keyfiyyətini yüksəltmək və stabilləşdirmək, alət xərclərini azaltmaq mümkündür.

Müasir RPİ ÇMD-lərdə çoxalətli emal texnoloji imkanlarının analizi və Azərbaycan Respublikasının maşınqayırma zavodlarında ÇMD-lərin potensialından istifadənin araşdırılması göstərir ki, zavodlarda 400 nəzəri mümkün sazlamanın yalnız 9%-i tətbiq edilir. Bizim ölkəmizdə isə bu rəqəm sıfıra bərabərdir. Bu zavodlardakı ÇMD-lərdən eyni zamanda bir neçə səthin emalı üçün deyil, müxtəlif detalların eyni zamanda emalı (şpindel və əksşpindel) üçün istifadə edilir. Bu fakt onu göstərir ki, müasir RPİ ÇMD-lərin yüksək potensialının olmasına baxmayaraq, belə dəzgahlarda çoxalətli sazlamaların reallaşdırılması çox aşağı səviyyədədir. Zavodda eyni zamanda bir neçə səthin çoxalətli emalına imkan verən avadanlıqların olmasına baxmayaraq, çoxalətli emalın tətbiq edilməməsinin başlıca səbəbi də orada bu istiqmət üzrə layihələndirmə və müvafiq olaraq sazlama sxemləri üzrə tövsiyələrin olmamasıdır. Hazırda müasir RPİ ÇMD-lər ilə bağlı ədəbiyyatlarda kəsmə rejimlərinin və vaxt normalarının təyini üzrə tövsiyələr mövcuddur. Lakin bu ədəbiyyatlarda ÇMD-

lərdə çoxalətli emal haqqında və belə emal zamanı kəsmə rejimlərinin təyini haqqında heç bir məlumat verilmir. Bu səbəbdən müasir RPİ ÇMD-lərdə məhz çoxalətli çoxsupportlu sazlamaların layihələndirilməsi və tətbiqi üzrə tövsiyələrin işlənməsi zəruridir [4, s.177].

Digər tərəfədən müasir RPİ ÇMD-lərdə onların dəqiqlik imkanlarından tam istifadə olunmur, belə ki emalın dəqiqliyi 11-13-cü kvalitetdə təmin olunur. Amma sazlama və texnoloji təchizatın, kəsmə rejimlərinin düzgün seçilməsi nəticəsində dəqiqlik 6-9-cu kvalitetə qədər yüksəldilə bilər. Sənayedə müasir RPİ ÇMD-lərdə əməliyyatların layihələndirilməsi üzrə avtomatlaşdırılmış layihələndirmə sistemlərindən istifadə olunur, amma onlarda da ölçülərin dəqiqliyi üzrə məhdudiyyətin və eyni zamanda işləyən alətlərin qarşılıqlı təsirini nəzərə almaqla texnoloji sistemin elasitiki yerdəyişmələrinin modelləşdirilməsi əsasında verişlərin hesabi müəyyən edilməsi metodikası yolu ilə çoxalətli emalın dəqiqliyinin və məhsuldarlığının yüksəldilməsi imkanları nəzərdə tutulmamışdır.

Çoxalətli çoxsupportlu sazlamaların layihələndirilməsi və tətbiqi üzrə tövsiyələrin işlənməsi üçün əsas zəmin müasir RPİ dəzgahlarının imkanlarını nəzərə almaqla N.D. Yusubov tərəfindən işlənmiş çoxalətli emalın matris dəqiqlik nəzəriyyəsidir. Araşdırma göstərmişdir ki, N.D. Yusubovun çoxalətli çoxsupportlu emalın dəqiqliyinin matris nəzəriyyəsi əsasında işlədiyi emal xətalarının əksər modelləri texnoloji sistemin altsistemlərinin düzxətli-paralel yerdəyişmələrini nəzərə alır. Emal xətalarının formalaşma prosesinə belə yanaşma qabarit ölçüləri bütün koordinat oxları boyunca eyni tərtibdə olan hissələr üçün buraxıla biləndir.

Lakin praktikada torna əməliyyatı zamanı qabarit ölçüləri müxtəlif istiqamətlərdə kəskin fərqlənən hissələr də emal edilir. Belə hallarda emal xətalarına əhəmiyyətli dərəcədə mövcud vəziyyətdə emal edilən pəstahın dönmələri, xüsusilə də qabarit ölçülərinin üstünlük təşkil etdiyi istiqamətdə dönməsi də təsir etdiyindən dəqiqlik modellərində nəzərə alınmalıdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq çoxməqsədli dəzgahlarda çoxalətli emalin problemi müəyyən edilir. Problem RPİ ÇMD-lərdə çoxalətli sazlamada eyni zamanda işləyən alətlərin qarşılıqlı təsirini nəzərə almaqla texnoloji sistemin elastiki yerdəyişmələrinin modelləşdirilməsi əsasında verişin hesablanması yolu ilə çoxalətli emalın dəqiqliyinin müəyyən edilməsi, proqnozlaşdırılması və məhsuldarlığının yüksəldilməsi yollarının araşdırılmasıdır.

Ədəbiyyat

1. Багров, Б.М. Многоцелевые станки. Учебное пособие. / Б.М. Багров, А.М. Козлов; – Липецк: ЛГТУ, – 2004. – 193 с.
2. Юсубов, Н.Д., Багирова Г.М. Многоинструментная обработка на многоцелевых станках с ЧПУ // – Баку: Машиноведение, – 2012. №1, – с. 57-62.
3. Чуваков, А.Б. Современные тенденции развития и основы эффективной эксплуатации обрабатывающих станков с ЧПУ / А.Б. Чуваков.- Нижний Новгород: НГТУ, – 2013. – с. 174.
4. Юсубов, Н.Д., Багирова, Г.М. Проектирование многоинструментной обработки на современных многоцелевых токарных станках с ЧПУ // Седьмая Международная научно-техническая конференция «Информационные технологии в промышленности», – Минск: ОИПИ НАН Беларуси,– 30-31 октября, – 2012, – с. 176-178.
5. Металлорежущие станки: учебник. В 2 т. Т. 2 / В.В. Бушуев [и др.]; под ред. В.В. Бушуева. Т. 2. - Москва: Машиностроение, - 2011. - 586 с.
6. Гузеев, В.И. Режимы резания для токарных и сверлильно-фрезерно-расточных станков с числовым программным управлением: Справочник. / В.И. Гузеев, Батуев В.А., Сурков И.В. Под ред. В.И. Гузеева. 2-е изд.– Москва: Машиностроение, – 2007. – 368 с.
7. Abbasova, H.M. RPİ çoxməqsədli dəzgahlarının texnoloji imkanlarının tam istifadə edilməsi zamanı çoxalətli emalın rolu // – Bakı: Elmi əsərlər, – 2019. №3, – s. 67-74.
8. Машиностроение. Энциклопедия: [в 40 томах]. Технология изготовления деталей машин. / А. М. Дальский, А.Г. Суслов, Ю.Ф. Назаров [и др.]. –Москва: Машиностроение. Т. III-3. – 2000. – 840 с.

9. Обработка на токарных станках: наладка, режимы резания: Справочник / Под общей ред. проф. А.А. Кошина. – Челябинск: Сити-Принт, – 2012. –744 с.
10. Общемашиностроительные нормативы времени и режимов резания для нормирования работ, выполняемых на универсальных и многоцелевых станках с числовым программным управлением. Част II. Нормативы режимов резания // - Москва: Экономика, -1990, -472 с.
11. Балакшин, Б. С. Основы технологии машиностроения / Б. С. Балакшин. – Москва: Машиностроение, – 1969. – 358 с.
12. Кошин, А. А. Теория точности и оптимизация многоинструментной токарной обработки: / диссертация доктора технических наук, специальность 05.02.08 – Технология машиностроения. / − Челябинск, 1997. − 290 с.
13. Юсубов, Н.Д. Матричная полнофакторная модель искажения размеров, выполняемых в многоинструментных наладках // – Москва: Техника машиностроения, – 2008. № 1 (65), – с. 36-39.
14. Юсубов, Н. Д. Матричные модели точности в многоинструментных двухсуппортных наладках // – Москва: Вестник машиностроения, – 2009. № 3, – с. 52-54.
15. Юсубов, Н. Д. Многоинструментная обработка на станках - автоматах токарной группы (Матричная теория точности многоинстументной обработки на современных станках с ЧПУ токарной группы) / Н. Д. Юсубов. – Саарбрюккен: AV Akademikerverlag Gmbh & Co. KG / LAP LAMBERT Academic Publishing, – 2013. – 256 с.
16. Юсубов, Н. Д. Основы матричной теории точности многоинструментной токарной обработки (Принципы и структура теории, проектирования и управления процессами многоинструментной обработки) / Н. Д. Юсубов. – Саарбрюккен: OmniScriptum GmbH & Co. KG / LAP LAMBERT Academic Publishing, – 2013. – 216 с.
17. Yusubov, N. D. Matrix Models of the accuracy in multitool two-support setup // – Moscow: Russian Engineering Research, – 2009. Volume 29, issue (3), – p. 268-271.

Məqalə qəbul olunub: 21.04.2022
Tövsiyə ediblər: t.e.d., prof. A.T.Məmmədov; t.e.d., prof. N.Ş.İsmayılov

GƏMİÇİLİK VƏ SU NƏQLİYYATININ İSTİSMARI

UOT. 656.6.052

NAVİQASİYA ÖLÇMƏLƏRİNDƏ YARANAN XƏTALARIN BAŞ VERMƏ SƏBƏBLƏRİ

Abbasov E.O.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: abbasovelnur1980@mail.ru

Xülasə. *Dənizdə gəminin yerinin təyin edilməsi gəmi sürücülərin əsas vəzifəsidir. Təyin olunmuş yerin dəqiqliyinin hesablanması bir çox parametrlərdən asılıdır. Məqalədə naviqasiya parametrləri və onların ölçülməsi zamanı yaranan xətalar öyrənilmişdir.*

Abstract. *Determination of the position of the ship at sea is the main task of ship navigators. The calculation of the accuracy of the determined position of the vessel depends on many parameters. The article studies the navigation parameters and errors occurred during their observations.*

Аннотация. *Определение местонахождения судно в море – основная задача судоводителей. Расчет точности полученного местоположения зависит от многих параметров. В статье исследуются навигационные параметры для определения местоположение судна и погрешности при их измерении.*

Acar sözlər: *xəta, pelenq, naviqasiya, ölçmə, parametr*

Key words: *error, bearing, navigation, measurement, parameter*

Ключевые слова: *ошибка, пеленг, навигация, измерение, параметр*

Giriş. Dəniz üzgüçülüyünün təhlükəsizliyini təmin etmək məqsədilə gəmi sürücülər naviqasiya parametrlərinin araşdırılmasında, müxtəlif texniki vasitələrdə yaranan xətaların və xarici mühütin təsirini nəzərə almaqla gəminin hesablanmış yerinin hesabatını aparmağı bacarmalıdır.

Bütün bu xarıcı mühütin təsirini və naviqasiya texniki vasitələrində yaranan xətaları nəzərə almaqla gəminin təyin olunmuş yerinin dəqiqliyi qiymətləndirilməsini öyrənən elm gəmi sürücülüyünün riyazi təminatı adlanır.

Əsas hissə. Gəminin ümümi vəziyyətinə və hərəkət parametrlərinə təsir göstərən kompleks məlumatlar **naviqasiya informasiyaları** adlanır.

Bu məlumatlar naviqasiya elementlərinə təsir göstərir. Naviqasiya elementləri aşağıdakılardır.

a) Gəminin yerinin koordinatı (φ, λ);

b) Naviqasiya parametrləri. Müşahidə zamanı (ölçmə) gəminin yerini təyin etmək üçün parametrlər. (pelenq, distansiya, dərinlik, üfüqi bucaq);

c) Hesablanmış elementlər (HK, α, V_t, S, t);

d) Naviqasiya texniki vasitələrin düzəlişləri (ΔGK, ΔL%, ΔD);

Naviqasiya parametrlərinin təyin edilməsi **naviqasiya ölçmələri** adlanır.

Naviqasiya ölçmələri (müşahidləri) bir çox amillərdən aslıdır:

1. Müşahidənin (ölçmənin) növləri;
2. Hər hansı bir ölçmənin bir necə dəfə təkrarlanmasından və ölçmənin keyfiyyətini artırılmasından;
3. Ölçmələrin dəqiqliyindən;

1. Müşahidə (ölçmənin) növləri:
   - Düz ölçmə;
   - Dolayı ölçmə;

Axtarılan kəmiyyət ölçmə prosesi zamanı təyin edilərsə, belə ölçmə **düz ölçmə** adlanır. Məsələn: pelenq, məsafə, dərinlik və s.

Axtarılan kəmiyyət ölçmə prosesindən sonra, yəni sonraki hesablamalar zamanı təyin edilirsə, onda belə ölçmə **dolayı ölçmə** adlanır. Məsələn: İki obyekt arasındakı üfüqi bucağı təyin etmək üçün, bu obyektlərə olan pelenqlərin fərqinə baxmaq lazımdır.

$$\Delta P=HP_2 - HP_1$$
$$\Delta D = D_2 - D_1$$

2. Hər hansı bir ölçmənin bir necə dəfə təkrarlanmasından və ölçmənin keyfiyyətini artırılmasından:

- Lazımlı (zəruri) ölçmələr;
- Əlavə ölçmələr (çox saylı ölçmələr);

Axtarılan kəmiyyəti təyin etmək üçün istifadı edilən ölçmələr **lazımlı və ya zəruri ölçmələr** adlanır. Məsələn: 2 pelenq, 2 məsafə, pelenq və məsafə üsulları.

Ölçmələrin dəqiqliyini artırmaq və yoxlamaq üçün aparılan ölçmələr **əlavə ölçmələr** adlanır. Məsələn: 2 pelenq, 2 məsafə, 3 və ya daha artıq naviqasiya ölçmələri, üçüncü vəziyyət xətti dəqiqliyyi artırmaq və yoxlama xarakteri daşıyır.

3. Ölçmələrin dəqiqliyindən:

- Bərabərdəqiqlikli ölçmələr
- Bərabərdəqiqlikli olmayan ölçmələr

Əgər ölçəmələr eyni alətlərlə və ya cihazlarla aparılmışdırsa, əldə olunmuş qiymətlərdə bərabərdirsə, onda belə ölçmələr **bərabərdəqiqlikli ölçmələr** adlanır.

Ayrı-ayrı alətlərlə və müxtəlif şəraitlərdə aparılmış və alınmış qiymətləri bərabər olmayan ölçmələr **bərabərdəqiqlikli olmayan ölçmələr** adlanır.

Məsələn: pelenq – məsafə ilə ölçmə zamanı, pelenq kompasla, məsafə isə radar ilə götürülərsə ölçmə dəqiq olmaya bilər. Həmdə xarici mühütın təsiri (külək, dalğa və s.) özünü göstərir.

Naviqasiya ölçmələrində yaranan xətaların baş vermə səbəbləri.

Naviqasiya parametrlərinin xətaları. Hər hansı bir müşahidənin (ölçmənin) dəqiq aparılmağına və cihazların dəqiqliyinə baxmayaraq xətalar yaranır.

Baş verən xətaların nəticəsini dəyişmək və onların səbəbini öyrənmək üçün, onun yaranma mənbəyini və ölçmənin xarakterini öyrənmək (araşdırmaq) lazımdır.

Ölçmələrin nəticəsinin araşdırılması.

Ölçmə prosesində və gəminin yerinin təyin etdikdə biz naviqasiya parametrlərini araşdırdıqda əlavə xətalar yaranır.

Bu cür xətalar qaçılmazdır və onların düzəliş kimi hesabatda nəzərə alınır. Bu xətalar aşağıdakı xətalardır:

- Mütləq xəta;
- Nisbi xəta;

Mütləq xəta ölçmənin nəticəsində yaranan xətadır.

$$\Delta= U- U_0 \quad (1)$$

Δ – ölçmənin mütləq xətası;

U – ölçülmüş naviqasiya parametrinin qiyməti;

U_0 – həqiqi qiymət;

Məsələn: $\Delta GK = HP-GKP$

Ölçmələrin verilən qiymətinin xarakterizə edən xəta nisbi xəta adlanır:

$$\Delta_{nis}= \frac{\Delta}{U} = \frac{U-U_0}{U} = 1 - \frac{U_0}{U} \quad (2)$$

Xətaların klassifikasiyası.

Xarakterinə görə xətalar 3 növə bölünürlər:

1. Təsadüfi xətalar;

2. Sistematik xətalar;
3. Yalnış kobud xətalar (promax);

Xarakterik və yaranma səbəbləri müəyyənləşdirilən və ölçmələrin nəticələrində düzəliş kimi nəzərə alınan xətalara **sistematik xətalar** deyilir. Məsələn: üfüqin əyilmə bucağı (d), sekstanın instrumental düzəlişi (S).

Müxtəlif formalı və bir-birindən asılı olmayan səbəblərin bircə təsirindən yanan və ölçülmüş kəmiyyətin nəticəsində təsir edən xətalara **təsadüfi xətalar** deyilir.

Promax ölçmələrin nəticəsinə təsir göstərən aralıq xətalardır.

Ölçmələrin dəqiqliyinin qiymətləndirilməsi və onların hesablanması.

Təsadüfü xətalar və onların xassələri. Təsadüfi xətalar – müxtəlif formalı və bir-birindən aslı olmayan səbəblərin təsirindən yaranan və ölçülmüş kəmiyyətin nəticəsində təsir edən xətalara deyilir.

Təsadüfü xətalar sistematik xətalara nisbətən dəyişkəndirlər. Əgər sahildə yerləşən iki oriyentir arasında qalan eyni bucağı bir neçə dəfə ölçsək alınan nəticələrin hamısı bir-birindən fərqli olacaq. Bu onu göstərirki, hər bir nəticənin özünün qiyməti və işarəsi məlum olmayan təsadüfi xətası var. Bu dəyişkənlik onunla izah olunur ki, təsadüfi xətalar bir-birindən aslı olmayan müxtəlif səbəblərdən yaranır və hər müşahədəçiyə müxtəlif cür təsir edin.

Ehtimal nəzəriyyəsindən məlumdur ki, əgər hər hansı sabit bir kəmiyyətin çox saylı ölçməsi aparılırsa, onda burada yaranan təsadüfi xətalar müəyyən qanuna uyğunluğun təsirinə tabe olacaq.

Təsadüfi xətaların aşağıdakı xüsusiyyətləri var:

1) Verilən ölçülər sırası çoxluğunda yaranan təsadüfi xətaların qiymətləri müəyyən həddi keçmir;
2) Böyük sırasında ölçülən kəmiyyətin olçüləri kiçik təsadüfi xətaları böyüklərə nisbətən az olurlar;
3) Böyük sırasında ölçülən kəmiyyətin qiymətcə bərabər işarəcə əks olan təsadüfi xətaları bərabər sayda olurlar;

Təsadüfi xətaların xassələrindən aşağıdakı nəticəyə gəlmək olar:

1) Təsadüfi xətaların orta cəbri qiymətlərindən düzəldilmiş sira sıfıra yığılır:

$$\lim_{n\to\infty} \frac{\sum \Delta}{n} = 0$$

Bu o deməkdir ki, hər hansı kəmiyyəti sonsuz sayda ölçsək, onda təsadüfi xətaların qiyməti sıfıra bərabər olar.

1. Ölçmə sırasının orta cəbri qiyməti (a_0) həqiqi qiymətə (a) yaxın olur. Əgər ölçmələri sonsuz sayda aparsaq onda $a_0=a$ olur. Amma həqiqətdə sonsuz sayda ölçmə aparmaq mümkün deyil, ölçmələr adətən 3÷5 dəfə aparılır.

Aparılmış ölçmələrin nəticələrinin gəminin ölçmələrin sayına olan nisbətən ölçmənin **orta cəbr qiyməti** deyilir:

$$a_0 = \frac{\sum x_i}{n} \qquad (3)$$

a_0 - ölçmənin orta cəbri qiyməti;

x_i - ölçmənin nəticəsi (pelenq distansiya);

n - ölçmənin sayı;

(3) formulundan göründüyü kimi çox sayda aparılmış ölçmələrin orta cəbri qiyməti (a) yaxınlaşır.

Ölçmə sırasının OKX–nın hesablanması. Səhvləri xarakterizə etmək üçün OKX anlayışından istifadə olunur və "m" hərfi ilə işarə olunur. OKX-nın aşağıdakı hesablama qaydaları var.

a) Ölçmənin həqiqi qiymətinə görə OKX-nın hesablanması:

Ölçülən kəmiyyətin həqiqi qiymətindən (a) hər bir ölçmənin qiymətini çıxsaq ölçmə zamanı yaranan səhvi tapmış olurlar. Heç bir ölçmə üçün Δ-nın qiymətini hesablayaq: (həqiqi qiymətdən meyletmə);

$$\begin{cases} \Delta_1 = a - x_1 \\ \Delta_2 = a - x_2 \\ \Delta_n = a - x_n \end{cases} \quad (4)$$

a - həqiqi qiymət;

x_n- ölçmələrin nəticəsi;

Δ_n- ölçmənin xətası;

Əgər ölçmələrin xətalarını kvadrata yüksəkldib toplayıb, ölçmələrin sayına bölsək ölçmənin OKX-nı alarıq:

$$m^2 = \frac{\Delta_1^2 + \Delta_2^2 + \Delta_3^2 + \cdots + \Delta_n^2}{n} \quad (5)$$

Sonda OKX-nın hesablanması formulu aşağıdakı şəkildə olar:

$$m = \pm\sqrt{\frac{\sum \Delta_n^2}{n}} \quad (6)$$

b) Ölçülən kəmiyyətlərin ölçmə qiymətlərinin orta cəbri qiymətindən meyletməyə görə OKX-nin hesablanması:

Bildiyimiz kimi ölçmə nəticələrinin orta cəbri qiyməti aşağıdakı kimi hesablanır:

$$a = \frac{x_1 + x_2 + \cdots + x_n}{n} \quad (7)$$

Ölçmə nəticəsinin orta cəbri qiymətinin olçmə nəticələrinə fərqi yaranan xətanın meyilliyi adlanır:

$$\begin{cases} V_1 = a_0 - x_1 \\ V_2 = a_0 - x_2 \\ \vdots \\ V_n = a_0 - x_n \end{cases} \quad (8)$$

V_n-xətanın meyilliyidir (orta cəbri qiymətdən meyletmə).

Əgər xətaların həqiqi qiymətində meyletməsilə orta cəbri qiymətdən meyletməsini tərəf-tərəfə çıxsaq alarıq:

$$\begin{gathered} \Delta_n = a - x_n \\ V_n = a_0 - x_n \\ \Delta_n - V_n = a - a_0 = \delta \end{gathered} \quad (9)$$

δ- səhvlərin cəbri ortası adlanır.

(9) ifadəsini $\Delta_n = V_n + \delta$ şəklində yazsaq, n sayda ölçmə üçün formul aşağıdakı şəkildə olar:

$$\begin{cases} \Delta_1 = V_1 + \delta \\ \Delta_2 = V_2 + \delta \\ \Delta_n = V_n + \delta \end{cases} \quad (10)$$

Tənliklərin hər iki tərəfini kvadrata yüksəldib toplasaq alarıq:

$$\begin{cases} \Delta_1^2 = V_1^2 + 2V_1\delta + \delta^2 \\ \Delta_2^2 = V_2^2 + 2V_2\delta + \delta^2 \\ \Delta_n^2 = V_n^2 + 2V_2\delta + \delta^2 \end{cases} \quad (11)$$

$$\Rightarrow\gg \sum \Delta^2 = \sum V^2 + 2\delta \sum V + n\delta^2$$

Tənliyin hər iki tərəfi ölçmələrin sayına bölək

$$\frac{\sum \Delta^2}{n} = \frac{\sum V^2}{n} + \frac{2\delta \sum V}{n} + \frac{n\delta^2}{n} \quad (12)$$

(12) düsturu aşağıdakı şəkilə düşür:

$$\frac{\sum \Delta^2}{n} = \frac{\sum V^2}{n} + \delta^2 \quad (13)$$

$\delta = a - a_0$ olduğu üçün səhvlərin riyazi ortasını (δ) orta qiymət kimi qəbul edə bilərik:

$\delta^2 = \frac{m^2}{n}$ və olacaq $\frac{\sum \Delta^2}{n} = m$

Onda alırıq $$m^2 = \frac{\sum \Delta^2}{n} + \frac{m^2}{n} \quad (14)$$

$$\begin{cases} m^2 n - m^2 = \sum V^2 \\ m^2(n-1) = \sum V^2 \end{cases} \quad (15)$$

Sondakı OKX-ni hesablamaq üçün aşağıdakı düsturu alarıq:

$$m = \pm\sqrt{\frac{\sum V^2}{n-1}} \quad (16)$$

c) Ölçülən xətaların razmax (amplitudası) ilə OKX-nın hesablanması.

Razmax dedikdə ölçülən kəmiyyətlərin ən böyük və ən kiçik qiymətlərinin fərqi başa düşülür.

$$W = X_{max} - X_{min} \quad (17)$$

W - razmaxdır.

Razmax ilə OKX arasında aşağıdakı asılılıq var:

$$m = K_1 \cdot W \quad (18)$$

K_1 - razmax əmsalıdır.

Orta riyazi qiymətin OKX-i ilə razmax arasında əlaqə var:

$$m_{a_0} = K_2 \cdot W \quad (19)$$

Aparılan ölçmələrdən asılı olaraq K_1 və K_2 əmsallarının qiymətləri aşağıdakı cədvəldə verilir.

n	3	4	5	6	7	8	9	10	11
K_1	0,59	0,49	0,43	0,40	0,37	0,35	0,34	0,32	0,32
K_2	0,34	0,24	0,19	0,16	0,14	0,12	0,11	0,10	0,10

Nəticə. Bəzi ölçmələrin nəticəsində bir-birindən asılı olmayan xətalar yaranır. Belə xətalar aşağıdakı səbəblərdən baş verir:

1. Naviqasiya texniki vasitələrinin işləməsi zamanı yaranan xətalar.
2. Hesablama üsulunun çatışmayan cəhətlərdən.
3. Xarici qüvvələrin təsiri və ölçmənin aparılma şəraitindən (gəminin yırğalanan, dalğa, görünüş)
4. Hissiyyat orqanlarının mükəmməlliyindən və məlumatların müşahidəçi tərəfindən qəbulunda.

Ölçmələrin nəticəsində təsir edən sadaladığımız səbəbləri azaltmaq mümkün olarsa, onda hesablamanın dəqiqliyini artırmaq olar. Ölçmə zamanı xətaları azaltmaq üçün aşağıdakıları nəzərə almaq lazımdır:

1. Cihazların və alətlərin ölçmə üçün yüksək dəqiqliklə işləməsinə nail olmaq lazımdır;
2. Hesablamaları dəqiq aparmaq lazımdır;
3. Ardıcıl olaraq müşahidələr aparmalı və hesabatları təkrar etmək lazımdır;

Ədəbiyyat

1. Abbasov E.O. Naviqasiya və lotsiya. Dərslik./E.O.Abbasov, Ç.M.Əliyev, A.H.Xəlilov - Bakı.: ADDA, -2018, - 486s.
2. Кожухов В. П. *Математические основы судовождения. Учебник./* В. П.Кожухов, В.В. Григорьев, С.М. Лукци, – Москва: Транспорт – 1996. – 200с
3. Николаев А.В. Оценка точности плавания корабля *Учебник./* А.В.Николаев. – Баку – 1986. – 120 с.

Məqalə qəbul olunub: 12.05.2022
Tövsiyə edib: t.e.d., prof. Z.Ə.Rüstəmov

УДК 656.62

ФОРМИРОВАНИЕ СИСТЕМЫ ПРИНЯТИЯ РЕШЕНИЙ ДЛЯ СУДОХОДНОЙ КОМПАНИИ ПРИ УПРАВЛЕНИИ ФЛОТОМ НА ОСНОВЕ ПОСЛЕДОВАТЕЛЬНОЙ ОЦЕНКИ ПАРАМЕТРОВ ФРАХТОВОГО РЫНКА

Гасанов Р.Р.

Zenith Marine Consultancy Services and Survey Ltd
Азербайджан, Баку
E-mail: linfo@zenithsurvey.net

Аннотация. *Предложено описание основных блоков системы, используемых для принятия решений судоходной компании с учетом уровня и сложности принимаемых решений руководством компании и текущей ситуации на фрахтовом рынке.*

Xülasə. *Şirkət rəhbərliyi tərəfindən qəbul edilən qərarların səviyyəsi və mürəkkəbliyi, yükdaşıma bazarında mövcud vəziyyət nəzərə alınmaqla, daşıma şirkəti üçün qərar qəbul etmək məqsədilə istifadə olunan sistemin əsas bloklarının təsviri təklif olunur.*

Abstract. *The description of the main blocks of the system used for decision-making of a shipping company is proposed, taking into account the level and complexity of decisions made by the company's management and the current situation in the freight market.*

Ключевые слова: *суда флота, алгоритм управления судоходной компанией, система принятия решений, судоходная компания*

Açar sözlər: *donanmanın gəmiləri, gəmiçilik şirkətinin idarəetmə alqoritmi, qərar qəbuletmə sistemi, gəmiçilik şirkəti*

Key word: *fleet vessels, shipping company management algorithm, decision-making system, shipping company*

Введение. Судоходная компания (СК), например GN GROUP Corporation [1], работающая на региональном и международном фрахтовом рынке, вынуждена конкурировать с крупными международными компаниями и корпорациями. Международные СК могут оказывать существенное влияние на фрахтовый рынок за счет большего перераспределения транспортных ресурсов на основе стратегических решений, затрагивающих участников рынка на основе тактического или стратегического управления судопотоками между географическими сегментами рынка [2]. В отличие от них, небольшие СК в большей степени используют методы и модели оперативного управления работой флота, а также формируют типовые наборы управленческих решений для локальных сегментов фрахтового рынка. Это формирует условия для работы системы принятия решений на базе последовательной оценки параметров фрахтового рынка, что позволяет решать задачи в конкретный период времени на основе корпоративной стратегии и текущей рыночной ситуации. Использование параметрической оценки параметров фрахтового рынка на основе оперативного управления создает условия для формирования гибкой ценовой политика и фрахтовой деятельность в различных географических сегментах рынка с учетом текущего состояния рынка.

Основная часть. Формирование системы принятия решений СК по управлению судами флота может формировать с учетом текущей организационно-управленческой ситуации в компании на базе современных методов управления [3].

В соответствии с рисунком 1, основными блоками системы принятия решений выступают последовательность действий в виде набора алгоритмов по управлению флотом СК (оперативный, текущий и стратегический). В качестве первичного блока выступает блок определения начальных условий работы СК, где на основе сбора первичных данных о материально-

технических и управленческих ресурсах компании формируются исходные данные для оценки параметров фрахтового рынка. Блок, отвечающий за оперативное управление судами флота, решает тактические задачи при организации и управлении флотом компании. Переход между блоками выполняется в случае, если высвобождаются суда или необходимо произвести выбор наилучшего варианта их использования. В этом случае алгоритм принятие решений на основе анализа параметров фрахтового рынка производится пошагово.




Рис. 1. *Основные блоки системы принятия решений судоходной компании*

На рисунке 2 представлен пошаговый пример принятия решений на основе анализа параметров доходности фрахтового рынка, где на 1-м шаге определяется общее количество судов по типам и тоннажным группам, которые свободны или могут быть использованы в различных региональных сегментах мирового фрахтового рынка в текущий момент времени. Условием выбора решения может выступать оценка текущего и ближайшего объема высвобождающегося тоннажа. На 2-м шаге производится оценка количества судов СК, которые необходимо отфрахтовать в определенных региональных сегментах фрахтового рынка для выполнения имеющегося или потенциального заказа на перевозку грузов. Условием выбора является наличие свободного собственного флота. В случае если на 1-м и 2-м шаге отсутствуют свободный тоннаж, то необходимо произвести оценку возможности запуска алгоритма принятия стратегического решения СК по управлению численностью судов флота. При отсутствии возможности изменить численность судов флота – принимается решение (А), что СК не может отфрахтовать заказ с текущими параметрами свободного тоннажа.

При получении положительных ответов на предыдущих шагах алгоритма, выполняется 3-й шаг, который предусматривает проведение анализа и оценку текущего уровня фрахтовых ставок для судов судоходных компаний, исходя из конъюнктуры региональных сегментов фрахтового рынка. На 4-м шаг определяется уровень спроса на суда судоходных компаний на основе имеющихся предложений на региональном фрахтовом рынке. В случае отрицательного ответа – принимается решение (Б) о выходе на региональные сегменты мирового фрахтового рынка. При положительном ответе на поставленные вопросы, производится переход на 5-й шаг, где выявляются множества типов тоннажных групп судов в различных региональных сегментах фрахтового рынка. При отрицательном ответе на вопрос о возможности сделать предложения грузовладельцам – запускается алгоритм управления численностью судов флота, где рассматривается способы повышения конкурентных преимуществ судов флота. Принимаете решение (В) о модернизации, выкупе или постройки новых судов флота.

В случае если СК может предложить конкурентные суда, то на 6-м шаге - определение множества рынков, на которых имеется такой же тоннаж, как в СК для оценки долгосрочности заключения контрактов. В случае, если предложений не достаточно, то принимается решение (Г) о концентрации ресурсов на этом направлении.

При выбранном сегмента рынка на 7-м шаге выявляются рынки с разницей спроса и уровня фрахтовых ставок с целью принятия оперативных решений по управлению работой

флота СК на мировом фрахтовом рынке в текущий момент времени. При переходе к принятию стратегических решений, СК решается задача по управлению численности и концентрации судов флота, которые необходимо сосредоточить для выбранного направления. В случае если сегмент не выбран, то переходим к алгоритму принятия стратегических решений по анализу сложившейся ситуации. При положительном решении о выбранном сегменте рынка – управление передается на уровень принятия оперативных решений по перемещению судов флота в выбранный сегмент фрахтового рынка.




Рис. 2. *Алгоритм принятия решений судоходной компании по управлению флотом*

Как показывает практика, представленные алгоритмы на рисунках 1, 2 являются упрощенным вариантом разработки и принятия решений, так как количество параметров, которые оцениваются руководством для управления СК, может динамически изменяться в зависимости от сложности и планируемых сроков реализации принимаемого решения.

Выводы.

Формирование системы принятия решений судоходной компании по управлению флотом на основе последовательной оценки параметров фрахтового рынка основывается на принятых в компании алгоритмах – схемs организации процесса расстановки судов по секторам регионального или международного фрахтового рынка. Судоходная компания, обладая ограниченными ресурсами, формирует предложения исходя из своих текущих конкурентных преимуществ, которые не всегда востребованы, что требует гибкости при принятии решений и стратегического планирования с учетом постоянной изменения конъюнктуры регионального и международного фрахтового рынков.

Литература

1. GN GROUP Corporation [Электронный ресурс]. – URL: https://gngroup.com.tr/eng/
2. Shipping and Logistics Management / Lun Yuen Ha, Lai Kee Hung, Cheng Tai Chiu Edwin. – 1st Edition, 2010. – 356 p.
3. Луговец, А.А. Основы стратегического управления судоходной компанией / А.А. Луговец, А.В. Степанец, А.Д. Москаленко// – Владивосток: Дальнаука, -2004, – 210 с.

Məqalə qəbul olunub: 10.03.2022
Tövsiyə edib: t.e.d., prof. Z.Ə.Rüstəmov

UOT 656.6.08

GƏMİNİN TƏHLÜKƏSİZLİYİ VƏ PSİXOLOJİ AMİL

Rüstəmov Z.Ə.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: rzao@mail.ru

Xülasə. *Gəmi qəzası səbəbləri müxtəlif olsa da: gəmi və üzən obyekt ilə toqquşma, saya oturma, gövdə zədələnməsi, yana aşma, yanğın, insan amili və c., bunlar müəyyən fəsadlarsız keçinmir. Məhz, bu ana qədər gəminin təhlükəsiz üzmə və zəmanətli iş icrası təmininə zəmin yaradan faktorların qarşılıqlı vəhdətliyinin formalaşmasının insan psixologiyası baxımından qiymətləndirilməsi məqsəd kimi qarşıya qoyulur.*

Abstract. *The causes of water transport accidents are different, collisions of ships and floating objects, grounding, hull damage, capsizing, fire, human factor. All this comes with certain complications. Based on the above, the goal is to assess the formation of the interaction of factors that create the basis for the safe navigation of the ship and the guaranteed performance of work from the point of view of human psychology.*

Аннотация. *Хотя причины кораблекрушения различны: столкновение с кораблем и плавучим объектом, затопление, повреждение корпуса, опрокидывание, пожар, человеческий фактор и т. д., они не проходят без определенных последствий. А именно, факторы, которые до сих пор служили основой для безопасного плавания и гарантированной работоспособности судна. Цель - оценить формирование взаимного единства с точки зрения психологии человека. как это представлено.*

Açar sözlər: *dənizçi, qəza, təhlükəsiz, insan, psixologiya, sosial, peşəkar, spesifik, hazırlıq, təşviş, çaxnaşma*

Key words: *sailor, accident, safety, person, psychological, social, professional, specific, preparedness, emotionality, panic*

Ключевые слова: *моряк, несчастный случай, безопасный, человек, психология, социальная, профессиональная, конкретная, подготовка, тревога, паника*

Giriş. Dəniz nəqliyyat hadisələrinin tədqiqi ilə təsdiqlənmişdir ki, onların böyük əksəriyyətinin "İnsan amili" ilə əlaqələndirilməsi əsaslıdır. Bu baxımdan "İnsan amili", onun psixoloji durumu üzərində qurulsa da, psixologiyanın təsirinin qiymətləndirilməsi üçün tədqiqatın gəminin istismar dövrünü əhatə etməsi əsaslı sayılır. Elə bu baxımdan da, müvafiq nəticəyə yiyələnmək üçün gəmi qəzaları, baş vermə səbəbləri nəzərdən keçirilir. Dəniz qəzaları bildiyimiz kimi insan tələfatı, ekoloji problem, kütləvi maddi itki və heç bir ölçüyə sığmayan psixoloji təsirlər-gərginlik ilə müşayiət olunur. Beləliklə, dənizçi psixologiyasını səciyyələndirən xüsusi iş şəraiti, fəaliyyət və sosial həyat gəmilərin istismar təhlükəsizliyində mühüm əhəmiyyət kəsb etdiyini söyləsək yanılmarıq.

Xüsusi şərtlər, qapalı sistem, məhdud hərəkət sahəsi-zonası, məhdud sosial-peşəkar sahə, səfərdən asılı dəyişkən kollektiv-heyət, dini yanaşma müxtəlifliyi, məhdud təmaslıq, qeyri müəyyən və biri digərini əvəzləyən iqlim mühiti-şəraiti, gözlənilən-gözlənilməyən təbii hava şəraiti, fırtına-tələtüm, məhdud görmə şəraiti, müxtəlif-dəyişkən üzmə şəraiti - regionu və bütün bunlarla yanaşı dəyişkən naviqasiya şəraiti, risklə müşayiət olunan idarəetmə, texniki nasazlıqlar, qəza və fövqəladə hallar. Göstərilənlərin hamısının psixoloji gərginliklər ilə müşayiət olunduğunu, reallıqdan formalaşan dənizçi peşəsi olduğu faktdır [1,2,3,4].

Deməli, qeyd olunanlar ayrı-ayrılıqda və bəzən bir neçəsi birdən *məhdud ölçülü, qapalı məkanlı, tənhalıq, dəniz dərinliklərində, kimsəsiz və çox ani zaman* ərzində baş vermək ilə dənizçidən müvafiq sosial-psixoloji hazırlıq, yüksək professionallıq və adaptasiya tələb edir.

Beləliklə, dənizçinin peşəkar fəaliyyətinin psixoloji mahiyyəti üç səviyyə (öz blokları ilə) olan bir quruluşla təmsil oluna bilər.

1. Sosial (dünya görüşü, qapalı mühit, məhdud şərait, yaşayış yeri, məsuliyyət, qeyri-müəyyənlik, təhlükə).
2. Peşəkar (funksional idarəetmə və iş yeri, davranış, ünsiyyət və fəaliyyət).
3. Spesifiklik (professional hazırlıq, sosial-peşəkar psixoloji məhdudiyyət)

Bu quruluşun ilk iki səviyyəsinin funksional blokları bir çox peşə üçün ümumi ola bilər. Onlar, mənalı mahiyyəti əks etdirir və şərhlərə ehtiyac yoxdur. Üçüncü səviyyə, dənizçi fəaliyyətinin şərtlərinin xüsusiyyətləri ilə əlaqələndirilir, bunun bloklarının ətraflı araşdırılmasını tələb edir. Birinci iki qrup səviyyəsinin mövcudluğu ilə sonuncu qrup səviyyəsinin spesifikliyi, dənizçi psixologiyasının mövcudluğunu xüsusi qabardır və dənizçi psixologiyasının xüsusi öyrənilməsini bir elim kimi daim aktuallaşdırır.

Əsas hissə. Beləliklə, tədqiqatlarla təsdiqlənmişdir ki, gəmiçiliyin təhlükəsizliyinə çox əhəmiyyətli təsir göstərən ən vacib cəhət "insan amili"dir. Qəzaların böyük əksəriyyətində müəyyən bir qrup səbəb nəticəsində olduğu statistik məlumatlarda əksini tapır. Bu səbəblərə aşağıdakılar aid edilir:

- idarə olunan obyektinin texniki vəziyyəti;
- təşkilati-texnoloji tədbirlər;
- ətraf mühit və onun idarə olunan obyektə təsiri;
- insan amilinin təsiri.

Bütün bu hallarda insan və yaranmış qəza və ya fövqəladə vəziyyət hallarında *məharət, bilik, təcrübə, bacarıq, səriştəsizlik, zəiflik, qətiyyətsizlik, psixoloji xüsusiyyət* və s. nümayiş etdirən insan bu və ya digər təhlükəli-təhlükəsiz vəziyyətə sahibliliyi "insan amili" ilə xarakterizə olunur.


Tədqiqatlar ilə izah olunur ki, gəmiçiliyin təhlükəsizliyi kontekstindəki "insan amili" dedikdə, bir insanın *məlumat alma, dərk etmə, formalaşdırma və bunun müqabilində fəaliyyət göstərməsi* üçün müxtəlif şəraitdən asılı qərar qəbul etmək qabiliyyətlərinin reallaşdırılması bacarığı kimi başa düşülməlidir.

Qəzanın başvermə səbəbindən gəminin, gəmi nəzəriyyəsinə aid edilən bir və ya bir neçə dənizdəüzmə (dənizdə bütün şəraitlərdə təhlükəsiz üzmə, zədələndikdə belə üzmə qabiliyyətini itirməmə) keyfiyyətinin itirilməsi ilə nəticələnə bilməsi reallıqdır. Eyni zamanda qəza üzəgənliyin

(suda yerləşdirilmiş əşyanın müəyyən həddə suya bataraq müvazinətliyinin itirilməməsi), suoturumun və ya qəzasız oturumun və batmamazlığın itirilməsi ilə də nəticələnə bilir. Odur ki, gəmi qəzalarının azaldılması məqsədi ilə müvafiq işlər görülsə də, baş vermiş gəmi qəzalarının elmi-praktiki tədqiqi müvafiq nəticələr üçün əsaslıdır. Təhlil olunmuş statistik məlumatlar gəmi nəqliyyat hadisələrinin başvermə səbəbləri, yəqin ki, insan amilinin yerini müəyyənləşdirməyə və bununla da kapitanın, heyətin psixoloji hazırlığının qəzada müsbət-mənfi tərəfinin müəyyən olunmasına imkan verər. Beləliklə qəzaların səbəblərinin tam xırdalıqlara parçalanmaq ilə təhlili "öz səhvi deyil, başqası səhvi üzərində öyrənilməklə" inkişafa addım sayıla bilər. Təcrübə dərk etmə kriteriyəsıdır, statistika isə bunun üçün alətdir, aynadır [2].

Bu gün gəmi layihələndirilməsində, tikilməsində və idarə olunmasında (gəmi-sürücülüyündə) kifayət qədər elmi-texniki proqres mövcuddur və daim elm-texnikanın ən yüksək nailiyyətlərindən, yüksək texnologiyalardan burada istifadə olunur. Dəniz naviqasiyası cihaz sistemində əsaslı dərəcədə inkişaf, elektron kartoqraf, peyk naviqasiyası, idarəetmənin təkmilləşməsi, energetik qurğuların işinə nəzarət sistemləri və s. gəmi hadisələrinin qarşısının alınmasına yönəldilmiş tədbirlərdəndir. Tətbiq olunmuş peyk GPS sistemi 100-dən 100 dəqiqlik ilə gəminin və gəmilərin yerini təyin etməyə imkan verir.

İngiltərənin "Lloyds Registri" hər il müxtəlif dövlət bayraqları altında üzən gəmilərin su nəqliyyat hadisələrinin statistikasını aparır. Onların və beynəlxalq sığorta şirkəti "Allianz"-n illik "Safety and Shipping Review"-21 hesabatına istinad olaraq qeyd edək ki, 2011-2017ci illərdə orta hesabla ildə 104 hədlərində gəmi tələf olurdusa, bu rəqəm 2018-53, 2019-48 və 2020-ci illərdə 49 gəmi təşkil edir [4,5,6].



Şək. 1. *2011-2020-ci illərdə tələf olmuş gəmilərin sayı*

Deməli, tədqiqatlardan göründüyü kimi, qeyd olunmuş on il müddətində baş vermiş 876 gəmi tələfatına səbəb olmuş qəzadan 346-sı (40%) general yük, 120-si (13,7%) balıqçı gəmilərinin öhdəsinə düşür. Balkerlərə 76-si (8,7%), kimyəvi məhsul daşıyanlara 40-si (4,6%), Ro-Ro 37-i (1,23%), konteynerdaşıyanlara 35-ı (4%), tankerlərə 12-sı (1,37%) düşür. Bütün qeyd olunanlar ilə yanaşı, statistikadan görünür ki, gəmi qəzaları sayında azalma tendensiyası olsa da, "insan amili" ilə əlaqəli qəzalar ümumi qəzalara nisbətdə yüksək qalmaqda davam edir [4,5,6].

Введение. Анализ кавитационного разрушения конкретных изделий показывает, что оно зависит от большого числа явлений, определяющих скорость эрозии в течение всего срока эксплуатации - природа материала и кавитирующей жидкости, характер течения и др. Однако одним из главных видов взаимодействия, вызывающего кавитационное разрушение, является механическое. В подавляющем большинстве случаев при кавитации механическому разрушению сопутствует коррозионный износ. Эти два фактора, взаимно усиливая друг друга, приводят к более интенсивной эрозии, чем просто их суммарное действие. В результате механического влияния удаляется оксидная пленка, защищающая поверхность от коррозии. В свою очередь коррозионные впадины, концентрируя волны от схлопывания пузырьков, усиливают микро ударное воздействие жидкости на поверхность металла. Борьба с кавитационным разрушением деталей машин может осуществляться не только выбором соответствующего материала, его специальной антикавитациооной термообработкой, нанесением специальных защитных покрытий и изменением их виброактивности, но и путем воздействия на свойства жидкости с использованием для этой цели специальных добавок, т.е. путем реализации третьего из вышеназванных путей повышения кавитационной стойкости.

Основная часть. К втулкам цилиндров, кроме высокой прочности и жесткости, предъявляют высокие требования по её кавитационной стойкости и износостойкости. Износостой-

кость зеркала цилиндра, при этом, зависит от способности втулки сохранять правильную геометрическую форму под действием механических и термических нагрузок. Химико-термические и физико-механические процессы, используемые для достижения указанных целей, хорошо известны [1].

Например, интенсивность кавитации наружной поверхности втулки цилиндра, приводящей к её разрушению, снижают следующими путями: специальным профилированием тронка поршня (овально-бочкообразная форматронка); уменьшением зазора между поршнем и втулкой; химико-термической обработкой; повышением качество материалов втулки цилиндра; увеличением проходного сечения зарубашечной поверхности охлаждающей полости. Влияние жесткости втулки цилиндра на её кавитационный износ связан с тем, что, чем больше радикальная жесткость втулки (толщина стенки), тем меньше её высокочастотная вибрация, в результате которой возникают очаги сверхвысоких микроразмерных (по охвату поверхности) напряжений.

Если проанализировать кавитационное разрушение отдельных изделий можно увидеть, что оно зависит от большого количества факторов, которые определяют скорость эрозии изделия на протяжении срока его эксплуатации – это такие факторы как природа материала изделия, химической состав жидкости, характер течения разрушения и другие факторы. Однако одним из главных факторов взаимодействия, которое вызывает кавитационное разрушение, является механическое.

Согласно существующей модели, объединяющей образование при кавитации больших импульсных давлений охлаждаюшей жидкости, разрушение изделия происходит в результате воздействия на его поверхность ударных волн. Волны же возникают при схлопывании пузырьков вблизи поверхности. По оценкам многих исследований оказывающее на поверхность детали давление вблизи схлопывающейся каверны может достигать тысячи бар. При этом значимым фактором является увеличение интенсивности волны, которая сходиться к центру впадины, а ее стенки служат своего рода волноводом [2]. Этот фактор усиливает влияние ударной волны, возникающей при схлопывании пузырька уже над существующей впадиной.

Кроме этого при кавитации в преобладающем числе случаев механическомуразрушению также сопутствует коррозионный износ.

Два фактора указанные выше, взаимно усиливая друг друга, влекут к более активной эрозии материала, чем когда они просто одновременно воздействуют на поверхность. В результате механического влияния удаляется оксидная пленка, защищающая поверхность от коррозии. А коррозионные впадины в свою очередь,концентрируя волны от схлопывания пузырьков, усиливают микро ударное воздействие жидкости на поверхность металла.

Согласно множеству экспериментальных данных видно, что эрозия возникает вследствие механического воздействия (в описанном случае гидравлического ударного воздействия), локализованного в объемах, соизмеримых с объемом отдельного зерна или части зерна, т.е. в микрообъемах металла. Из этого мы можем сделать очевидный вывод, что прочность материала заданная его конструкцией будет определяться не условными механическими характеристиками, которые, как правило, оцениваются пределами прочности, упругости, текучести и др., а прочностью отдельных микрообъёмов – свойствами и структурой зерна и границ этого зерна [3].

Основной сложностью при изучении поведения отдельных зерен является то, что зерно можно рассматривать только как составную часть поликристаллического образования, и нельзя рассмотреть его как отдельный монокристалл. При локальном воздействии на отдельное зерно получим реакцию и в соседних кристаллах, окружающих это зерно. А окружающие зёрна, в свою очередь, наоборот воздействуют на деформированные, препятствуя дальнейшему распространению деформации. Это обстоятельство приводит к различномухарактеру распространения по изделию волны деформации, как поверхности, таки вглубь изделия. В одних металлах и сплавах вся нагрузка, полученная от волны, воспринимается телом зерна, а

в других видах металлов и сплавов – границами зерна. В итоге в зерне происходят сдвиговые процессы, или происходит перемещение границ зерна.

При внешних условиях постоянного воздействия жидкости на поверхность детали эффективнее заниматься повышением прочности зерна, чем повышением прочности его границ [4]. Интенсивность же, с которой происходит разрушение в результате воздействия жидкости на материал, зависит от скорости потока этой жидкости и физико-механических свойств жидкости. При низких скоростях потока преобладает коррозионное разрушение, а при высоких скоростях потока преобладает механическое. Чтобы провести оценку скорости, с которой происходит кавитационное разрушение, используют разнообразные критерии: количество и глубину раковин, образующихся за заданное время испытания, площадь эрозии за период её эксплуатации, потерю массы детали за единицу времени, длительность эксплуатации до достижения необходимой степени разрушения и так далее [5]. Чаще всего интенсивность разрушения характеризуется зависимостью потери деталью своей массы от времени кавитационного воздействия на нее. На рисунке приведена диаграмма кинетики разрушения материалов при кавитации.




Рис. *Кинетика разрушения материалов при кавитации*

На первой (начальной) стадии проводимого испытания существует инкубационный период (на схеме стадия I), на протяжении которого эрозия практически отсутствует. В инкубационном периоде изменяется состояние поверхности металла (фазовые превращения, пластическая деформация, образование и дальнейшее развитие микротрещин и т.д.). Следующим за инкубационным периодом, идет период, когда происходит резкое увеличение интенсивности эрозионного разрушения (на схеме стадия II). Этот период сопровождается большой потерей изделием своей массы. Для третьего периода (на схеме стадия III) характерна относительно постоянная скорость разрушения. На протяжении этого периода всю поверхность, находящуюся под воздействием кавитационного разрушения [6], постепенно покрывают раковины. С практической точки зрения в данном случае имеет значение длительность первогопериода (инкубационного) и частично второго периода (когда происходит резкое возрастание скорости эрозионного разрушения). Существует множество разнообразных методов борьбы с кавитационной эрозией. Наиболее широким практическим применением пользуются технологиче-

ские методы,предназначенные для защиты металлов от эрозии, а именно: создание кавитационно-стойких сплавов, нанесение металлических и неметаллических антиэрозионных защитных покрытий и термическая обработка.

Чугуны из всех железоуглеродистых сплавов в исходном состоянии обладают самой низкой кавитационной стойкостью. Их разрушение начинается практически сразу, без «инкубационного периода», в течение которого в сталях протекают процессы образования очагов кавитационного разрушения. У чугунов такие очаги уже имеются в виде графитных включений, обладающих низкой механической прочностью [7].

При условии затребованного потребителем ограниченного ресурса, а также замкнутого пространства, в котором циркулирует охлаждающая жидкость, данное

направление увеличения кавитационной стойкости втулки цилиндра двигателявнутреннего сгорания является в особенности перспективным. Это подтверждается и тем что, нанесение на поверхность детали защитных покрытий, повышающих коррозийную стойкость металла, позволяет получитьсущественный положительный результат

При выборе добавок вводимых в охлаждающую жидкость (воду) необходимо опираться на принципиальные позиции, которые направленны на устранение схлопывающихся пузырьков и антикоррозионное влияние.

Жидкость в данном случае рассматривается как фаза, обладающая определенным набором механических свойств: упругость, прочность, вязкость и так далее. В результате механического воздействия, эту жидкость можноподвергнуть некоторому растяжению. Например, воду удается растянуть на 1,5% (без разрыва) [8]. А при высоких скоростях деформации жидкость ведет себякак твердое тело. Характерной особенностью твердых тел является их способность к хрупкому разрушению. Работами ряда исследователей было показано, что при подходящих условиях описанная способность может проявляться и в жидкостях [9].

Таблица

Кавитационная стойкость железоуглеродистых сплавов

Вода	**Потери массы в мг за 1 час испытания**
Водопроводная	257
Дистиллированная	136
Кипяченная	105

С ростом температуры объёмная прочность жидкости уменьшается. Несмотря на это, с ростом температуры кавитирующей жидкости разрушениеметалла в результате кавитационного воздействия так же уменьшается.

С ростом температуры и снижением объёмной прочности в жидкости образуется множество полостей, что увеличивает их фильтрующую роль. При большом количестве пузырьков в жидкости они оказывают сильное буферное влияние, что приводит к смягчению гидравлических ударов при кавитации. Следствием этого является уменьшение разрушения металла.

Возможность образования в жидкости кавитационных пузырьков сильнозависит от давления [10]. Опыты показывают, что при незначительном гидростатическом давлении пузырёк очень устойчив. При достижении определенного гидростатического давления пузырек теряет устойчивость. Призначительном давлении возможность образования пузырьков уменьшается, так как для этого необходимо приложить большие усилия, чтобы достичь разрыва жидкости. Образование кавитации в жидкостях, свободных от газа, затруднено. Простейшим способом удаления газа из жидкости является повышение избыточного давления в системе или длительное кипячение жидкости. В обоих случаях объёмная прочность жидкости возрастает, а разрушение металла в результате кавитационного воздействия уменьшается. Однако, если в жидкости, обладающей высокой объёмной прочностью, удаётся каким-то образом получить разви-

тую кавитацию, то разрушение металла в этом случае интенсифицируется, так как усилие, затраченное на разрыв жидкости, обуславливает значительное ударное действие кавитационных пузырей.

Таким образом, сильное влияние на стойкость металла в условиях кавитационного воздействия оказывает значение объемной прочности жидкости. Наименьшая интенсивность кавитационного разрушения в тех случаях, когда значение объёмной прочности жидкости очень низкое ($\sigma \leq 1{,}0$МПа) или в случае, когда ее значение наоборот очень велико ($\sigma \geq 15{,}0$ МПа).

В случае с малой объёмной прочностью разогревать жидкость легко, большое число пузырьков, которые при этом образуются, влечет за собой демпфирование гидравлических ударов, которые были вызваны кавитацией, т.е. демпфирующая роль пузырьков превалирует над ударной. А в случае с высокой объёмной прочностью разорвать жидкость достаточно трудно, поэтому для создания кавитации требуется приложить значительные давления. В результате отсутствие кавитации предотвращает микроударные воздействия, а следовательно, и разрушение.

Вышеприведенное положение имеет большое практическое значение для борьбы с кавитационным разрушением деталей дизельных двигателей с замкнутой системой охлаждения, так же как и повышение температуры охлаждающей жидкости, приводит к уменьшению кавитационного разрушения деталей двигателя.

Прочность жидкости тесно связана с коэффициентом поверхностного натяжения, который характеризует лёгкость образования поверхностей раздела, а,следовательно, лёгкость образования газовой фазы – пузырьков. Низкие значения поверхностного натяжения характерны для легко рвущихся жидкостей, когда образуется много пузырьков. Следовательно, изменение коэффициента поверхностного натяжения оказывает большое влияние на деформирующую и удароразрушающую роль кавитационных пузырей, что, в свою очередь, оказываетвлияние на кавитационную стойкость металла.

Исследования показывают, что чем ниже поверхностное натяжение жидкости, тем меньше кавитационное разрушение.

Суть действия собирателей сводится к тому, что эти вещества, вступая во взаимодействие с поверхностью твердого тела, закрепляются на ней и защищают поверхность твердого тела от коррозионно-эрозионного разрушения, действуя в качестве гидрофобизатора поверхности (намасливание поверхности).

Чем больше поверхностная активность реагента-пенообразователя, тем более эффективным будет его действие в целях снижения кавитационного разрушения металла. По результатам проведенных экспериментов видно, что основой действия реагентов-пенообразователей является адсорбция молекул поверхностно-активных веществ на поверхности пузырьков.

Уменьшив уровень вибрации хотя бы на 1,5-1,7 ДБ можно добиться серьезного снижения интенсивности кавитации [11]. В результате длительных ресурсоемких испытаний дизелей Ч 8,5/11, Ч 9,5/11, Ч 10,5/13 было установлено, что замена втулок цилиндров с незащищенными водоохладительными поверхностями, при интенсивных кавитационных разрушениях, требуется каждые 4500-5000 часов эксплуатации, в то время как общий моторесурс этих двигателей до необходимости капитального ремонта составляет еще 12000-14000 ч [12].

Также для повышения кавитационной стойкости втулки цилиндров дизелей Ч8,5/11 и Ч9,5/11 существует метод гальванического хромирования с водоолаждаемой стороны. По данным изученных нами работ [13] этот процесс является дорогостоящим, он нетехнологичен и не позволяет получить необходимый ресурс защиты втулок цилиндра от кавитационного разрушения.

Выводы. Исходя, из изложенного выше материала можно сделать вывод:

1. Двигатели Ч 8,5/11 и Ч 9,5/11, предназначенные для эксплуатации на малых рыбопромысловых судах и строительных площадках (на сварочных агрегатах) с ограниченным ресурсом работы до 3000 ч., могут быть оснащены втулками цилиндров без специальной химико-

термической обработки.

2. В замкнутую систему охлаждения этих дизельных двигателей должна быть введена присадка-эмульсоид в количестве 0,1% от общего объёма охлаждающей воды.

3. Возможна рекомендация по повышению давления в системе охлажденияза счет регулировки паровоздушного клапана пробки радиатора или расширительного бачка.

Литература

1. Пат. 2395699 Российская Федерация. С1 Поршень / Масуев М.А. – опубл. 27.07.2010, Бюл. № 21.
2. Шорин С.Н. Теплопередача. / С.Н. Шорин. – М.: Высшая школа, 1969. – 489с.
3. Шуаипов А.А. Аналитическое исследование внутренних потерь в судовом двигателе внутреннего сгорания / А.А. Шуаипов // Вестник Астраханского государственного университета: Серия «Морская техника и технология» – 2011 г. – № 1. – С. 157-163.
4. Шуаипов А.А. Расчётно-аналитический метод определения внутреннихпотерь в судовом двигателе внутреннего сгорания. / Шуаипов А.А. // Вестник Астраханского государственного технического университета. Серия: Морская техника и технология. 2011 – № 2 – с. 128-133.
5. Шуаипов А.А. Методология расчётного и экспериментального исследования внутренних потерь в судовом дизеле. / А.А. Шуаипов, А.Ф. Дорохов, К.К. Колосов, А.П. Будников // Вестник Астраханского государственного технического университета. Серия: Морская техника и технология. – 2012 – № 2 – С 10-17.
6. Проватар А.Г. Уменьшение потерь мощности на преодоление сил трения в цилиндропоршневой группе судовых ДВС регуляризацией микрорельефа сопрягаемых поверхностей. / А.Г. Проватар, А.Ф. Дорохов, Ю.И. Матвеев // Научный журнал «Современные технологии. Системный анализ.Моделирование». Иркутский государственный университет путей сообщений. – 2015. – №4. – 50-55.
7. Энглиш К. Поршневые кольца. Теория, изготовление, конструкция и расчет:в неск. томах / К. Энглиш (перевод с немецкого). – Москва, «Машиздат», 1962. – 385 стр. – Т.1
8. Путинцев С.В. Оценка механических потерь современных поршневыхдвигателей / С.В. Путинцев, А.С. Кулешов, А.Г. Агеев // Двигателестроение. – 2013. – № 2. – С. 15-20.
9. Российский морской регистр судоходства. Правила классификации и постройки морских судов. Том 2. НД №2-020101-077. – Часть IX. Механизмы. 2.4 – коленчатые валы. – Санкт-Петербург, 2014.
10. Санаев Н.К. Новая конструкция всасывающего клапана газораспределительного механизма судового малоразмерного дизеля / Н.К. Санаев, В.П. Тынянский, С.А. Алимов // Вестник машиностроения. – 2011. – № 12. – С. 44-46.
11. Абачараев М. М. Кавитация и защита металлов от кавитационныхразрушений / М. М. Абачараев – Санкт-Петербург: Издательство СПбПУ, 2012. – 198 с.
12. American society of metals. // Atlas of fatigue curves. – 1986. – P. 38-54
13. Справочник технолога-машиностроителя: в 2-х т. –М.: Машиностроение, 1986.–496 с.–2т.

Məqalə qəbul olunub: 28.04.2022
Tövsiyə edib: t.e.d., prof. A.M.Qafarov

UOT 629.12.066

QEYRİ-MÜƏYYƏNLİK ŞƏRAİTİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN OBYEKTLƏR ÜÇÜN TƏNZİMLƏYİCİLƏRİN SİNTEZİ

Fərhadov V.Q., Qurbanov E.M., Bayramova İ.P.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: vahidf@mail.ru, genclik76@mail.ru

Xülasə. *Məqalədə real sistemlərdə xarici və parametrik həyəcanlandırıcı təsirlər mövcud olduğundan tənzimləyicinin astatik və adaptiv xassəyə malik olmasını təmin etmək onun tətbiq sahəsini və effektivliyini artırmış olduğu göstərilir. Əsas məsələlərdən biri odur ki, tənzimləyici ən xarakterik həyəcanlandırıcı təsirlər olan vahid təkan və vahid impuls tipli təsirlərə qarşı seçici astatizmə malik olsun.*

Abstract. *The article shows that ensuring that the regulator has astatic and adaptive properties has increased its scope and effectiveness due to the presence of external and parametric excitations in real systems. One of the key issues is that the regulator has selective astatism against single impulse and single impulse-type effects, which are the most characteristic stimuli.*

Аннотация. *В статье указано увеличение области и эффективности применения регуляторов, ввиду обеспечения их астатических и адаптивных свойств, учитывая влияние внешних и параметрических дестабилизирующих факторов, свойственных реальным условиям функционирования объекта. Одним из важных вопросов является, обеспечение регулятора астатизмом против наиболее характерного возмущающего единичного импульсного воздействия.*

Açar sözlər: *qeyri-müəyyənliklər, həyəcanlandırıcı təsirlər, faza portreti, obyektin xassələri, parametrik həyəcanlandırıcı təsirlər*

Key words: *indefiniteness, excitatory effects, portrait phase, object properties, parametric excitatory effects*

Ключевые слова: *неопределенности, возбуждающие воздействия, портрет фаз, свойства обьекта, параметрические возбуждающие воздействия*

Giriş. Real sistemlər, adətən, müxtəlif qeyri-müəyyənliklər şəraitində fəaliyyət göstərirlər. Əsasən, aşağıdakı qeyri-müəyyənlikləri qeyd etmək vacibdir.

a) xarici (koordinat) həyəcanlandırıcı təsirlər;

b) daxili (parametrik) həyəcanlandırıcı təsirlər.

Birinci halda mühitin, ikinci halda isə obyektin xassələri dəyişir. Qeyri-müəyyənliyin dərəcəsinə görə bu təsirləri aşağıdakı tiplərə ayırmaq olar [1]:

a) determinik;

b) stoxastik;

v) robast;

q) qeyri-səlis.

Məqalədə xarici həyəcanlandırıcı təsirlərə qarşı seçici astatizmə malik olan tənzimləyicilərin sintezi məsələsinə baxılır.

Burada fərz olunur ki, sistemə təsir edən xarici həyəcanlandırıcı təsirin tipi yox, yalnız həddi qiyməti məlumdur. Aydındır ki, həyəcanlandırıcı təsirlərin bilavasitə ölçülməməsi sintez məsələsini əhəmiyyətli dərəcədə çətinləşdirir. Bu halda, invariantlıq nəzəriyyəsindən istifadə etmək mümkün olmadığından astatizmi təmin etmək üçün yeganə çıxış yolu kimi meyletməyə görə, yəni əks əlaqə

prinsipi üzrə qurulmuş sistemlərdən istifadə olunur. Belə sistemlərdə statik xəta yalnız $t \to \infty$ halında tam kompensasiya olunur.

Xətanın azaldılmasının klassik üsullarından biri açıq sistemin gücləndirmə əmsalının artırılmasıdır, lakin bu halda sistemin dayanıqlıq ehtiyatları azalır.

Xətti tənzimləmə sistemlərində həyəcanlandırıcı təsiri kompensasiya etmək üçün idarə qanununun tərkibinə inteqrallar əlavə olunur. Belə yanaşma yalnız

$f = a_0 + a_1 t + a_2 t^2 + \ldots + a_n t^n$ polinomu şəklində olan həyəcanlandırıcı təsiri tam kompensasiya edib statik xətanın sırfa bərabər olmasını təmin edir. Bundan başqa, inteqralın mövcudluğu statik xətanı ləğv etsə də, keçid proseslərinin keyfiyyətinə xələl gətirir.

Bundan başqa, həyəcanlandırıcı təsirin tipi dəyişdikdə, məsələn, vahid impuls olduqda inteqral toplananın mövcudluğu avtomatik tənzimləmə sisteminin keyfiyyət göstəricilərini pisləşdirir. Rele idarə qanunun köməyi ilə yaradılan sürüşmə recimində xarici və parametrik həyəcanlandırıcı təsirlər ölçülmədikdə idarə siqnalının səviyyəsini kifayət qədər böyük götürməklə onları kompensasiya etmək mümkündür [2].

Son zamanlar sürüşən rejimdə idarə siqnalının tezliyini azaltmaq üçün qeyri-səlis sürüşən rejimdən istifadə etmək təklif olunur.

Ümumiyyətlə, rele tipli sürüşən reoimlərdə idarə siqnalı maksimal həddi qiymətləri aldığından bu rejimlər enerji məsrəfi baxımıdan səmərəli deyillər. Bundan başqa, həyəcanlandırıcı təsirin həddi qiyməti azaldıqda idarənin qiyməti əvvəlki səviyyədə qaldığından keyfiyyətə mənfi təsir göstərir. Beləliklə, aşağıdakı məsələ meydana çıxır.

Məsələnin qoyuluşu. Elə kompensasiya qanununu qurmaq tələb olunur ki, həyəcanlandırıcı təsir daim təsr etdikdə, məsələn, vahid təkan şəklində, onu kompensasiya etsin, ani təsir edən impuls olduqda isə işləməsin. Başqa sözlə, kompensasiya qanunu həyəcanlandırıcı təsirin tipinə nəzərən seçici astatizmə malik olsun.

Bunun üçün, xətti sistemlərdə seçici astatizmə malik olan tənzimləyicinin sintezi tələb olunur. Obyektə həyəcanlandırıcı qüvvələr təsir etdikdə tənzimləmə sistemində statik (qərarlaşmış) Δ_c xətası meydana çıxır. Bu səbəbdən, tənzimləmə nəzəriyyəsinin və praktikasının əsas məsələlərindən biri həyəcanlandırıcı təsirlərin kompensasiya üsullarının işlənməsidir. Bu üsulları informativlik baxımından iki qrupa ayırmaq olar:

a) həyəcanlandırıcı təsir ölçülən və ya qiymətləndiriləndir;

b) həyəcanlandırıcı təsir öçülmür.

Birinci halda, kompensatorun ötürmə funksiyasını tapmaq üçün invariantlıq nəzəriyyəsindən istifadə olunur.

İkinci halda, həyəcanlandırıcı təsirin tam kompensasiyası sonsuzluqda baş verir, yəni $t = \infty$ nöqtəsində $\Delta_c = 0$ olur. $\Delta_c = 0$ olan sistemlər astatik sistemlər adlanır.

Fərz edək ki, $f = 0$, $g = 1(t) \Rightarrow G(s) = 1/s$. Burada qütb $s_1 = 0$. Obyektin idarə kanalı üzrə ötürmə funksiyasını W_u, tənzimləyicinin ötürmə funksiyasını isə W_T - işarə edək. Onda ATS-in (g-ε) kanalı üzrə ötürmə funksiyasını aşağıdakı şəkildə yazmaq olar:

$$W_g^{\varepsilon} = \frac{1}{1 + W_T W_u}$$

$W_T = M_T / D_T$, $W_u = M_u / D_u$ - işarə edək.

Onda
$$W_g^{\varepsilon} = \frac{D_T D_u}{D_T D_u + M_T M_u}.$$

W_g^{ε} ötürmə funksiyasının sıfırları, yəni $D_T D_u = 0$ polunomunun köklərinin tərkibində $s_1 = 0$ qütbünün mövcud olması üçün tənzimləyicinin ötürmə funksiyasında $D_T = s$ qəbul etmək kifayətdir, yəni tənzimləyicinin tərkibində I (interqral) mövcud olmalıdır. Əgər $M_T = k_T = const$ qəbul etsək,

W_T = k_T/s və sırf inteqral tənzimləyici almış olarıq. Bu halda, Δ_c-nin mövcud olub-olmamasını yoxlayaq. Xətanın təsviri

$$E = W_g^2 G = \frac{sD_u}{sD_u + k_T M_u} \cdot \frac{1}{s}$$

olduğundan hədd teoreminə əsasən onun hədd qiyməti, yəni $\varepsilon(\infty) = \Delta_c$:

$$\Delta_c = \lim_{s\to 0} s\left(\frac{sD_u}{sD_u + k_T M_u} \cdot \frac{1}{s}\right) = 0 .$$

Göründüyü kimi, inteqral toplananın köməyi ilə giriş vahid təkan siqnalı olduğu halda astatizmi təmin etmək mümkündür.

Avtomatik tənzimləmənin praktikasında nəzarət olunmayan xarici həyəcanlandırıcı təsirləri kompensasiya etmək üçün əsas üsul idarə qanununun tərkibinə xətanın inteqralının daxil edilməsidir. Belə yanaşma həyəcanlandırıcı təsirlər yalnız sabit siqnal, yəni vahid təkan olduğu halda, statik xətanın asimptotik aradan qaldırılmasının təmin edir. Lakin həyadanlandırıcı təsirin kompensasiyası üçün nəzərdə tutulmuş inteqral toplananı sistemin dinamikasına da təsir göstərərək keçid proseslərinin rəqsiliyini artırır.

Bundan başqa, xarici təsir impuls şəklində olduqda, yəni sistemin yalnız başlanğıc vəziyyəti dəyişdikdə interqala ehtiyac olmur. Lakin inteqral daima qoşulu olduğundan keçid proseslərinin rəqsiliyinə gətirib çıxarır.

Əvvəlcə, inteqralın keçid proseslərinin rəqsiliyini artırmasını nümayiş etdirmək üçün sadə bir misala baxaq. Fərz edək ki, obyekt birinci tərtib dayanıqlı aperiodik obyektdir:


$$\dot{y} = -ay + bu, \quad a > 0,\ b > 0.$$

İdarə qanununu Pİ şəklində seçək:

$$U = k_p \varepsilon + k_i \int_0^t \varepsilon dt .$$

Burada sazlama parametri k_p = 1 və a = 1, b = 1 qəbul edək. $\varepsilon = g - y$ - tənzimləmə xətası, g = 1 tapşırıq siqnalıdır.

Şəkil 1 a, b, c-də k_i = {0,2;5;20} qiymətlərində keçid prosesləri göstərilmişdir.




a) *b)* *c)*

Şəkil 1. *İnteqrallama əmsalının müxtəlif qiymətlərində keçid prosesləri*

Şəkildən göründüyü kimi, inteqrallama əmsalı artdıqca keçid proseslərinin rəqsiliyi artır. Əmsalın kiçik qiymətlərində statik xəta artır. Deməli, hər iki göstəricinin eyni zamanda yaxşılaşdırılması ziddiyətlidir.

İkinci halda, tapşırıq siqnalı kimi $g = \delta(t)$ vahid impuls götürülmüşdür. k_i = {0;5;20} qiymətlərində şəkil 2 a, b, c-də keçid prosesləri göstərilmişdir.



a) *b)* *c)*

Şəkil 2. $g = \delta(t)$ *olduqda* k_i *= {0;5;20} qiymətlərində keçid prosesləri*

Baxılan halda, sistemin sərbəst hərəkətinə baxıldığından çıxış $y(\infty) = 0$ sıfra yaxınlaşmalıdır. Göründüyü kimi, $k_i = 0$ qiymətində keçid prosesi (daha dəqiq, çəki funksiyası) həm statik xətaya nəzərən, həm də rəqsilik göstəricisinə görə daha önəmlidir. Deməli, bu halda, inteqral toplananın mövcudluğu lüzumsuzdur. Prinsipcə, xarici təsiri (burada tapşırıq siqnalı) identifikasiya edib $g = \delta(t)$ olduqda inteqral toplananı sxemdən açmaq mümkündür. Lakin bu zaman həyəcanlandırıcı təsir identifikatorundan istifadə etmək lazım gələcəkdir ki, bu da tənzimləmə sisteminin quruluşunu olduqca mürəkkəbləşdirir.

Məqalədə vahid təkan $1(t)$ və vahid impuls $\delta(t)$ halında sistemin dinamik xüsusiyyətlərinin fərqli olması faktından istifadə olunmuşdur. Kompensasiya siqnalı elə siqnallardan tərtib olunur ki, bunlar $1(t)$ halında müəyyən qiymətə malik olur, $\delta(t)$ halında isə baş çoxluq əmələ gətirir. Təcrübədə xarakterik olan iki tip həyəcanlandırıcı təsirlərə qarşı seçici astatizmin təmin olunması məsələsinə baxacağıq: vahid təkan və vahid impuls.

Təcrübədə daha geniş yayılan ikinci tərtib birölçülü obyektə baxaq:

$$\ddot{y}(t) + a_1\dot{y}(t) + a_2 y(t) = bu + f\,,$$

Burada $y(t)$ - tənzimlənən kəmiyyət; u - idarə siqnalı; f - həyəcanlandırıcı təsirdir.

İdarə təsirini aşağıdakı şəkildə təyin edək:

$$u = u_s + u_k\,,$$

Burada u_s - obyektin dinamik keyfiyyət göstəricilərini təmin etmək üçün nəzərdə tutulmuş əks əlaqəli stabilləşdirici idarə: $u_s = \alpha\varepsilon,\ \ \varepsilon = g - y(t)$ - tənzimləmə xətası; u_k - kompensasiyaedici hissədir. Onda qapalı sistemin tənliyi:

$$\ddot{y}(t) + a_1\dot{y}(t) + (a_2 + b\alpha)y(t) = b\alpha g + bu_k\,. \qquad (1)$$


$y = x_1,\ \dot{y} = x_2$ işarə edib (1) tənliyini normal formada yazaq:

$$\begin{aligned} \dot{x}_1 &= x_2\,, \\ \dot{x}_2 &= -(a_2 + b\alpha)x_1 - a_1 x_2 + b\alpha g + u_k\,. \end{aligned} \qquad (2)$$

Sistem (2)-nin dayanıqlı rəqsi sistem olduğu hala baxaq. Bunun üçün $a_1,\ a_2 > 0,\ a_1^2/4 < (a_2 + b\alpha)$ şərtləri ödənilməlidir.

Kompensasiya qanununun qurulması. Şəkil 3 a və b –də (2) sisteminin $u_k = 0;\ a_1 = 1,\ a_2 = 10;\ \alpha = 4{,}5;\ b = 1$ qiymətlərində faza partretləri göstərilmişdir. Birinci şəkildən göründüyü kimi, $g = \delta(t)$ vahid impuls olduğu halda faza traektoriyasının $s = \varepsilon\dot{\varepsilon} > 0$ oblastından $s < 0$ oblastına keçidləri $\varepsilon \neq 0$ qiymətlərində, $s < 0$-dan $s > 0$ oblastına keçidləri isə xətanın $\varepsilon = 0$ qiymətlərində baş verir. Bu xüsusiyyət $\delta(t)$-nin tarazlıq nöqtəsinin yerini dəyişə bilmədiyindən bü nöqtənin koordinat mərkəzində olması ilə əlaqədardır.

İkinci şəkildə $s < 0$ oblastından $s > 0$ oblastına keçidlər $\varepsilon \neq 0$ qiymətlərində baş verir. Bu fərq $1(t)$ siqnalının tarazlıq nöqtəsini absis oxu üzrə $\Delta_c = 1 - b\alpha g(a_2 + b\alpha) = 0{,}7$ nöqtəsinə sürüşdürməsi ilə əlaqədardır.



a) b)


Şəkil 3. *Sistemin $g = \delta(t)$ və $g = 1(t)$ halında faza portretləri*

$s < 0$ oblastından $s > 0$ oblatına keçidlərin absisini ε_-^+ ilə işarə edək. Kompensasiya siqnalını

$$u_k = \beta \sum_{i=1}^{\infty} \varepsilon_-^+(t_i) \qquad (3)$$

şəklində formalaşdırsaq, avtomatik olaraq, $g = \delta(t)$ halında $u_k = 0$, $g = 1(t)$ halında isə $u_k \neq 0$ olacaqdır. Burada β = const - sazlama parametridir.

Kompensasiya siqnalının realizasiyası. Dəyişmə $s = \varepsilon\dot{\varepsilon}$ funksiyasının işarəsi dəyişdikdə «siqn» relenin çıxışında pilləvari siqnal alınır. Bu siqnal «derifative» differensiallayıcısına verilərək əmr impulslarına çevrilir. Trayektoriya $s < 0$-dan $s > 0$ oblastına keçdikdə törəmə $ds/dt > 0$ olduğundan bu impulslar müsbət, əks istiqamətə keçdikdə isə mənfi, yəni aşağı istiqamətlənmiş olur.



Şəkil 4. *ATS-in modelləşdirmə sxemi*

Mənfi impulslar bizə lazım olmadığından onları «saturation» elementinin köməyi ilə aşağı sərhəddini (0) verməklə aradan qaldırırıq.

Müsbət i_k əmr impulslarında «switch» kommutatorunun açarı ani olaraq, yuxarı vəziyyətə keçərək xəta $\varepsilon_{-}^{+}(t_i)$ siqnalını i impulsları şəklində götürür. Qalan vaxtda açar aşağı vəziyyətdə olaraq diskret inteqratorun girişinə sıfır siqnalı verir. Beləliklə, (3) ifadəsinə əsasən $\varepsilon_{-}^{+}(t_i)$ impulsları toplanaraq u_k kompensasiya siqnalını formalaşdırır. İmpulsların yaxşı inteqrallaşması üçün onlar qısa müddətə «Memory» (yaddaş) elementinin köməyi ilə yadda saxlanaraq intensivliyi (sahəsi) artırılır. Uyğun sistemin modelləşdirmə sxemi şəkil 4-də göstərilmişdir.

Təklif olunan sistemin iş qabiliyyəti parametrlərin $a_1 = 1;\ a_2 = 10;$ b=1; $\alpha = 4{,}5;\ \beta = 80;\ c = 0$ qiymətlərində yoxlanılmışdır. Bu halda «giriş-çıxış» şəklində yazılmış (1) sistemin tənliyi tapşırığın g = 1, f = 0 halında:


$$\dddot{y}(t) + \ddot{y}(t) + 14{,}5\dot{y}(t) = 4{,}5 + u_k .$$

Tənzim olunan $y(t)$ kəmiyyətinin qərarlaşma qiymətini təyin etmək üçün stasionarlıq şərtindən istifadə edək:

$$14{,}5y(t) = 4{,}5 + u_k.$$

Buradan y = g = *1* qiymətini təmin edən kompensasiya siqnalı u_k = 10 olmalıdır.

Şəkil 5, a və b-də tənzimləmə sisteminin $g = 1(t)$ qiymətində dinamik xarakteristikaları və faza portreti göstərilmişdir. Şəkil 1.5,a-dan göründüyü kimi tnzimlənən kəmiyyət $y(t)$ özünün tapşırıq g = 1 qiymətinə ifrat tənzimləməsiz və $t_T \approx 10$ s. vaxta çatmışdır. Daha sonra u_k kompensasiya siqnalının $\varepsilon_{-}^{+}(t_i)$ impulslarının (şəkildə i - ilə işarə olunmuşdur), i_k əmr siqnalının və $s(t)$ dəyişmə funksiyasının dəyişmə xarakteri göstərilmişdir.



a) b)


Şəkil 5. *Sistemin g = 1(t) halında dinamik xarakteristikaları və faza portreti*

Şəkil 5 b-də sistemin faza portreti göstərilmişdir. Şəkildən göründüyü kimi kompensasiyanın hesabına xəta ε və onun törəməsi $\dot{\varepsilon}$ sıfra yaxınlaşır. Koordinat başlanğıcında kiçik amplitudlu rəqslər müşahidə olunur.

Şəkil 6-da sistemin sərbəst hərəkəti zamanı, yəni $g = \delta(t)$ halında analoji xarakteristikaları göstərilmişdir. Kompüter realizasiyası zamanı vahid impuls ekvivalent $x_{10} = y_0 = 1$ başlanğıc şərtlə

və $g = 0$ qiyməti ilə əvəz olunmuşdur. Bir sıra hesablama nüanslarını göstərək. Əvvəldə dəyilənə əsasən, $g = \delta(t)$ qiymətində $u_k = 0$ olmalı idi. Lakin diskretləşdirmə nəticəsində, faza traektoriyasının ordinat oxunu aşdıqda $\varepsilon_{-}^{+}(t_i) = 0$ şərti dəqiq ödənilməyib, kiçik qiymətlər alır. Göründüyü kimi, bu impulsların dəyişmə diapazonu çox kiçik olub $\pm 0{,}5 \cdot 10^{-14}$ təşkil edir. Belə impulsların inteqrallanması isə $u_k \approx 2 \cdot 10^{-13} \approx 0$ olur. $y(t)$-nin sıfra yaxınlaşma dəqiqliyindən göründüyü kimi, bu qiymət keçid prosesinə, demək olar ki, təsir etmir. İlkin (2) sisteminin sərbəst hərəkəti, yəni $g = 0$, $u_k = 0$ halında, rəqsi olduğundan $y(t)$ üzrə keçid prosesi də rəqsi alınmışdır.

Məcburi hərəkətdən ($g = 1$) fərqli olaraq sistemin sərbəst hərəkəti zamanı $u_k = 0$ olması idarəetməyə sərf olunan enerjiyə qənaət etməyə imkan verdiyindən çox mühüm nəticədir.



Şəkil 6. *g = δ(t) halında sistemin dinamiki xarakteristikaları*


Rəqsiliyin aradan qaldırılması. Əgər hər hansı bir səbəbdən keçid proseslərinin rəqsiliyi yolverilməzdirsə, onda (2) tənliyi üçün α sazlama parametri aperiodik dayanıqlıq şərtini ödəməlidir:

$$a_1, a_2 > 0, \quad a_1^2 / 4 \geq (a_2 + b\alpha).$$

Lakin bu halda faza trayektoriyası absis oxunu $s < 0$ -dən $s > 0$ istiqamətdə kəsə bilmədiyindən hər iki həyəcanlandırıcı təsir halında $u_k = 0$ olacaqdır. $\varepsilon_{-}^{+}(t_i)$ elementlərinin meydana çıxmasını təmin etmək üçün absis oxunu $s = \dot{\varepsilon} + c\varepsilon$ -düz xətti ilə əvəz edək. Bu halda, dəyişmə funksiyası $\sigma = sx_1$ olur, yəni $\varepsilon_{-}^{+}(t_i)$ elementlərinin formalaşdırılması ordinat $x_1 = 0$ oxunun və $s = 0$ xəttinin üzərində baş verir. $s = 0$, $c > 0$ xətti absis oxundan aşağıda yerləşdiyindən $g = 1(t)$ halında aperiodik faza trayektoriyaları onu kəsəcək. Beləliklə sıfra bərabər olmayan $\varepsilon_{-}^{+}(t_i)$ toplananları meydana çıxaraq u_k kompensasiya siqnalının formalaşdıracaqdır [3].


Keçid proseslərinin keyfiyyət göstəriciləri α və β-dan başqa bucaq əmsalı c-nin qiymətindən çox asılıdır.

Şəkil 7 və 8-də $a_1 = 10;\ a_2 = 10;\ b = 1;\ \alpha = 4{,}5;\ \beta = 80;\ c = 0{,}35$ qiymətlərində aperiodik sistemin $g=1(t)$, $x_0 = (0,0)^T$ və $g = \delta(t)$, $x_0 = (-1,0)^T$ halında dinamik xarakteristikaları göstərilmişdir. Göründüyü kimi, hər iki halda keçid prosesi $y(t)$ əvvəlki kimi rəqsi deyil, monoton alınmışdır.



a) *b)*

Şəkil 7. *Aperiodik obyektin g = 1(t) halında dinamik xarakteristikaları*



a) *b)*

Şəkil 8. *Aperiodik obyektin g = δ(t) halında dinamik xarakteristikaları*

Aparılmış təhlillərdən məlum olmuşdur ki, real sistemlərdə xarici və parametrik həyəcanlandırıcı təsirlər mövcud olduğundan tənzimləyicinin astatik və adaptiv xassəyə malik olmasını təmin etmək onun tətbiq sahəsini və effektivliyini artırmaqdır.

Əsas məsələlərdən biri odur ki, tənzimləyici ən xarakterik həyəcanlandırıcı təsirlər olan vahid təkan və vahid impuls tipli təsrlərə qarşı seçici astatizmə malik olsun.

Nəticə. Məqalədə xətti sistemlərdə bu xassəyə malik olan tənzimləmə qanunu, daha doğrusu, tənzimləmə qanununun kompensasiyaedici toplananının formalaşdırılması üsulu təklif olunmuşdur.

Sürüşən rejimdə işləyən sistemlərdə bu üsul vahid təkan olduqda sürüşən rejimin pozulmasının xüsusiyyətinə əsaslanmışdır. Bu halda, trayektoriya $s = 0$ sürüşmə xəttindən uzaqlaşaraq əvvəlcədən nəzərdə tutulmuş «sərhəd zolağını» kəsir. Kəsişmələrin koordinatı hər dəfə yadda saxlanaraq cəmlənir ki, bu da kompensasiya siqnalını təşkil edir.

Nəzəri müddəaların doğruluğu konkret misallarda kompüter modelləşdirilməsinin köməyi ilə təsdiq edilmişdir.

Ədəbiyyat

1. Rzayev T.H. "Sistemlərin identifikasiyası". Dərslik./ T.H. Rzayev – Bakı:, AzTU, - 2008. -518 s.
2. Воронов А.А. Основы теории автоматического управления. Особые линейные и нелинейные системы. М.: Энергоиздат, 1981-304 с.
3. Fərhadov, V.Q. "Tənzimləmə texnikası". Dərslik./V.Q. Fərhadov, İ.A. Yolçuyev - Bakı: ADDA nəşriyyatı, - 2018. - 366 s.

Məqalə qəbul olunub: 31.03.2022
Tövsiyə edib: t.e.d., prof. A.M.Qafarov

UOT: 621.3:007

SIXMA DƏRƏCƏSİNİ AVTOMATİK DƏYİŞƏN PORŞENİN KONSTRUKSİYASI VƏ ONUN HİDRAVLİK SİSTEMİNİN HESABLAMA METODİKASI

İsmayılov A.Ş., Kərimov E.N.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: a.ismayilov27@gmail.com, elnur.karimov.8002@mail.ru

Xülasə. *Məqalədə dizel mühərrikində sıxma dərəcəsini avtomatik dəyişən porşenin yeni konstruksiyası və onun hidravlik siteminin təklif olunmuş hesablama metodikasının əsas müddəaları haqqında məlumatlar verilmişdir. Təklif olunan porşenin əsas üstünlüyü onun mühərrikin iş rejimlərinin dəyişməsinə çox həssas olmasıdır. Belə ki, hər bir tsikldə sıxma dərəcəsi mühərrikin iş rejimindən asılı olaraq maksimumdan minimuma qədər dəyişə bilər. Porşenin hidravlik sistemindəki həcmlərdən baş verən sızmalar, bu həcmlərə qazın düşə bilməsi nəzərə alınmaqla tərtib olunmuş hesablama metodikası həcmlərdəki təzyiqləri daha dəqiq təyin etməyə imkan verir.*

Abstract. *The Article describes the new design and operating principle of a piston that automatically changes the compression rate of the diesel engine and the main provisions of calculation method for the hydraulic system of this piston. The main advantage of the proposed piston design is its more sensitivity to changes in the engine operating mode. Since, the compression rate can vary from the maximum value to the minimum in each duty cycle, depending on the engine operating modes. The proposed calculation method provides the possibility to determine the pressures in these volumes as more as accurately, as well as taking into account the oil leakage from the volumes of hydraulic system of the piston and the ingress of gases into these mentioned volumes.*

Аннотация. *В статье излагаются новая конструкция и принцип работы поршня, автоматически изменяющий степень сжатия дизельного двигателя и основные положения расчетной методики гидравлической системы этого поршня. Основное преимущество предложенной конструкции поршня большая чувствительность к изменениям режима работы двигателя. Так как в каждом цикле степень сжатия может изменяться от макси-*

мального значения до минимального в зависимости от режимов работы двигателя. Составленная расчетная методика с учетом утечек масла из объемов гидравлической системы поршня и попаданию газов в эти объемы, позволяет более точно определить давления в этих объемах.

Açar sözlər: *sıxma dərəcəsi, porşen, əlavə kamera, yuxarı həcm, aşağı həcm, xüsusi həcm, reduksion klapan, doldurucu klapan, hesablama metodikası, hidravlik sistem, yağın hal tənliyi, sızmalar, sıxlıq, təzyiq*

Key words: *compression rate, piston, additional chamber, upper volume, lower volume, special volume, pressure reducing valve, filling valve, calculation method, hydraulic system, oil equation, leakage, density, pressure*

Ключевые слова: *степень сжатия, поршень, дополнительная камера, верхний объем, нижний объем, специальный объем, редукционный клапан, наполнительный клапан, расчетная методика, гидравлическая система, уравнение состояния масла, утечки, плотность, давление*

Giriş. Gəmilərdə dizel mühərriklərindən daha geniş istifadə olunması bir tərəfdən yüksək üstəlik üfürmə tətbiq etməklə onların texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasını, digər tərəfdən isə bu mühərriklərdə daha ucuz başa gələn alternativ yanacaqların tətbiq edilməsini tələb edir. Çoxyanacaqlı, ələlxüsus da sıxma dərəcəsini avtomatik dəyişən poşenli (SDADP) dizel mühərriklərində bu məsələ çox asanlıqla həll olunur. Belə ki, həmin mühərriklərdə sıxma dərəcəsi işə düşmə zamanı yüksək, nominal yük rejimlərində isə kiçik olur. Bu isə, həm yüksək üfürmə sistemi tətbiq etməyə, həm də yüngül yanacaqlardan istifadə olunmasına imkan verir. Lakin hələlik axıra qədər təkmilləşdirilmiş və istismarda olan SDADP-lı mühərrik yoxdur. Bundan başqa porşenin hidravlik sistemində baş verən prosesləri daha dəqiq əks etdirən hesablama metodikasının tərtib edilməsinə də ehtiyac vardır. Odur ki, bu mühərriklərin yaradılması istiqamətində həm nəzəri, həm də eksperimental elmi-tədqiqat işləri davam etdirilir ki, bu da məqalənin mövzusunun aktual olduğunu göstərir.


Əsas hissə. Sıxma dərəcəsini avtomatik dəyişən porşenin təklif olunan konstruksiyasının [1] əsas üstünlüyü onun mühərrikin iş rejimlərinin dəyişməsinə çox həssas olmasıdır. Belə ki, hər bir tsikldə sıxma dərəcəsi mühərrikin iş rejimindən asılı olaraq maksimumdan minimuma qədər dəyişə bilər. Bu, təklif olunmuş konstruksiyada nisbətən kiçik həcmə malik olan əlavə kameradan istifadə olunması nəticəsində mümkün olur. Həmin porşenin konstruksiyası şəkil 1-də göstərilmişdir.

Porşen iki hissədən ibarətdir: hərəkət edə bilən başlıq hissəsindən və hərəkətsiz ətək hissəsindən. Hərəkət edə bilən başlıq hissəsinə porşenin təpəsi (1), üzüklərin yerləşdiyi gövdə hissəsi (6), kiçik porşen (4) və aralıq hissə (7) aiddir. Hərəkətsiz ətək hissəsi isə ətəkdən (11), gövdə hissəsindən (9), gilizdən (8) və qapaqdan (10) ibarətdir. Bu konstruksiyada iki ədəd klapandan istifadə olunmuşdur: - kiçik porşen (4) və porşenin təpəsində (1) yerləşən, klapan (2) və yaydan (3) ibarət olan reduksion klapan; gilizdə yerləşən klapandan (12), kipləşdirici şaybadan (13) və yaydan (15) ibarət olan doldurucu klapandan.

Məhdudlaşdırıcı şayba (27) doldurucu klapanın əlavə kameraya (16) düşməsinə imkan vermir. Kipləşdirici şayba (13) isə yay (15) vasitəsilə şatunun (14) başlıq hissəsində hazırlanmış səthə sıxılaraq yağ sızmalarının qarşısını alır və doldurucu klapanın (12) yerləşdiyi həcmdə həmişə müəyyən təzyiq altında yağ olmasına şərait yaradır. Bu isə öz növbəsində, klapan (12) yuxarı qalxan kimi əlavə kameraya (16) yağın dolmasına səbəb olur.

Əlavə kamera (16) deşik (5) vasitəsi ilə reduksion həcmlə (17) birləşir. Reduksion (17) və yuxarı (18) həcmlər isə bir-biri ilə soplo deşikləri (21) ilə əlaqələndirilir. Aşağı (19) və yuxarı (18) həcmlər bir-biri ilə (22) və (23), xüsusi (20) və yuxarı (18) həcmlər isə (24) və (23) deşiklərinin köməyi ilə birləşdirilir. Yuxarı həcmin (18) özü isə kanallar (25) vasitəsi ilə mühərrikin karteri ilə əlaqələndirilmişdir.

Porşenin iş prinsipi aşağıdakı kimidir. O, yuxarı ölü nöqtəyə doğru hərəkət edərkən, təxminən xaricetmə taktının yarısından başlayaraq, ətalət qüvvəsinin təsiri ilə başlıq hissəsi yuxarıya çəkilir, doldurucu klapan (12) açılır və mühərrikin yağlama sistemindən şatundakı (14) kanallar (26) vasitəsi ilə gələn yağ əlavə kameranı (16) doldurur. Əlavə kameranın diametri porşenin öz diametrindən təxminən üç dəfə kiçik olduğuna görə o, qısa bir müddətdə, daha doğrusu, hər bir tsikldə yağla dola bilir.



Şəkil 1. *Sıxma dərəcəsini avtomatik tənzimləyən porşen*

Başlıq hissəsi yuxarıya qalxan zaman aralıq hissə (7) yağı aşağı həcmdən (19) sıxışdırır və yağ (22) və (23) deşiklərindən keçərək yuxarı həcmə (18) daxil olur. Bu halda xüsusi həcm (20) də böyüdüyünə görə orada təzyiq aşağı düşür və yuxarı həcmdən (18) yağın bir hissəsi (23) və (24) deşiklərindən keçərək xüsusi həcmin azad olan hissəsini doldurur. Başlıq hissəsinin ən kənar yuxarı vəziyyətində qapaq (10) deşikləri (22) bağlayır və aralıq hissə (7) aşağı həcmdə (19) yaranan yağ bufer qatına söykənir. Bu zaman sıxma dərəcəsinin ən böyük qiyməti alınır.

Sorma taktının qalan hissəsində və sıxma taktının böyük bir hissəsində maksimum sıxma dərəcəsi saxlanılır.

İşçi qarışıq öz-özünə alovlanıb yanma prosesi başladıqdan sonra silindrdəki təzyiq sürətlə artır və onun qiyməti yayın (3) gərilmə qüvvəsindən çox olduğu zaman reduksion klapan (2) açılır, yağ əlavə kameradan çıxır və başlıq hissəsi azalan həcmə müvafiq olaraq aşağıya düşür. Sıxma dərəcəsi azalaraq həmin rejim üçün optimal qiymət alır. Bu zaman kiçik porşen (4) yağı əlavə kameradan sıxışdırıb (5) deşiyindən reduksion həcmə (17), oradan da soplo deşikləri (21) vasitəsi ilə yuxarı həcmə (18), aralıq hissəsi (7) isə yağı xüsusi həcmdən (20) sıxışdırıb (24) və (23) deşiklərindən yuxarı həcmə (18) qovurlar. Aşağı həcmin (19) azad olmuş hissəsi (23) və (22) deşikləri vasitəsi ilə yuxarı həcmdən (18) gələn yağla dolur.

Özünün ən kənar aşağı vəziyyətində, daha doğrusu, minimum sıxma dərəcəsi alındıqda, gövdə (9) deşikləri (24) bağlayır və aralıq hissə (7) xüsusi həcmdə (20) yaranan yağ buferinə söykənir. Bunun nəticəsində də mayedən olan dayaq sahəsi artdığına görə (xüsusi həcmin sahəsinə müvafiq olaraq) əlavə kameradakı (16) təzyiq kəskin azalır. Bu isə, öz növbəsində, əlavə kameradan (16) sızmaları azaldır və kiçik porşenin (4) gilizin (8) dibi ilə toqquşmasının qarşısını alır.

Qeyd etmək lazımdır ki, aşağı və xüsusi həcmlər yığmadan əvvəl yağla doldurulur. Həmin həcmlərdən yağ sızmalarının olmaması və qapağın (10) üzərindəki çıxıntıya görə yuxarı həcmdə həmişə yağ təbəqəsinin olması sayəsində aşağı və xüsusi həcmlər heç bir vaxt tamamilə boşalmır. Yuxarı həcmdə yağın miqdarı çoxaldıqda isə əlavə kanallar (25) vasitəsi ilə mühərrikin karterinə qaytarılır.

Mühərrikin iş rejimi dəyişdikdə, daha doğrusu, aralıq yük rejimində, sıxma dərəcəsinin aşağı həddi dəyişir, maksimum qiymət isə həmişə saxlanılır.

Beləliklə, sıxma dərəcəsi hər bir tsikldə avtomatik olaraq dəyişir (böyük yük rejimlərində) və mühərrikin bütün iş rejimlərində yanma prosesi maksimum sıxma dərəcəsi ilə başlayır. Çünki, hər bir tsikildə başlıq hissəsi ən kənar yuxarı vəziyyətdə olur. Odur ki, belə konstruksiyalı SDADP-li mühərriklərdə gilizin yuxarı hissəsində "quru" kəmər yaranmır və birinci kompressiya üzüyünün iş şəraiti yaxşılaşır.

Aşağı və xüsusi həcmlərin kipləşdirilməsi üçün ftoroplast üzüklərdən istifadə olunmuşdur (şəkil 1). Belə kipləşdirici üzüklərin olması və həmin həcmlərin yağla yaxşı doldurulması başlıq hissəsinin ən kənar vəziyyətlərdə həmin həcmlərdəki yağ qatına söykənməsini təmin edir ki, bu da zərbələrin qarşısını alır. Bundan başqa gövdənin (9) ətəyə (11), qapağın (10) gövdəyə (9), həmçinin porşenin təpə hissəsinin (1) başlığa (6) bağlanması yivlə həyata keçirilir ki, bu da SDADP-nin sökülüb yığılmasını xeyli asanlaşdırır. Belə ki, bu işlər porşeni mühərrikdən çıxarmadan, silindrlər başlığı çıxarıldıqdan sonra görülə bilər.

Sıxma dərəcəsini avtomatik dəyişən porşenin hidravlik sisteminin hesablama metodikası tərtib edilərkən aşağıdakı sadələşdirmələr qəbul olunmuşdur:

1. Hər-hansı bir həcmin bütün nöqtələrində təzyiqlər eynidir;
2. Porşenin divarları ilə yağ arasında istilik mübadiləsi yoxdur;
3. Hər hansı bir həcmin bütün nöqtələrində temperaturlar eynidir.

Porşenin ayrı-ayrı həcmlərindəki təzyiqlər yağın hal tənliyinə görə təyin olunmuşdur. Yağın kəsilməzliyi şəraitində yağ üçün aşağıdakı hal tənliyindən istifadə edilmişdir [2, səh.59]:

$$1 - a_0 p_h - \frac{a_1}{2} p_h - \frac{a_2}{3} p_h = \frac{[0.71 - 0.001345(\rho_{20} - 850)](t-20)}{\rho_h} \quad (1)$$

burada p_h - həcmlərdəki təzyiq, ρ_h – həcmlərdə təzyiq p_h və temperatur t olduqda yağın sıxlığı; ρ_{20} - atmosfer təzyiqində və 20^0C temperaturda yağın sıxlığı; a_0, a_1 və a_2 – tənliyin konstantlarıdır.

Həcmlərdə yağın cari sıxlığı (ρ_h) aşağıdakı kimi təyin edilmişdir:

$$\rho_h = G_h / V_h \quad (2)$$

burada G_h və V_h – uyğun həcmlərdə yağın kütləsi və həcmidir.

Müxtəlif həcmlərdə yağın miqdarı həmin həcmlər üçün tərtib olunmuş kütlə balansı tənliklərinə görə hesablanır.

Yağ axınının kəsilməzliyinin pozulduğu hallarda ayrı-ayrı həcmlərdəki təzyiq aşağıdakı tənlikdən tapılır [2, səh.60]:

$$P_H = \frac{əe \cdot \rho_h \cdot p_0}{\rho_0 - \rho_h + əe \cdot \rho_h} \quad (3)$$

burada əe – yağda havanın həll olunması əmsalından və temperaturdan asılı olan ədədi əmsal; ρ_0 – yağın kəsilməzliyinin pozulduğu an yağın sıxlığı; p_0 – atmosfer təzyiqidir.

4. QQ cərəyanlarının hesabatı zamanı həm AEM-ni, həm də ümumi gəmi elektrik qəbuledicilərini qidalandıran yarımkeçirici gərginlik invertorlarının girişində yerləşən kondensatorların boşalma cərəyanları nəzərə alınmalıdır. Kondensator batareyaları həmçinin GA -nın düzləndiricilərinin çıxışında yerləşdirilə bilər və ya BPŞ yığma şinlərinə birləşdirilə bilər.
5. QQ cərəyanlarının konturunda yarımkeçirici elementləri olan paylayıcı qurğularının şinlərindən qidalanan avadanlıq sabit cərəyan elektrik enerjisi mənbəyində QQ zamanı ən ağır iş rejimlərində istehsalçı tərəfindən sınaqdan keçirilməlidir.

Ədəbiyyat

1. Mehdiyev H.A. “Gəmilərin avtomatlaşdırılmış elektroenergetika sistemləri”. Bakı: ”Nurlan”, 2006-340 səh.
2. Sultanov E.F., Cəlilov T.A. “Müasir gəmi elektrik stansiyaları və şəbəkələri”, Bakı, ADDA, 2018-330 səh.
3. Лёмин П.А., Пруссаков А.В., Григорьев А.В. “Эксплуатация судовых систем электроснабжения”. Учебное пособие Санкт-Петербург: ГМА им. Адм. С.О.Макаров, 2009-180 стр.
4. Григорьев А.В. Перспективы внедрения вентильных газотурбогенераторов на морском флоте /А.В. Григорьев, Р.Р. Зайнуллин, С.М. Малышев // Вестник Государственного университета морскогои речного флота имени адмирала С.О. Макарова -2016. -№ 1 (35). -стр. 165–169.
5. Григорьев А.В. Опыт эксплуатации электроэнергетической установки гидрографического судна «Вайгач» / А.В. Григорьев, Е.А. Глеклер, А.И. Лившиц, Д.И. Улитовский // Судостроение. -2010.-№ 6.- стр. 29–30.
6. Григорьев А. В. Единая электроэнергетическая установка малого гидрографического судна «Вайгач»: опыт проектирования и результаты испытаний / А. В. Григорьев // Российский морской регистр судоходства.- 2008.- № 31.-стр. 271–78.
7. Гольдштейн М.Е. Функции передачи постоянного тока на базе преобразователей напряжения в режиме установившегося короткого замыкания в энергосистеме / М.Е. Гольдштейн, Н.В. Корбуков // Вестник Южно-Уральского государственного университета. Серия: Энергетика.- 2015.-Т. 15.- № 3. стр. 20–24.
8. Приходько В.М. Особенности расчетов токов короткого замыкания с учетом сопротивления электрической дуги в судовых электроэнергетических системах / В. М. Приходько, И.В. Приходько, В.Ю. Лучкин // Вестник Государственного университета морского и речного флота имени адмирала С.О. Макарова.- 2016.- № 5 (39).- стр. 185–195.
9. E.F. Sultanov, F.V. Məmmədova “Gəmi elektronikası və güc çeviriciləri”. Dərs vəsaiti. Bakı, ADDA, 2020-170 səh.
10. Мелешин В. И. Транзисторная преобразовательная техника / М.: Техносфера. 2011-576 с.

Məqalə qəbul olunub: 31.03.2022
Tövsiyə edib: t.e.d., prof. A.M.Qafarov

GƏMİÇİLİKDƏ TƏBİƏT ELMLƏRİNİN PROBLEMLƏRİ

UOT 628.12.15:621.311.22

DUZLU SULARIN NANOSÜZÜLMƏ ÜSULU İLƏ YUMŞALDILMASI TEXNOLOGİYASININ TƏDQİQİ

Əhmədova C.A., Məlikov T.C.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
AZ1010, Bakı şəh., Azadlıq pr., 20
E-mail:ahmedova_cahan1975@mail.ru

Xülasə. *Məqalədə göstərilmişdir ki, Abşeron yarımadasının dənizkənarı rayonlarının istiləşdirmə sistemlərinin əlavə suyu membran texnologiyaları əsasında Xəzər dənizi suyundan hazırlana bilər. Bununla əlaqədar membran texnologiyalarının ixtisaslaşdırılmış "ROSA" kompüter proqramı vasitəsilə dəniz suyunun yumşaldılması və şirinləşdirilməsi üçün müasir nanosüzülmə texnologiyasının imkanları tədqiq edilmişdir. Proqramda qeyd olunan texniki parametrlərinə görə nanosüzülmə üçün NF90-400 və NF270-400, əks-osmos üçün BW30-400 markalı membranlar seçilmiş və onların müqayisəvi təhlili aparılmışdır.*

Abstract. *The article states that make-up water for heating networks of the coastal regions of the Absheron Peninsula can be prepared from the water of the Caspian Sea based on membrane technologies. In this regard, the possibilities of modern nanofiltration technology for softening and desalination of sea water were studied using a specialized computer program "ROSA". According to the technical parameters specified in the program, NF90-400 and NF270-400 membranes for nanofiltration and BW30-400 for reverse osmosis were selected and their comparative analysis was carried out.*

Аннотация. *В статье указано, что подпиточная вода для теплосетей прибрежных районов Апшеронского полуострова может быть приготовлена из воды Каспийского моря на основе мембранных технологий. В связи с этим были изучены возможности современной технологии нанофильтрации для умягчения и опреснения морской воды с помощью специализированной компьютерной программы «ROSA». По техническим параметрам, указанным в программе были подобраны мембраны NF90-400 и NF270-400 для нанофильтрации и BW30-400 для обратного осмоса и проведен их сравнительный анализ.*

Açar sözlər: *dəniz suyu, nanosüzülmə, yumşaldılma, şirinləşdirmə, əks-osmos, membran*

Key words: *sea water, nanofiltration, softening, desalination, reverse-osmosis, membrane*

Ключевые слова: *морская вода, нанофильтрация, умягчение, опреснение, обратный-осмос, мембрана*

Giriş. Bütün dünyanın və Azərbaycan Respublikasının qlobal problemlərindən biri şirin su qıtlığıdır. Abşeron yarımadasında bu problem daha kəskin xarakter daşıyır və Xəzər dənizi suyunun şirinləşdirilməsini aktuallaşdırır. Buna səbəb əhalinin artması, xalq təsərrüfatı və sənaye müəssisələrinin inkişafıdır. Problemin həlli kimi, 2010-cu ildə ölkə prezidenti tərəfindən sahil kənarı rayonlarda irimiqyaslı şirinləşdirici qurğuların quraşdırılmasına göstəriş verilmişdir. Bir çox ölkələrdə, Səudiyyə Ərəbistanı, Qətər, İsrail, İspaniya və digər ölkələrdə su qıtlığı problemi okean və Aralıq dənizi sularının şirinləşdirilməsi ilə həll olunub [1].

Şirinləşdirmə təcrübəsi göstərir ki, şirinləşdirmə texnologiyalarının seçimində nəzərə alınacaq kriteriyalar enerji xərclərinin aşağı olması və qurğunun istismarının sadəliyidir. Bunları nəzərə alaraq sənaye miqyasında əks-osmos şirinləşdirmə texnologiyalarına geniş yer verilir və hal-hazırda tətbiqi

60%-dən yüksəkdir [1]. Termiki üsullardan buxar kompressiyalı, və eləcədə utilizasiyalı şirinləşdirmə texnologiyaları üstünlük təşkil edir.

Ədəbiyyatda verilən məlumatların təhlili göstərir ki, enerji səmərəlilik və az tullantılı membran texnologiyası kimi nanosüzülmə böyük maraq doğurur. Təqdim olunan işdə Xəzər dənizi suyunun nanosüzülmə texnologiyası ilə tədqiqinin nəticələri gətirilir.

Qeyd etmək lazımdır ki, nanosüzülmə (NF-nanofiltration) ilkin olaraq səth və yeraltı sulardan içməli suyun hazırlanması, və eləcədə çirkab suların təmizlənməsi məqsədilə işlənilmişdir. NF membranlarının ikivalentli ionlara (Ca^{2+}, Mg^{2+} və SO_4^{2-}) görə selektivliyi kifayət qədər yüksəkdir (74,2÷98,6%). Beləliklə nanosüzülmə prosesində su yumşaldılır, sulfatsızlaşdırılır və qismən duzsuzlaşdırılır [2].

Texnologi sxemlər və tədqiqat üsulları. Ədəbiyyatda verilənlərə görə duzlu suların şirinləşdirmə sistemlərində nanosüzülmədən termiki və əks-osmoslu şirinləşdirmə mərhələlərində ərpin yaranmasının qarşısını almaq, və eləcədə birbaşa şirinləşdirmə məqsədilə istifadə etmək olar.

Duzluluğu 20÷50 q/dm^3 olan suların termiki və əks-osmoslu şirinləşdirilməsindən öncə ikipilləli nanosüzülmə üsulu ilə yumşaldılma texnologiyasına əsaslanan şirinləşdirmə üsulu patentləşdirilmişdir [3]. İş [4]-də Fars körfəzinin suyunun şirinləşdirilməsində yüksək temperaturlu (90÷120^{0}C) ani qaynama buxarlandırıcılarında antiərplərdən imtina etmək imkanının olduğu göstərilmişdir.

Tədqiqat işləri hesablama-analitik yolla aparılmış və Xəzər dənizi suyunun şirinləşdirilməsində sulfat probleminin nanosüzülmə ilə həllinin mümkünlüyü göstərilmişdir [5].

Duzlu suların, əsasən də Xəzər dənizi suyunun nanosüzülmə ilə birbaşa şirinləşdirilməsi sahəsində az sayda tədqiqatlar aparılmışdır. İş [6]-da göstərilmişdir ki, okean suyunun ikipilləli nanosüzülmə ilə enerji sərfini və ərpin yaranmasını azaltmaqla yanaşı optimal şəraitdə həm də duzların miqdarını 200 mq/dm^3-dək azaltmaq olur. Digər göstəricilərə görə nanosüzülmənin işçi təzyiqlərinin (~3÷15 bar) əks-osmosla (~15÷70 bar) müqayisədə az olması enerji xərclərinin kəskin azalmasına və qurğunun istismarının sadələşməsinə gətirir. Xəzər dənizi suyunun nanosüzülməli yumşaldılmasına həsr olunmuş tədqiqatları, iştisaslaşdırılmış "ROSA" (Rovers Osmosis Systems Analisis) kompüter proqramından istifadə etməklə hesablama-analitik üsulla aparılması məqsədə uyğundur [7].

Məhsuldarlığı 50 m^3/saat olan Xəzər dənizi suyunun NF-yumşaldılması qurğusunun bu proqramla üç variantda sxemi tədqiq olunmuşdur: birpilləli, permeata görə ikipilləli və ikinci pillənin konsentratının birinci pillənin bəsləyici suyuna qatmaqla (dövranlı), permeata görə ikipilləli (şək.1). Bununla yanaşı, Xəzər suyunun birpilləri RO-şirinləşdirilməsinin hesabı ilə müqayisəsi aparılmışdır.


Tədqiqat metodikasında prosesin kompleks çıxış göstəricilərinin təyini nəzərdə tutulmuşdur: permeatın və konsentratın ion tərkibləri, $CaCO_3$ və $CaSO_4$ ərplərinin membranlar üzərində çökmə şərtlərinin təhlili, uyğun şərait üçün optimal marka membranların seçilməsi. "ROSA" proqramında qeyd olunan membranların texniki parametrlərinin təhlili, nanosüzülmə üçün NF90-400 və NF270-400, əks-osmos üçün isə BW30-400 markalı membranların uyğun olmasını göstərir və cədvəl 1-də onların müqayisəvi təhlili verilmişdir.

Cədvəl 1

Membranların texniki xarakteristikaları

Membran markaları	Aktiv səth sahəsi, m^2	Təzyiq, bar	Məhsuldarlıq, m^3/sut	Duzlar, mq/dm^3
NF-90-400	37,2	4,8	37,9	$MgSO_4$ - 2000
NF-270-400	37,2	4,8	47	$MgSO_4$ - 2000
BW-40-300	37	15,5	40	NaCl - 2000

Cədvəl 2-dən göründüyü kimi, Xəzər suyunun duzluluğu okean suyundan ~3 dəfə az olsa da, ərp yaradan oinların ($Ca^{2+}, Mg^{2+}, SO_4^{2-}$və HCO_3^-) hər birinin miqdarı əhəmiyyətli dərəcə çoxdur. Bu da Xəzər dənizi suyunun şirinləşdirilməsi zamanı ərpin yaranma potensialının yüksək olmasından xəbər verir.



Şək. 1. *Xəzər dənizi suyunun NF-yumşaldılması sxemlərinin dizaynı*
a) birpilləli sxem; b) ikipilləli sxem; c) ikipilləli dövranlı sxem; DS – dəniz suyu; P – permeat (şirinləşdirilmiş su); K - konsentrat

Cədvəl 2

Xəzər dənizi suyunun* və standart okean suyunun ion tərkibləri

№	Göstəricilər	Ölçü vahidi	Xəzər dənizi suyu	Okean suyu
1	Na^+	mq-ekv/dm^3	138	467,0
2	Mg^{2+}	mq-ekv/dm^3	60	108,0
3	Ca^{2+}	mq-ekv/dm^3	16	20,5
4	HCO_3^-	mq-ekv/dm^3	4	2,4
5	Cl^-	mq-ekv/dm^3	142	536,9
6	SO_4^{2-}	mq-ekv/dm^3	68	56,2
7	pH	-	8,2	8,1
8	TDS	mq/dm^3	12750	34261

*Qeyd: *Abşeron yarımadasının akvatoriyası üçün Xəzər dənizi suyunun tərkibidir; TDS – duzluluqdur (total dissolved solids).*

Dəniz suyunun permeatının çıxımı β=50% olmaqla birpilləli şirinləşdirmə sxeminin hesablama nəticələri cədvəl 3-də verilmişdir. Cədvəldən göründüyü kimi, BW30-400 membranlarından istifadə etməklə əks-osmoslu şirinləşdirmə ilə suyun optimal duzluluğu 150÷200 mq/dm^3-dək azalır. Nanosüzülmə üsuluna gəldikdə isə NF90-400 membranları daha yaxşı göstəricilərlə xarakterizə olunur: NF90-400 yumşaldılmış suyun duzluluğunu 1400 mq/dm^3-dək, NF270-400 isə – 6075 mq/dm^3-dək azaltmağa imkan verir.

BW30-400 və NF90-400 membranlarının selektivliklərinin cədvəl 4-də verilən qiymətlərindən görünür ki, ancaq Na^+ və Cl^- üçün selektirvlik fərqi yüksəkdir, uyğun olaraq 11% və 10%. İkivalentli ionlara görə NF90-400 markalı membranların selektivliyi məhz 1,3÷1,7% BW30-400-dən azdır. Bütün bu hallar üçün sulfat ərpinin yaranması təhlükəsi aradan qalxır (K_{CaSO_4} <100%), amma $CaCO_3$ ərpinin az miqdarda yarana bilməsi proqnozlaşdırılır: LSI və S@DSI – müsbətdir.

Cədvəl 3

Birpilləli sxemin texnoloji göstəricilərinin hesanlama nəticələri

№	Göstəri-cilər	Ölçü vahidi	Пермеат			Концентрат		
			BW40300	NF90400	NF270400	BW40300	NF90400	NF270400
1	Na^+	mq/dm^3	44,4	491,7	1943,9	6305,3	5858,2	4406,6
2	Mg^{2+}	mq/dm^3	3,7	20,5	201,0	1455,2	1438,4	1257,9
3	Ca^{2+}	mq/dm^3	1,6	8,9	104,1	638,8	631,5	536,4
4	HCO_3^-	mq/dm^3	3,5	16,0	97,4	413,4	406,5	328,5
5	Cl^-	mq/dm^3	68,7	767,3	3647,4	9998,8	9305,7	6425,8
6	SO_4^{2-}	mq/dm^3	15,5	77,4	74,4	6512,2	6450,5	6453,8
7	pH	-	6,62	7,41	8,53	7,95	7,92	7,98
8	LSI	-	-	-	-	1,69	1,64	1,54
9	S@DSI	-	-	-	-	0,76	0,73	0,72
10	K_{CaSO_4}	%	-	-	-	88,33	89,02	88,71
11	TDS	мг/л	154,1	1381,8	6075,8	25403,3	24124,8	19433,3

Qeyd: K_{CaSO_4} *- kalsium sulfata görə konsentratın doyma dərəcəsidir; LSI və S@DSI - ərpin yaranmasını proqnozlaşdıran indekslərdir.*

Cədvəl 4

Ayrı-ayrı ionlara görə membranların selektivliyi, %

Membranlar	Na^+	Mg^{2+}	Ca^{2+}	HCO_3^-	Cl^-	SO_4^{2-}
BW40-300	98,9	99,6	99,6	95,5	99,0	99,6
NF90-400	88,4	98,0	97,9	92,9	88,6	98,3

Birpilləli şirinləşdirmə sxeminin energetik göstəriciləri cədvəl 5-də verilmişdir.

Cədvəl 5


Energetik göstəricilər

№	Göstəricilər	Membranlar		
		BW40-300	NF90-400	NF270-400
1	Bəsləyici suyun təzyiqi, bar	22,1	13,8	8,3
2	Konsentratın osmotik təzyiqi, bar	14,8	13,9	10,4
3	Dizayn*	9/7	12/7	9/7
4	Elektrik enerjisinin xüsusi sərfi, kVt·saat/m^3	1,53	0,96	0,58

*Qeyd: *surət – membran tutucuların sayı, məxrəc – bunların hər birində membranların sayı.*

Şəkil 2-də verilmiş qrafikdən göründüyü kimi, birpilləli NF-yumşaldılmada alınan suyun çıxımının (β) az miqdarında (5÷10%) onun duzluluğa (S_{per}) görə keyfiyyəti içməli suyun keyfiyyətinə uyğun gəlir.

Növbəti mərhələdə NF90-400 membranlarından istifadə etməklə NF-yumşaldılmanın ikipilləli sxeminin tədqiqi aparılmışdır (cədvəl 6). Alınan nəticələrdən göründüyü kimi, permeatın çıxımı hər pillədə eyni olmaqla (β=50%) və dövranı olmayan sxemin ikinci pilləsində duzluluq 200 mq/dm^3-dək azalır. Permeatın çıxımına elektrik enerjisinin ümumi xüsusi sərfi 2,21 kVt·saat/m^3 təşkil edir. Ərp yaranma indekslərinin göstəricilərinə görə birinci pillədə az miqdarda kalsium karbonat və sulfat ərplərinin yarana bilməsi proqnozlaşdırılır. Bu sxemin əsas çatışmazlığı şirinləşdirilmiş suyun çıxımının aşağı olmasıdır – 25%.



Şək. 2. *Permeatın çıxımının onun duzluluğuna təsiri qrafiki*


Cədvəl 6

NF90-400 membran elementli ikipilləli dövransız sxemin hesablamalarının nəticələri (β=50%)

№	Göstəricilər	Ölçü vahidi	NF_1	NF_2
1	Permeatın sərfi	m^3/saat	100	50
2	Bəsləyici suyun təzyiqi	bar	13,8	4,2
3	Konsentratın orta osmotik təzyiqi	bar	10,7	1,5
4	Elektrik enerjisinin xüsusi sərfi	kVt·saat/m^3	0,96	0,29
5	Permeatın TDS-i	mq/dm^3	1381,8	193,7
6	Konsentratın TDS-i	mq/dm^3	24,1	2565
7	Membranların sayı	-	84	42
8	LSI	-	1,64	-1,3
9	S@DSI	-	0,73	-1,25
10	K_{CaSO_4}	%	89,12	0,38

Tədqiqatlar göstərir ki, ikipilləli sxemə görə yumşaldılmış suyun çıxımının artırılması nöqreyi nəzərdən β_1=70%, β_2=70÷90% rejimi daha perspektivlidir. Bu rejimə görə ikinci pillənin permeatının duzluluğu 110÷240 mq/dm^3 təşkil edir (şək.3). Permeatın çıxımı 52%-dən 68%-dək, elektrik enerjisinin ümumi xüsusi sərfi 1,63 kVt·saat/m^3-dan 1,42 kVt·saat/m^3-dək azalır.

Nəticə. Aparılan tədqiqatların təhlili göstərir ki, permeatın çıxımı 50% olan BW30-400 membranlı RO-şirinləşdirmə prosesini xarakterizə edən göstəricilərlə, hər pilləyə görə permeatın çıxımı 70% olan NF90-400 membranlı ikipilləli NF-şirinləşdirmə prosesini xarakterizə edən göstəricilər praktiki olaraq eynidir. Amma NF-şirinləşdirmədə daha çox membran sayı tələb olunur. Xəzər dənizi suyunun ikipilləli nanosüzülməli şirinləşdirmə texnologiyasının səmərəliliyini qeyd etmək lazımdır. Amma NF- və RO-şirinləşdirmə texnologiyalarının obyektiv müqayisəvi qiymətləndirilməsi üçün alınan nəticələr kifayət etmir. Tədqiqatları davam etdirmək və texniki-iqtisadi xarakterli hesablamaları da yerinə yetirmək vacibdir. "ROSA" proqramında verilmiş digər marka nanomembranların da imkanları öyrənilməlidir. Qeyd etmək lazımdır ki, membran texnologiyaları Abşeron yarımadasının dənizkənarı rayonlarının müasir istiləşdirmə və su təchizatı sistemlərinin əsasını təşkil edə bilər.



Şək.3. *İkinci pillənin permeatının çıxımının (β_2) duzluluğa və ümumi konversiyaya təsiri*
1 – permeatın TDS-dir; 2 – ümumi konversiyadır ($\beta_{üm}$).

Ədəbiyyat

1. Desalination for water supply / A. Review of current knowledge. Foundation for Water Research, - 2015, - 50 p, www.fwr.org.
2. Абдуллаев, К.М. Обзор технологий опреснения минерализованных вод / К.М.Абдуллаев, Г.К.Фейзиев, М.М.Агамалиев // Проблемы энергетики, - Баку: - 2010. №1, - с. 3-27.
3. Hassan, A.M. Fully integrated NF-thermal seawater desalination process and equipment. US Patent № 0157410, 2006, www.freepatentsline.com.
4. Hassan, A.M. Nanofiltration as means of achieving higher TBT>120^{0}C / A.M.Hassan, M.A.Al-Sofi, G.M.Mustafa [and ets.] // Desalination, - 1998. 118, - p.123-129.
5. Агамалиев, М.М. Нанофильтрация – как новый метод предотвращения накипеобразования в системах опреснения минерализованных вод / М.М.Агамалиев, А.М.Бабаев, Р.Г.Мамедбекова, А.С.Ализаде // Проблемы энергетики, - Баку: - 2011. №1, - с. 92-106.
6. Two-pass nanofiltration seawater desalination prototype testing and evaluation / Desalination and Purification Research and Development Proqram Report // Colorado: - 2013. №158.
7. ROSA www.DOWcom.

Məqalə qəbul olunub: 12.05.2022
Tövsiyə edib: t.e.d., prof. V.H.Həsənov

UOT 621.762.8

YENİ ÜSULLA OVUNTU MATERİALLARINDA KORROZİYA SÜRƏTİNİNİN TƏYİNİ

Həsənov V.H., Osmanov K.G.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail:vgasanov2002@yahoo.com

Xülasə. *İşdə kompakt materiallardan fərqli olaraq məsaməliyə görə daha geniş aktiv səthə malik məsamələrə yığılan korroziya maddələrini tamamilə çıxarmaq üçün yeni metodika təklif olunur. Bu metod korroziyanın sürətini qravimetrik üsulla ölçməyə imkan verir. Təklif olunan üsul ovuntu materiallarında korroziya sürətini kifayət qədər dəqiqliklə təyin etməyə imkan verir.*

Abstract. *In contrast to compact materials, a new methodology is proposed for the complete removal of corrosive substances that accumulate in pores with a wider active surface area. This method allows to measure the rate of corrosion by gravimetric method. The proposed method allows to determine the corrosion rate in abrasive materials with sufficient accuracy.*

Аннотация. *В отличие от компактных материалов предлагается новая методика полного удаления агрессивных веществ, скапливающихся в порах, с более широкой активной поверхностью. Этот метод позволяет измерять скорость коррозии гравиметрическим методом. Предлагаемый метод позволяет с достаточной точностью определять скорость коррозии в абразивных материалах.*

Açar sözlər: *korroziya, qravimetrik üsul, ovuntu, polad, kompozisiya materialı*

Key words: *corrosion, gravimetric method, crumb, steel, composition material*

Ключевые слова: *коррозия, гравиметрический метод, порошок, сталь, композиционные материалы*

Giriş. Materialların struktur və xassələrinin idarə edilməsində böyük imkanları olan ovuntu metallurgiyasının texnologiyası yeni böyük həcmli keramik, amorf və kompozisiya materiallarının yaranmasına təkan verdi. Buda müstəqil materialşünaslıq sahəsinin inkişafına həmçinin, materialşünaslıq sahəsinin bərk cisimlərin fizikası və kimyası sahəsindəki fundamental tədqiqatlarla qarşılıqlı əlaqəsi böyük əhəmiyyət kəsb etdiyindən, bu da yeni materialların tədqiqini sürətləndirir [1-3].

Müxtəlif detalların hazırlanmasında ovuntu metallurgiya üsullarının tədbiqi, əməyin məhsuldarlığını və istehsalın səmərəliliyini artırır, çox əməliyyatlı işlərin ixtisara salınması nəticəsində metal itgisinin, işçilərin məşğulluğunun minimuma endirilməsinə, məhsulun hazırlanmasına sərf olunan enerjinin azalmasına imkan verir.

Ovuntu istehsalının əsas xüsusiyyətrindən biri də odur ki, burada metallurji tullantıların və gəmiqayırma sənayesindəki tullantıların yenidən ovuntu halına salınması mümkündür. Ekstremal şəraitdə işləyən məmulatlar hazırlamaq üçün ovuntu material-larından istifadə edilməsi yüksək gərginlikdə, aqressiv mühitdə, yüksək və aşağı temperaturlar şəraitində işləyə bilən metal və ərintilərin yaradılmasını zəruri etdi. Bu növ ovuntu materiallarına misal olaraq marten poladını, korroziyaya davamlı poladları göstərmək olar. Məmulatın hazırlanma texnologiyasının inkişaf səviyyəsi və materi-alların kimyəvi və faza tərkibinin öyrənilməsi, tökmə metallardan və ərintilərdən hazırlanmış məmulatlardan heç də geri qalmayan ovuntu məmmulatları almağa imkan verir. Bu, gələcəkdə ovuntu materiallarının sürətlə inkişafı üçün zəmin yaradır. Ovuntu metallurgiyasının geniş üsulları metal-şüşə kimi kompozisiya materialının yaramasına imkan verdi. Məsaməli metal karkasa şüşənin daxil edilməsi materialın davamlılığını kəskin artırır, xüsusilə pambıqyığan və başqa kənd

təsərrüfatı maşınlarının sürüşmə detallarının, toxuculuq dəzgahlarının, hissələrinin makaralarını tez sıradan çıxmasının qarşısını alır [5-7].

Xüsusilə karbit, nitrat və başqa çətin əriyən metal birləşmələrinin kompozisiyası hesabına davamlı materiallar almaq mümkün olmuşdur. 70-ci illərdə paslanmayan poladdan hazırlanmış ovuntu məmulatın istehsalına başlanılmışdır. Bununla qarşıya çox bahalı, çətin legirlənən, paslanmayan poladların itgisinin qarşısını almaq məqsədi qoyulmuşdur.


Müxtəlif tərkibdə ovuntu kompozisiya materialları almaq üçün ya ovuntu komponentlərinin mexaniki qarışığından ya da legirlənmiş ərintilərin ovuntularından istifadə olunur. Sonuncu variant şixtənin həcmində komponentlərin bərabər paylanması üçün daha effektli sayılır. Əsasən qrafit ovuntusu xəlitəyə "çılpaq" şəkildə daxil edilir, qarışdırıldıqdan sonra qrafitin şixtədə seqreqasiyası, preslənmədən sonra isə müxtəlif sıxlıqların yaranması, kimyəvi tərkibin qeyri bir cinsliyi, bişmiş materialın qeyri homogen quruluşu mənfi təsir göstərir.

Ədəbiyyatlardan məlumdur ki, məlumatın keyfiyyətinin yaxşılaşmasına o cümlədən onların korroziyaya qarşı davamlılığının artmasına, qrafitin misdə metallaşdırılmış mis ovuntusundan istifadə etməklə nail olmaq olar. Qrafitin misləşdirilməsi üçün tətbiq edilən üsullardan ən səmərəlisi elektrokimyəvi mislənmədir. Biz materialın və misləmə prosesinin maya dəyərini azaltmaq məqsədilə qeyri metal qatışıq kimi koksu seçmişik. Metallaşdırılmış qrafit bir çox müəlliflər tərəfindən tədqiq edildiyindən bu məsələ xüsusi elmi maraq yaratmır.

Əsas hissə. Əvvəlki bölmələrdə göstərildiyi kimi, bizim işlədiyimiz materiallar dəmir əsaslı mislənmiş koks, çüyün qraunlalarından hətta yükək aşqarlanmış ovuntu poladından yüksək fiziki-kimyəvi xassələrə malikdir. Lakin demək olar ki, bütün ovuntu materiallarının zəif cəhəti onların korroziyaya qarşı dayanıqlığın aşağı olmasıdır. Ona görə də, istənilən materialların mexaniki xassələri ilə yanaşı onların fiziki-kimyəvi xassələrinin, xüsusilə onların korroziya davamlılığının öyrənilməsi tələb olunur.

Məsaməli materialların korroziya və elektrokimyəvi xassələrini təyin etmək üçün elektrokimyəvi və qravimetrik üsullardan istifadə edilir. Elektrokimyəvi ölçmələr impulslu ПИ-50-1 tipli potensiatın köməkliyi ilə aparılmışdır. Burada elektrodların polyarzasiyası potensiostatik, potensiodinamik və qalvanostatik rejimdə, açılma potensialının geniş sürət intervalı $(1\cdot10^{-5}\div5\cdot10^{3})$V/s diapazonunda öyrənilmişdir. 90%-li verilmiş potensialın yaranma müddəti 1mks olmuşdur. Göstərilən potensiostatda işçi elektrodun polyarizasiyasını, həmçinin polyarizasiyanın impluslu rejimdə almaq olar. Potensialın, istərsə də istənilən cərəyanın impulslu ПР-8 proqrammatorunda formalaşmış və СФ-13 yaddaşlı ossiloqrafında nəzarət olunmuşdur. Potensiatın ümumi sxemi şəkildə verilmişdir. Potesiatın əsas funksiyası tədqiq edilən(işçi) elektrodun verilmiş potensialını "Potensiostat" rejimində, yaxud tədqiq edilən elektrodun polyarizasiya cərəyanını "Qalvanostat" rejimində təmizləməkdən ibarətdir. İşçi elektrodun potensialı potensiosta-tın polyarizə edən cərəyanın (çıxış) avtomatik dəyişməsində polyarizasiyanın tənzimlənməsi potensiostatın çıxış gərginliyini avtomatik dəyişməklə baş verir [4].

Potensiostatın girişində gərginlik ПР-8 proqramlayıcının köməkliyi ilə əldə edilir. Proqrammator iki hissədən ibarət olan işçi proqram işləmişdir, pilləli proqram (СП) və xətti proqram (ЛП). Bu hissələrdən hər biri dörd addıma malikdir, proqramın birinci hissəsində pilləşəkilli gərginlik, ikinci hissədə isə parça xətti formalı gərginlik yaranır. İkinci hissədə, həmçinin sıfır əyrilikli rejimə baxılır. Bu rejimdə gərginlik əvvəlki addımdakı qiymətini bütün zaman müddətində saxlayır. Potensiostatik sxemi 3^x və 4^x elektrod nüvsində polyarizasiyanı həm stasionar həm də impulslu rejimdə aparmağa imkan vermişdir. Tədqiq olunan nümunələrin polyarizasiyasına, katod potensialında hidrogenin ayrılması ilə potesiostatik rejimdə, potensialı $2\cdot10^{-4}$ V/s sürətilə dəyişməsilə başlanmışdır, bu cərəyan gücü *C*-nü əl ilə ölçməyə imkan verir. Cərəyan hər 20 mV-dan bir qeyd olunmuşdur, bu isə təsadüfü xətaların aradan qaldırılmasına və dəqiqliyin artmasına gətirmişdir. Elektrodun potensialı yüksək omlu voltmetrlə ölçülmüşdür ki, bu da E = ±2mV dəqiqliklə ölçməyə imkan verir.



Şəkil. *Potensiostatın ПЦ-50 ümumi sxemi*

Cərəyan M2020 tipli sabit cərəyan ampermetri və M95 markalı qalvanometr ilə cərəyan gücünün kiçik qiymətlərində (C≤ $1\cdot10^{-7}$A) intervalın $2\cdot10^{-9}$A–dan 10^{-4}A-ya qədər qiymətində ölçülmüşdür.

Elekrokimyəvi ölçmələr üçün qab "Pireks" markalı şüşədən düzəldilmişdir ki, bu polyarizasiyanın potensiostatik və qalvanostatik rejimdə ölçülməsinə imkan verir.

Korroziya-elektrokimyəvi ölçmələr aparmaq üçün elektrodlar "dəmir+mislənmiş koks" və "dəmir+çuqun+mislənmiş koks" ovuntu kompozisiyalarından hazırlanmışdır, bu elektrodlar böyük sürətli fırlanma və sürtünmə şəraitində, habelə aqressiv mühitin təsirində işləyə bilir.

Potensiostatik polyarizasiyadan əvvəl elektrodlar cərəyan sıxlığı I_k ≈$5\cdot10^4$A⁄sm^2 olan katodlu cərəyanla qabaqcadan InNCl-da, səthidə oksid örtüyü əmələ gətirmək məqsədilə qalvanostatik polyarizasiya edilmişdir. Bundan sonra elektrod qabdan çıxarılıb distilə olunmuş su ilə yuyulmuş və elektrokimyəvi ölçmələr aparılan qaba köçürülür. Yuxarıda qeyd olunduğu kimi, polyarizasiya katod potensialından E_k=(1,3÷1,5)V elektrodun potensialını $2\cdot10^{-4}$ V/s sürətilə dəyişdirərək başlanmışdır. Təcrübədən sonra elektrodlar qabdan çıxarılıb, distilə olunmuş su ilə yuyulmuş, izolyasiyadan azad olunmuş, qurudulmuş və yuxarıda götərilən üsulla mexaniki işlənilmişdir.

Alınan asıllığa görə, elektrod potensialı E və cərəyan sıxlığı i-ə görə tədqiq olunan materialın korroziyaya meyilliyi, həmçinin bir neçə kinetik parametrlər öyrənilmişdir.

Nümunələrin sonrakı hazırlanma üsulu kompakt nümunələrin hazırlanmasından fərqlənir. Bunun səbəbi odur ki, ovuntu materiallar kompakt materiallardan fərqli olaraq səthdə çoxsaylı müxtəlif ölçülü məsamələr vardır. Elektrolitlər bu məsamələrə daxil olaraq metalla qarşılıqlı təsirdə olur və mürəkkəb tərkibli korroziya məhsulu yaradır. Bu maddələr adi işlənmədən sonra səthdən

təmizlənmirlər və nəticədə nümunənin kütləsini artırırlar. Ona görə də məsamələrin səthindən korroziya maddələrin təmizləmək üçün üsullar tapmaq lazım gəlir.

Göstərilən problem haqda ədəbiyyatda yoxdur. Başqa tərəfdən, dəmir korroziyasının və onun əritilərinin maddələri əsasən etil spirtində isladılır. Bundan nəticə çıxararaq, spirtin köməkliyi ilə məsamələrdən korroziya maddələrinin təmizlənməsinə təşəbbüs göstərilmişdir. Ona görə də inqibitorlu turşuların köməkliyi ilə səthdən pas təmizləndikən sonra nümunələr 95%-li etil spirtində yerləşdirilmişdir və məlum olmuşdur ki, bir sutka ərzində korroziyanın məhsulu məsamələrdən tamamilə çıxarılır. Spirtdə təmizləndikdən sonra nümunələr spirtdən çıxarılır və quruducu şkafda t=(100-120^{0}S)–də 15 dəqiqə müddətində spirtin dərin qatlardan buxarlanması məqsədilə yerləşdirilir. Bu müddət göstərilən temperaturda spirtin buxarlanması üçün kifayətdir, bundan artıq müddətdə nümunələrin oksidləşməsinə və metalların kütləsinin artmasına gətirir. Vaxt başa çatdıqdan sonra nümunələr eksikatorda yerləşdirilərək otaq temperaturuna qədər soyudulur bundan sonra analitik tərəzidə çəkilir. Kütlələr fərqi Δm görə, ekspozisiya müddəti τ görə ovuntu materialının tədqiq olunan mühitdə korroziya sürəti tapılır:

$$K=\frac{m_1-m_2}{S\cdot\tau}=\frac{\Delta m}{S\cdot\tau}$$

m_1-nümunənin korroziyadan qabaqkı ilk kütləsi; m_2-nümunənin korroziyadan sonrakı kütləsi; τ–eksozisiya müddəti; S-nümunənin səthinin sahəsi. Qravimetrik ölçmələr üçün təcrübələr bir neçə dəfə aparılmışdır və orta qiymət götürülmüşdür [8, 9].

Nəticə. Kompakt materiallardan fərqli olaraq, ovuntu materiallarının korroziya elektrokimyəvi xassələri haqda ədəbiyyatda praktiki olaraq məlumat azdır, olan məlumat isə yalnız belə materialların korroziyadan qorunması haqqındadır. Bu onunla əlaqədardır ki, kompakt materiallardan fərqli olaraq məsaməliyə görə daha geniş aktiv səthə malikdirlər, ona görə də məsamələrə yığılan korroziya maddələrini tamamilə çıxarmaq mümkün olmur. Bu hal xüsusi metodikanın öyrənilməsini tələb edir, bu metod korroziyanın sürətini qravimetrik üsulla ölçməyə imkan verir. Bizim işlədiyimiz üsul ovuntu materiallarında korroziya sürətini kifayət qədər dəqiqliklə təyin etməyə imkan verir.

Ədəbiyyat

1. Həsənəv V.H., Kəlbiyev F.M., Bayramova F.İ., Hacıbalazadə C.R. Gəmiçilik sənayesində innovativ texnologiyalarla tökmə tərtibatlarının hazırlanma üsulları// ADDA-nın Elmi əsərləri, № 2, Bakı, 2021, səh.177-181.
2. Gebhard, A. Additive Fertigungsverfahren: Additive Manufacturing und 3D-Drucken für Prototyping - Tooling – Produktion. Verlag: Carl Hanser, München; 2016, 736 S.
3. Gibson, I., Rosen, D. W., Stucker, B. Additive Manufacturing Technologies: Rapid Prototyping to Direct Digital Manufacturing. Verlag: Springer; 2010- 459 p.
4. Pham, D.T., Dimov, S.S. Rapid Manufacturing: the technologies and applications of rapid prototyping and rapid tooling. London-Berlin Heidelberg, 2000. pp. 206.
5. Həsənov V.H., Bayramova F.İ. Mürəkkəb konfiqurasiyalı detalların alınmasında metal karbidinin bişirmə-qaynaq prosesində rolu//ADDA-nın Elmi əsərləri, №1(31), Bakı, 2020, s.31-34.
6. A.T.Məmmədov, S.N.Namazov, Z.Z. Şərifov və b. Ovuntu metallurgiyasının əsasları. Ali məktəblərin texniki ixtisaslarının tələbələri üçün dərslik. Bakı: AzTU,-1999. –238 s.
7. Şərifov Z.Z. Materialşünaslıq və materiallar texnologiyası. Dərslik. Bakı: Təhsil, -2014, -659 s.
8. Романов О.В., Габриелов И.П. Справочник по порошковой металлургии (порошлки, материалы, процессы). Минск, «Беларусь», 1988, с.175.

Məqalə qəbul olunub: 11.04.2022
Tövsiyə edib: t.e.d., prof. V.H.Həsənov

UOT 621.762.4

AĞARMANIN YARANMASININ SƏBƏBLƏRI VƏ ONUN ARADAN GÖTÜRÜLMƏSI ÜSULLARI

Həsənov V.H., Bayramova F.İ.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: vgasanov 2002@yahoo.com

Xülasə. *Metal qəliblə intensiv istiliyin ötürülməsi və onunla bağlı olan səthi qatların kəskin soyuması tökükdə ağarmanın yaranmasına gətirir. Bu qat çox möhkəm olduğundan, töküklər çox pis mexaniki emal olunur. Bir qayda olaraq, qəlibin daxilində tökük eyni sürətlə soyumur. Metal və qəlib bilavasitə əlaqədə olduqda töküyün səthi qatının soyuma sürəti maksimuma çatır və nəticədə ledeburit strukturu yaranır.*

Abstract. *Intensive heat transfer through the metal mold and the rapid cooling of the surface layers associated with it lead to bleaching in the casting. Since this layer is very strong, the molds are mechanically very poorly processed. As a rule, the casting inside the mold does not cool at the same rate. When the metal and the mold are in direct contact, the cooling rate of the surface layer of the casting reaches its maximum, resulting in the formation of ledeburite structure.*

Аннотация. *Интенсивный теплообмен через металлическую форму и резкое охлаждение связанных с ней поверхностных слоев приводят к белению в отливке. Поскольку этот слой очень прочный, формы механически очень плохо обрабатываются. Как правило, литье внутри формы не остывает с одинаковой скоростью. Когда металл и форма находятся в непосредственном контакте, скорость охлаждения поверхностного слоя отливки достигает максимума, в результате чего образуется ледебуритовая структура.*


Açar sözlər: *tökük, istilikkeçirmə, istiliköturmə, intensiv*
Key words: *casting, heat transfer, heat transfer, intensive*
Ключевые слова: *отливка, теплообмен, теплопередача, интенсивный*

Giriş. Metal qəlib daxilində töküyün formalaşması maye metalın bərk hala keçməsi kimi mürəkkəb istilik prosesidir. Məlumdur ki, əhatə edən mühitlə daha yüksək istiliyin ötürülməsi töküyün bərkimə prosesinin intensivliyini artırır. Odur ki, istiliyin ötürülməsinin intensivliyi və ya töküyün bərkimə sürəti qəlibin istiliköturmə qabiliyyətindən asılıdır.

Torpaq qəliblərdən fərqli olaraq metal qəlib daha yüksək istiliköturmə qabiliyyətinə malikdir. Ona görə də maye metal, metal qəlibdə çox tez soyuyur.

Tökük və qəlib arasındakı istilik mübadiləsi töküyün keyfiyyətinə böyük təsir göstərir. Qəlibin nisbətən zəif istilik keçirməsi kristallaşmanın sürətini azaldır və metalın iri dənəli strukturunun yaranmasına gətirərək onun mexaniki xassələrini aşağı salır.

Metal qəlib yüksək istilikkeçirməyə malik olduğundan, onun daxilində metalın kristallaşması xüsusi şəraitlərdə gedir və nəticədə tökük yüksək sıxlığa və möhkəmliyə malik olur. Metal qəlibin istilikkeçirmə qabiliyyəti mühüm dərəcədə onun kimyəvi tərkibindən və termiki-fiziki parametrlərindən asılıdır. İstilik tutumu, istilikkeçirmə, xüsusi çəki, ilkin qızdırılma temperaturu və həndəsi ölçülər, divarın qalınlığı və konfiqurasiya əsas parametrlərdir. Bu amillər töküyün soyuma sürətinə və formalaşmasına təsir göstərir. Məsələn, müəyyən edilmişdir ki, tərkibində %-lə: 3,4 C; 2,5 Si; 0,4 Mn; 0,4 P və 0,9 S olan çuqun üçün soyuma sürəti və struktur arasında aşağıdakı aslılıq mövcuddur.



Şəkil 1. *Soyuma sürətindən asılı olaraq töküyün strukturunun dəyişməsi*

Bir qayda olaraq, qəlibin daxilində tökük eyni sürətlə soyumur. Metal və qəlib bilavasitə əlaqədə olduqda töküyün səthi qatının soyuma sürəti maksimuma çatır və nəticədə ledeburit strukturu yaranır. Töküyün mərkəzi qatlarının soyuma sürəti çox az olduğundan karbon azad halda olur.

Beləliklə, töküyün bütün qatlarmda eynicinsli strukturun alınması sualı ən aktual məsələlərdən biridir və onun həlli tökiklərin metal qəliblərdə istehsalı zamanı əsas yerlərdən birini tutur.

Metal qəliblə intensiv istiliyin ötürülməsi və onunla bağlı olan səthi qatların kəskin soyuması tökükdə ağarmanın yaranmasına gətirir. Bu qat çox möhkəm olduğundan, tökiklər çox pis mexaniki emal olunur.

Ağarmanın yaranmasının qarşısının alınmasının əsas şərtləri aşağıdakılardan ibarətdir:

1. Qəlibə tökülən maye metalın temperaturunun azaldılması;
2. Qəlibin divarlarının temperaturunun yüksəldilməsi;
3. Tökülən maye metal və qəlibin işçi səthi arasındakı əlaqənin zəiflədilməsi;
4. Metal qəlibin divarmm qalınlığının azaldılması;
5. İstiliyi izolyasiyaedən örtüklərdən istifadə edilməsi;
6. Çuqunun modifisirlənməsi.

Əsas hissə. Qəlibin daxilinə tökülən maye çuqunun və qəlibin divarının temperaturunun ağarmanın dərinliyinə təsirinin öyrənilməsi üçün tədqiqat aparılmışdır. Tədqiqat zamanı töküyün divarının qalınlığının metal qəlibin divarınm qalınğına nisbəti dəyişməz saxlanılmışdır. Tədqiqat üçün aşağıdakı tərkibə malik olan СЧ20 markalı boz çuqun götürülmüşdür, %-lə: 3,4 C; 2,6 Si; 0,6 Mn; 0,008 S və 0,2 P. Çünki, gəmi mexanizmlərinin detallarının hazırlanmasında СЧ20 markalı çuqun çox istifadə olunur.Bu materialdan yüksək təzyiq,vibrasiya və sürtünmə şəraitində işləyən və 300°C temperaturadək məruz qalan tökiklərin alınmasında istifadə olunur, məsələn: gəmilərin daxili yanma mühərriklərinin çatıları; porşenli,çarxlı və mərkəzdənqaçma nasoslarının gövdəsi; klapanların gövdəsi;soyuducuların qapaqları; yastıqların qapaqları və gövdəsi; muftalar; nazimçarx; buxar qazanlarının armaturaları; avar vintləri və s.

ИЧТ-0,4 markalı induksiyalı sobada əridilən çuqun eyni qalınlığa malik olan metal qəliblərə tökülürdü. Metal qəlibin birinin temperaturu 20°C, digərinin isə 200°C-dir. Metal qəliblər СЧ20 markalı boz çuqundan hazırlanmışdır.

Maye metahn temperaturu tökmə çalovunda xromel-alümel tipli maye metala batırılan termocütlə ölçülürdü. Maye metal qəlib daxilində 500°C-yə qədər soyudulduqdan sonra tökiklər

metal qəlib daxilindən çıxarılırdı və sonra havada 20°C-yə qədər tam soyudulurdu. Soyudulmuş tökük nümunələr sındırılaraq və ağarma qatının qalınlığı ölçülmüşdür.

Ağarma dərinliyi olaraq keçid zonasız yalnız "təmiz" ağarma qatı qəbul edilirdi. Ağarmanın dərinliyini ölçmək üçün nümunələr bir qayda olaraq müxtəlif kəsiklər üzrə sındırılırdı. Ağarma qatının qalınlığı iki tərəfdən və altı nöktədə ölçülürdü və orta rəqəm çıxarılırdı.

Metal qəlibin və tökülən metalın temperaturundan asılı olaraq ağarma qatının dərinliyi göstərilmişdir.

Cədvəl

Metal qəlibin temperaturu, °C	Maye metalın temperaturu, °C							
	1250		1300		1350		1400	
	Ağarma qatının qalınlığı, mm							
	min	max	min	max	min	max	min	max
20	2,5	4,5	3	5	4	6	5	7
200	2	3	2,5	3,5	3	5	4	6

Cədvəldən görünür ki, tökülən maye metalın temperaturu artdıqca və metal qəlibin divarının temperaturu azaldıqca ağarma qatının qalınlığı artır.

Aparılan tədqiqatlar nəticəsində aşağıdakı qənaətə gəlmək olar:


1. Tökülən maye metalın temperaturu artdıqca metal və qəlib arasında temperatur gradienti artır.

Metal qəlib və maye çuqun arasında temperatur qradientin artması sementit strukturunun ahnmasını və müvafiq olaraq, ağarma dərinliyini artırır.

Temperatur qradienti azaldıqca ağarma dərinliyi azalır.

2. Tökülən maye çuqunun temperaturu 1400 °C-yə qədər olmalıdır.
3. Metal qəlibin optimal qızdırılma temperaturu 250-350°C- dir.
4. Metal qəlibin temperaturu 400 °C-dən çox olduqda töküklərdə qüsurlar artır.

Maye metal qəlibə töküldükdən əvvəl metal qəlibin temperaturu şəkil 2.-də göstərilən sxem üzrə ölçülürdü.



Şəkil 2. *Metal qəlibin işçi səthinin temperaturunun ölçülməsi sxemi*


Aparılan tətqiqatlarda töküklərin ağarmış qatının qalınlığı eninə və uzununa kəsiklərdə МИМ-8 mikroskopunun masasma bərkidilmiş indikator saatın köməyi ilə ölçmə aparılırdı. Həmin МИМ-8 horizontal metalloqrafik mikroskopla çuqunun strukturu təyin edilmişdir.

Çuqunun dartılmada və əyilmədə möhkəmlik həddi, habelə bərkliyi müvafiq DÜİST-lərə uyğun təyin edilmişdir. Brinel üzrə bərklik kürənin diametri 5mm və yükü 750 kq olan ТШ-2 cihazında ölçülürdü.

Çuqunun əyilmədə möhkəmlik həddi, diametri Ø30 və Ø20 mm, uzunluğu 340mm olan nümunələrdə УМ-50 maşınında təyin edilmişdir. Dartılmada möhkəmlik həddi, P-10 dartıcı maşınında təyin olunurdu.

1- ölçüləri 290x330x10 mm olan tökük;
2- ölçüləri Ø30x340 mm olan tökük.


Metal qəlibin ilkin qızdırılma temperaturunun çuqun töküklərin ağarma dərinliyinə təsiri göstərir ki, onun yüksəlməsi ağarma dərinliyini azaldır. Məsələn, metal qəlibin ilkin temperaturu 100°C olduqda töküklərdə ağarma qatının dərinliyi l,7mm, 300 °C olduqda isə 1mm təşkil edir.



Şəkil 3. *Çuqun töküklərdə ağarmış qatın dərinliyinin metal qəlibin ilkin qızdırılma temperaturundan asılılığı*

Ağarma qatmın metal qəlibin temperaturundan asılılığı şəkil 4-də verilir ki, digər bərabər şəraitlərdə ağarma prosesinin yaranması və ya onun qarşısının almmasnı tökülən maye çuqunun kimyəvi tərkibinin dəyişməsi ilə tənzimləmək olar. Ağarma qatının ölçüsü çuqunun tərkibindəki elementlərin nisbətindən asılıdır. Belə ki, silisium və karbonun cəm miqdarı 5,4-6,5 % təşkil etməlidir. Bu zaman manqanın miqdarı 0,55% olmalıdır və onun miqdarı artanda müvafiq olaraq C+Si cəm miqdarı da artmalıdır. Çünki, manqan karbid yaratma qabiliyyətinə malikdir.

Ağarmış çuqun qatında karbon kimyəvi birləşmə şəklində olur və dəmirlə birləşərək $3Fe+C=Fe_3C$, dəmir karbidini yəni, sementiti yaradır. Sementit isə ledeburitin tərkib hissəsi olaraq töküyün ağarma qatının xassələrini müəyyən edir. Sementitin olması töküyün səthi qatının bərkliyini və kövrəkliyini yüksəldir və nəticədə mexaniki emalını çətinləşdirir.



Şəkil 4. *Ağarma qatının metal qəlibin temperaturundan asılılığı*

Nəticə. Beləliklə, tökməçilər tərəfindən toplanmış təcrübə əsasında o nəticəyə gəlmək olar ki, metal qəliblərdə alınan tökükülərdə ağarma qatının yaranması mütləq şərtdir. Lakin düzgün texnoloji proses seçməklə bu qatın qalınlığını nəinki azaltmaq, hətta onu aradan götürmək mümkündür. Ağarma qatının qalınlığının töküyün bütün istiqamətləri üzrə bərabər olmasını təmin etmək və ağarmanın qarşısını tamamilə almaq üçün çuqunun kimyəvi tərkibini tənzim etməklə mümkündür.

Ədəbiyyat

1. Məmmədov A.T., Namazov S.N., Şərifov Z.Z., Babayev A.İ. Ovuntu materiallarının əsasları metallurgiyasının əsasları. Bakı, Çaşıoğlu, 1990.238s
2. Şərifov Z.Z., Cabbarov T.O. Materialşünaslıq və materiallar texnologiyası. Bakı, Təhsil, 2005, 218s.
3. Ш.М. Мухаммад, Ф.И. Байрамова. Прессование порошковых материалов, содержащих поры различной формы. Bakı, AzTU, 260s
4. Rəhimov M.M. və b. Tökmə prosesləri nəzəriyyəsi. Bakı, AzTU, 2004, 260s
5. Quluyev AH. Və b. Polad tökmələri. Bakı, AzTU, 2004, 270s.
6. Анисович Г.А., Жмакин Н.П. Охлаждение отливок в комбинированной форме. М. Маш. 1969, ст.136
7. Кузелев М.Я., Сварцов А.А. и др. Справочник рабочего – литейщика. Маш. М. 1961, ст.362.
8. Рахманов С.Р., Мамедов А.Т., Беспалько В.Н., Торолев В.А., Азимов А.А. Машино-строительные материалы, Днепропетровск-Баку,«сабах», 2017, 410с.

Məqalə qəbul olunub: 12.05.2022
Tövsiyə edib: t.e.d., prof. V.H.Həsənov

UOT 614.84

QRUNTTULLAYICI MAŞININ PARAMETRLƏRİNİN TƏYİNİ

Qasımov A.F., Barxalov R.R., İbrahimli C.A.

Azərbaycan Memarlıq və İnşaat Universiteti
AZ1073, Ayna Sultanova küç., 5

Xülasə. *Məqalədə qrunttullayıcı işçi orqanın boşaltma pəncərəsinin bucağının şaquli oxa nisbətən yerdəyişməsinin torpağın atılmasının səmərəliliyinə təsirinin tədqiqatı aparılmışdır. İşçi orqanın rotorunun fırlanma tezliyi və torpağın müəyyən məsafəyə atılma vaxtının torpağın yayılma eni və səpələndiyi sahəyə təsiri müəyyənləşdirilmişdir.*

Abstract. *The article examines the effect of the displacement of the angle of the discharge window of the grounding working body relative to the vertical axis on the efficiency of soil disposal. The effect of the rotational speed of the rotor of the working body and the time of throwing the soil over a certain distance on the width of the soil spread and the area of scattering was determined.*

Аннотация. *В статье исследуется влияние смещения угла рагрузочного окна заземлителя относительно вертикальной оси на эффективность удаления грунта. Определено влияние частоты вращения ротора рабочего органа и времени метания грунта на определенное расстояние на ширину разброса грунта и площадь его разбрасывания.*

Açar sözlər: *kanalların təmizlənməsi, qrunttullayıcı maşın, işçi orqan*
Key words: *canal cleaning, ground-throwing machine, working body*
Ключевые слова: *чистка каналов, грунтовыбрасывающая машина, рабочий орган*


Giriş. Problemin formalaşdırılması mövcud məsələlərin həllinin və tədqiqatların nəticələrinin analiz etdikdə suvarma kanallarının təmizlənməsi və bərpası üçün kombinə edilmiş işçi orqanın yaradilmasının mümkünlüyünü göstərir. Lakin işçi orqanların, frezlərin, tullayıcıların və boşaldıcının qruntla təması hələ kifayət qədər tədqiq edilib araşdırılmamışdır. Kanalların təmizlənməsi və yenidən bərpası üçün kombinəolunmuş işçi orqanın əsas parametrləri praktiki olaraq müəyyən edilərək tam tədqiq olunmamışdır. Eyni zamanda, suvarma kanallarının canlı kəsiyində ağac və kolların intensiv olaraq böyüməsi, torpaq yataqlı kanallarda su keçiriciliyini azaldır, örtüyü məhv edir, tökülmüş yarpaqlar və budaqlar ilə suvarma suyunu çirkləndirir.

Eyni zamanda kanallarda təmizləmə əməliyyat üçün sənaye tərəfindən istehsal edilən mövcud maşınlardan istifadə olunması mümkün olmur və bu işləri kanallarda aparmaq üçün mövcud maşınların istifadəsi praktiki olaraq yararlı hesab edilmir. Dizayn və texnoloji parametrlər arasındakı uyğunsuzluq səbəbindən, səmərəli təmizləmə və nəticədə suvarma kanallarının dizayn parametrlərinin bərpası təmin edilmir.

Beləlikə, suötürücü kanalların və küvetlərin təmizlənməsi və bərpa etmək üçün kombinəolunmuş işçi orqanın səmərəli parametrlərinin tədqiqi və müəyyən edilməsi məsələsi aktualdır [1]. Bu maşınlarda torpağın atılması radial kürəkli rotorlu tullayıcılarla yerinə yetirilir. Bu zaman braxistoxron şəklində kürəklərin istifadəsi daha səmərəli sayılır. Bununla belə, bu günə qədər qruntun atılmasının səmərəliliyinin torpaq atıcının ilkin parametrlərindən asılılığının təcrübi tədqiqatları aparılmamışdır.

Son tədqiqatların və nəşrlərin təhlili. Qrunttullayıcı maşınların istifadəsi ilə suötürücü kanalların təmizlənməsin [1]-də, torpağın atılması nəzəriyyəsi isə [3]-də açıqlanır. Braxistoxrone formada kürəkli qrunt atan maşının işçi orqanı müəlliflər tərəfindən hazırlanmışdır. Braxistoxron şəklində bıçaqların optimal profili nəzəri cəhətdən müəyyən edilmişdir [2].


Problemin qoyuluşu və onun həlli. Əsas məsələ boşaltma pəncərəsinin şaquli oxa nisbətən dəyişməşmə bucağının səmərəliliyə təsirini eksperimental olaraq müəyyən etməkdir. Qruntun atılması və bunun əsasında rotorun sürətinin və torpağın atılma vaxtının qruntun atılma məsafəsinə təsirini müəyyən etmək; torpağın yayılma eni və torpağın əhatə dairəsi [2]-də aparılmış nəzəri hesablamalar əsasında qrunttullayıcı maşının eksperimental tədqiqatları aparılmışdır, onun işçi orqanı braxistoxron formasında bıçaqları olan fırlanan tullayıcıdır. Şəkil 1-də qruntullayıcı maşının işçi orqanının ekpermental modeli göstərilmişdir.



Şəkil 1. *Qrunttullayıcı maşının eksperimental modeli*


Şəkil 2-də qrunttullayıcı maşının işçi orqanının əsas parametrləri ilə sxematik təsviri verilmişdir. Baza qurğusunun ölçüləri və onun mühərrikinin gücü nəzərə alınmaqla rotorun xarici diametri D = 0,24 m, kürəyin eni b=0,05 m-ə bərabər qəbul edilmişdir. Göstərilən D parametri və braxistoxron bucağı $\gamma = 20^o$ üçün, bıçağın uzunluğunun qiyməti R = (D-d)/2= 0,094 m, boşalma pəncərəsinin açılma bucağı $\alpha = 90^o$.

Rotorun fırlanma sürətini seçmək üçün bir sıra hesablamalar aparılmışdır, nəticədə rotorun fırlanma tezliyi n=1200 döv/dəq. olduqda torpaq hissəciklərinin rasional çıxış bucağı ilə və V_0=20 m/s-ə yaxın sürət atılmasını təmin edir.



Şəkil 2. *Qrunttullayıcı işçi orqanının sxemi: 1 - val; 2 – gövdə; 3 - rotor; 4 – kürəklər; 5 - qəbuledici pəncərə; 6 - boşaltma pəncərəsi.*

Boşaltma pəncərəsinin şaquli oxa nisbətən yerdəyişmə bucağının torpağın atılmasının səmərəliliyinə təsirini müəyyən edilmişdir. Nəzəri hesablamalara əsaslanan tədqiqatlarda β bucağı 15º və 35º-ə bərabər götürülüb. Torpaq atıldıqdan sonra örtülmüş səthi xarakterizə edən kəmiyyətlərin qiymətləri müəyyənləşdirilmişdir: atma duzaqlığı L, torpağın atma oxuna perpendikulyar yayılma eni B, torpaqla örtülmüş sahə S (şək. 3). Örtülmə sahəsi nəzəri olaraq oxları L və B olan bir ellipsin sahəsi kimi müəyyən edilmişdir.



Şəkil 3. *Qruntun atılma uzaqlığı və səpələnmə sahəsinin sxemi: 1 – torpaqtullayıcı; 2 - torpağın atılma istiqaməti; 3 - S sahəli səpələnmiş qrunt.*

Nəticə. Müəyyən edilmişdir ki, braxistoxron tipli kürəklərə malik işçi orqanın boşaltma pəncərəsinin şaquli oxa nisbətən yerdəyişmə bucağının artması qrunrun atılma uzaqlığının və qruntun səpələnmə sahəsinin artmasına səbəb olmuşdur. Müəyyənləşdirilmişdir ki, rotorun dövrlər sayının artması ilə işçi orqanın bütün əsas parametrləri mütənasib olaraq artır. Bu sahədə gələcək tədqiqatlar işçi orqanın boşaltma pəncərəsinin şaquli oxa nəzərən yerdəyişmə və boşaltma pəncərəsinin açılma bucaqlarının optimal qiymətinin təyin olunmasına yönəlməlidir.

Ədəbiyyat

1. Противопожарная защита и тушение пожаров (леса, торфа, лесосклады). Книга 6 / Теребнев В.В., Артемьев Н.С., Грачев В.А., Сабинин О.Ю. – М., 2006. – 294 с.
2. Shatohyn V.M. Optimum blade profile of a groundthower as a solution of the brachistochrone for the centrifugal force of inertia / Shatohyn V.M., Semkiv O.M., Popova A.N. // Science education a new dimension. Natural and technical science. – Budapesht, 2013. – Pp. 91-94.
3. Кукибный А.А. Метательные машины [текст] / А.А. Кукибный. – М.: Машиностроение, 1964. - 196 с.

Məqalə qəbul olunub: 11.05.2022
Tövsiyə edib: t.e.d., prof. V.H.Həsənov

UOT 620. 424.1

GT8C2 NÖVLÜ QAZ TURBİNİNİN REJİM PARAMETRLƏRİNİN TƏDQİQİ

Nəsirov Ş.N., Verdiyev N.M.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Az.1010, Bakı şəh., Azadlıq pr., 34
E-mail:sh.nasirov62@inbox.ru, nicat.verdiyev.2020@gmail.com

Xülasə. *Məqalədə GT8C2 növlu qaz turbininin iş rejimi tədqiq edilərək, qaz turbininin rejim parametrlərinin təhlil edilməsi imkanı nəzərdən keçirilir. Bu istiqamətin müqayisəli üstünlükləri və perspektivləri müəyyən edilir. Məqalədə eyni zamanda 53.3 MVt gücündə GT8C2 növlu qaz turbininin istilik və elektrik enerji təchizatı sistemlərində İES-lərdə istifadəsinin termodinamik və iqtisadi səmərəliliyinin hesablamalarının nəticələri təqdim olunur.*

Qaz - turbin qurğusunun avadanlıqlarının seçilməsi və hesabat rejiminin təyin edilməsi də məqalədə öz əksini tapmışdır. Qaz - turbin qurğusunun hesabat rejiminə uyğun texniki iqtisadi göstəriciləri xarici havanın secilmiş parametrlərinə uyğun təhlil olunaraq təqdim edilmişdir.

Abstract. *The article examines the mode of operation of the gas turbine GT8S2 and considers the possibility of analyzing the mode parameters of the gas turbine. The comparative advantages and prospects of this direction are determined. The article also presents the results of calculations of the thermodynamic and economic efficiency of using the GT8S2 gas turbine with a capacity of 53.3 MW in heat and power supply systems of thermal power plants.*

The article also reflects the selection of equipment for a gas turbine plant and the definition of the reporting mode. The technical and economic indicators of the gas turbine plant are analyzed in accordance with the reporting regime and presented in accordance with the selected parameters of the outside air.

Аннотация. *В статье исследуется режим работы газовой турбины ГТ8С2 и рассматривается возможность анализа режимных параметров газовой турбины. Определены сравнительные преимущества и перспективы этого направления. Также в статье представлены результаты расчетов термодинамической и экономической эффективности использования газовой турбины ГТ8С2 мощностью 53,3 МВт в системах тепло- и энергоснабжения тепловых электростанций.*

В статье также отражен подбор оборудования для газотурбинной установки и определение отчетного режима. Проанализированы технико-экономические показатели газотурбинной установки в соответствии с отчетным режимом и представлены в соответствии с выбранными параметрами наружного воздуха.

Açar sözlər: *qaz turbinli mühərrik, iş rejimləri, termodinamik və iqtisadi səmərəlilik, utilizasiya qazanı, hesabat rejimi, ətraf mühit temperaturu, buxar qaz qurğusu*

Key words: *gas turbine engine, operating modes, thermodynamic and economic efficiency, utilization boiler, reporting mode, ambient temperature, combined cycle plant*


Ключевые слова: *газотурбинный двигатель, режимы работы, термодинамическая и экономическая эффективность, утилизационный котел, отчетный режим, температура окружающего воздуха, парогазовая установка*

Giriş. Hazırda inkişaf etmiş ölkələrdə yüksək faydalılığı olan qaz turbin qurğuları geniş istismar olunur. Bu həmin qurğuların elektrik enerjisi ilə bərabər istilik rejimində istilik enerjisi isehsalı prosesində yüksək faydalılıqlarının olması ilə bağlıdır. Eyni zamanda belə aqreqatlar gəmi energetikasında, gücündən asılı olaraq baş aqreqat kimi istifadə olunmaqdadır. Digər tərəfdən müasir qaz turbin qurğuları yığcamlığı, asan istismar olunması, tam avtomatlaşdırılması və normal mühafizə

sisteminin olması ilə fərqlənirlər.Bu baxımdan onların rejim parametrlərinin tədqiqi aktual hesab olunur [1-4].

Energetikada yaranan böhranı aradan qaldırmaq məqsədilə, az f.i.ə-yə malik olan avadanlıqların istismardan dayandırılması, onların əvəzinə müasir, ekoloji cəhətdən az zərərli QTQ və BQQ-lərin istifadə edilməsi nöqteyi-nəzərindən 1999-cu ildə ABB kompaniyası tərəfindən Bakı 1 №-li İEM -də hər birinin gücü 53,3 MVt olan 2 QTQ qurğusu quraşdırılmışdı. "Bakı İEM 1" MMC–nin istehsal gücü – 106,6 MVt-dır."Bakı İEM 1" şəhərin sənaye müəssisələri yerləşən zonada, bilavasitə "Azərneftyağ" İB, "Azenko" ASC, Z.Tağıyev adını "Toxuculuq kombinatı" ilə həmsərhəddir. Müəssisənin yaxınlığında yaşayış və istirahət zonası, dövlət abidələri, qoruqlar, yaşıllıqlar və s. xüsusi mühafizə olunan obyektlər yoxdur.

Əsas hissə. Stansiyada yanacağın yandırılması hesabına alınan elektrik enerjisi "Azərenerji"-nin elektrik sisteminə ötürülür. Əlavə olaraq "Bakı İEM 1" buxar şəklində "Azərneftyağ" İB-ni bütün il boyu, payız və qış mövsümündə isə isti su şəklində Yeni Əhmədli qəsəbisini istilik enerjisi ilə təmin edir(şəkil 1).



Şəkil 1. *Qaz turbinli qurğunun sxemi*


Qaz turbini ilə eyni val üzərində olan 12 pillədən ibarət hava kompressoru (1) atmosfer havasını götürərərk 17 bar təzyiqə kimi sıxır və onu yanma kamerasına (3) verir.

Yanma kamerasında digər tərəfdən qaz kompressorundan (5) yüksək təzyiqlə $(\approx 28bar)$ qaz verilir. Yanma kamerasının aktiv zonasında adətən temperatur 1800-2300 K-ə bərabər olur. Hazırda etibarlılıq və davamlılıq nöqteyi-nəzərincə turbinin qarşısındakı qazların temperaturunun buraxılan qiyməti yanacağın növündən asılı olaraq 900-1700 K arasında götürülür. Kamerada yanma prosesi zamanı alınan yanma məhsulları qaz turbininə (2) verilir. Turbinin dövrlər sayı reduktor (11) vasitəsilə aşağı salınır (3000 dövr/dəq.).Soyutma sistemi qapalı tsikllə işləyir.

Qaz turbinində qazların genişlənməsi zamanı görülən işin nəticəsində elektrik generatorunda (4) elektrik enerjisi alınır. Turbindən çıxan qazlar isə utilizator qazana (6) verilir. Qazana digər tərəfdən deaeratordan (7) bəsləyici nasos (8) vasitəsilə su verilir. Su qazanın ekonomayzerindən (1) keçərək (şəkil 2) barabana (2), oradan isə 3 ədəd daxili diametri 419 mm olan endirici borularla buxarlandırıcıya (3) verilir. Turbindən çıxan qazların istiliyi hesabına su buxara çevrilir və buxar qızdırıcıda (4) qızışdırılaraq tələbatçılara verilir. Qazanın sxemi aşağıda verilmişdir (şəkil 2).

Qazanda suyun və buxarın keyfiyyətini normada saxlamaq üçün həm fasiləli, həm də fasiləsiz olaraq üfürülmə mövcuddur. Deaeratora kimya sexindən əlavə su nasosu (10) (şəkil 1) vasitəsilə kimyəvi təmizlənmiş su verilir. Həmin suyu qızdırmaq üçün və həm də qazandan üfürülən fasiləsiz

üfürmənin istiliyindən istifadə etmək üçün deaeratordan qabaq əlavə su qızdırıcısı (9) (şəkil 1) qoyulmuşdur.



Şəkil 2. *Utilizator qazanının sxemi*

Util qazanlarda istifadə olunan su kimyəvi təmizləmə prosesindən keçir. Kimyəvi təmizlənmiş su sxeminin dekarbonizatorda karbonsuzlaşdırıldıqdan sonra suyun tərkibində olan dəmiri tutan süzgəclərə verilir. Dəmirdən təmizlənmiş su, su qızdırıcısında qızdıqdan sonra deaeratorda deaerasiya olunaraq bəsləyici nasoslarla qazan utilizatora verilir. Suyun pH göstəricisini normada saxlamaq məqsədilə bəsləyici nasosların qəbuluna amiak məhlulu dozirovka olunur. Qazana verilən bəsləyici suyun tərkibində qalan ərp əmələ gətirən duzları neytrallaşdırmaq məqsədilə qazanın barabanına fosfat məhlulu verilir.

Həmdövrəli kombinə edilmiş qurğular üçün iş rejimi və səmərəlilik göstəriciləri istilik yükü əyriləri, axın sürəti və şəbəkə suyunun temperaturu ilə müəyyən edilir. İstiliyin sərbəst buraxılması,birbaşa və geri şəbəkə suyunun temperaturları tvx , tqx və su istehlakı, xarici hava istiliyi, istilik və isti su təchizatının yük nisbəti ilə müəyyən edilir. Uyğun olaraq istiliyin buraxılması yük qrafikinə uyğun olaraq magistral şəbəkə qızdırıcılarında və pik istilik mənbələrində şəbəkə suyunun qızdırılması ilə istiləşdirmə turbinləri ilə təmin edilir. İstilik yükü qrafiklərinin qurulması texniki ədəbiyyatda [5]-da təqdim olunur. Temperatur qrafikinin yuxarı həddi olanda, istilik şəbəkəsindəki soyuducunun sabit temperaturu xarici havanın temperaturundan asılı olmayaraq saxlanılır. Bu, istilik təchizatı məntəqələrinin tez-tez istilik daşıyıcısının yüksək temperaturunu təmin edə bilməməsi ilə bağlıdır. Ancaq müasir reallıqlarda belə temperaturda soyuducu mayenin buraxılması effektiv deyil. Qızdırılan binaların birdəfəlik ventilyasiyasını nəzərə alaraq binaların istilik itkilərinin hesablanmasını tənzimləyən mövcud normalar, istilik sistemlərinin layihəsi istilik itkisinin binaların istilik üçün istilik enerjisinə olan faktiki ehtiyaclarını üstələdiyi bir vəziyyətə gətirib çıxarir. Təchizat xəttində temperaturun azaldılması istilik şəbəkələrində həddindən artıq istiləşməni aradan qaldırmağa və itkiləri azaltmağa imkan verir. Daha aşağı temperaturda bir soyuducu ilə təmin etmək imkanı, binaların istilik itkilərini hesablayarkən nəzərə alınan qeyri-kafi tək hava mübadiləsi ilə əlaqədardır. QTQ-lərin göstəricilərinin əsas xüsusiyyəti onların ətraf mühit parametrlərindən asılılığıdır. Buna görə də, BQTQ-nin hesablanması müxtəlif rejimlərdə aparılmalıdır. Beləliklə, birləşmiş istilik və elektrik stansiyası üçün rejimlər adətən istilik yükü əyriləri ilə müəyyən edilir:

- kondensasiya rejimi;
- PSQQ keçid nöqtəsi;
- istiləşdirmə dövründə orta hava temperaturu;
- hesablanmış hava istiliyi.

Kondensasiya tipli kombinə edilmiş dövrəli qurğular üçün adətən aşağıdakı rejimlər təyin edilir:

- nominal yük rejimi [6], ona uyğun olaraq köməkçi avadanlıq seçilir;
- texniki minimum yük rejimi;
- zavodun qismən yüklənməsi rejimi. İSO-ya uyğun dizayn rejimi qaz turbininin əsas rejimi kimi qəbul edilmişdir.Aşağıdakı xarici hava parametrləri ilə:

th = 15 oC,

ph = 0,1013 MPa,

φh = 60% [6]

Birkonturlu utilizasiyalı BQQ-lərdə qaz turbinindən çıxan qazların istilik enerjisindən tam istifadə etmək mümkün olmur. Ona görə də hesabat rejimini təyin etmək məqsədilə BQQ-nın hesabatı ücün daha sadə sxemlərdən istifadə edilir.

Qaz turbinində işçi cisim kimi yanacağın yanma məhsullarının hava ilə qarışığı, yüksək temperatura qədər qızdırılmış hava və yaxud başqa (tələb olunan xassələrə malik) isti qazlardan istifadə olunur. Qaz turbininin iş prinsipi ilə buxar turbininin iş prinsipi eynidir. Onun axma hissəsinin soplolarında işçi cismin genişlənməsi nəticəsində istilik enerjisi kinetik enerjiyə, işçi kürəklərində isə kinetik enerji mexaniki enerjiyə çevrilir. Lakin qazın və buxarın xassələri müxtəlif olduğuna görə buxar və qaz turbinlərinin konstruksiyası bir qədər fərqlənir. Ümumiyyətlə, qaz turbinlərinin sxemləri və istifadə olunan avadanlıqları buxar turbin qurğularının avadanlıqlarından kəskin fərqlənir. Digər tərəfdən qaz turbin qurğularının buxar turbin qurğularına nisbətən bir sıra üstünlükləri vardır:

1.Qaz turbin qurğuları yığcam olur, çünki əsas etibarilə burada yanacağın yandırılması üçün buxar generatorunun əvəzinə ölçüləri kiçik olan yanma kamerasından istifadə edilir;

2. Qaz turbinləri tez işə qoşulur və yüklənir (30 saniyədən 30 dəqiqəyə qədər);

3. Konstruksiyası və istismarı daha sadədir;

4. Buxar turbini ilə eyni gücdə olan qaz turbininə metal və digər materialların sərfi azdır;

5. Qiyməti daha kiçikdir;

6. Soyudulması üçün demək olar ki, heç su tələb olunmur;

7. Qaz turbin qurğularında kondensator qurğusu yoxdur;

Bu müsbət cəhətlərlə yanaşı qaz turbin qurğularının buxar turbinlərinə nisbətən mənfi cəhətləri vardır:

1.vahid gücü və f.i.ə.-sı kiçikdir; 2. istismar müddəti azdır; 3. yanacağın keyfiyyətinə tələbi daha yüksəkdir.

İndiyə kimi qaz turbin qurğularında bərk yanacaqdan istifadə olunmur. Mazutun istifadəsi isə qurğunun həm konstruksiyasını, həm də istismarını çətinləşdirir. Ancaq ildən-ilə qaz turbinləri energetikada daha geniş yayılır. Səbəbi qaz turbin qurğularının tez işə qoşulması, pik, yarı pik və ehtiyat qurğuları kimi istifadə olunmasıdır.

Qaz turbinlərini tərk edən yüksək temperaturlu qazlardan istiləşdirmə və digər məqsədlər üçün istifadə olunur. Yığcam alındığı üçün və asan istismarına görə qaz turbin qurğuları son illərdə elektrik stansiyalarında, o cümlədən respublikamızın enerji sistemində də geniş istifadə edilir. Qaz turbinlərinin gələcək inkişafı onların vahid gücünün, faydalılığının, etibarlılığının və davamlılığının artırılmasına yönəldilib. Gələcəkdə qaz turbinləri və qaz istilikdaşıyıcısı ilə işləyən nüvə reaktorlu atom enerji qurğuları yaradılması nəzərdə tutulur. Hesab edirlər ki, onların faydalılığı su-buxar tsikli üzrə işləyən AES-lərdən yüksək olmaqla daha yığcam, konstruksiyası və istismarı isə daha sadə olacaq.

Hal-hazırda fərdi olaraq qaz turbinli energetik qurğular f.i.ə.-nın kiçik olması səbəbindən praktiki olaraq az tədbiq edilir. Qaz turbinləri buxar turbinləri ilə birlikdə istifadədə olunduqda isə yüksək faydalılığa malik olduğundan energetikada daha geniş tədbiqini tapmış və tapmaqdadır.

Həqiqi şəraitdə kompressorda sıxılma, turbində isə genişlənmə prosesləri bir sıra itkilərlə əlaqədardır, çünki proseslər adiabata üzrə getmir. Real kompressorda 1 kq qazın sıxılmasına sərf olunan həqiqi iş

$$\ell_k = C_p\left(T_4 - T_3\right) \tag{1}$$

Qaz turbinində 1 kq qazın gördüyü faydalı iş isə

$$\ell_T = C_p\left(T_1 - T_2\right) \tag{2}$$

ifadələri ilə təyin edilir. Havanın sıxılması zamanı kompressorda yaranan daxili itkilər kompressorun daxili FİƏ ilə nəzərə alınır:

$$\eta_k = \frac{L_k}{\ell_k} = \frac{T_4' - T_3}{T_4 - T_3}, \tag{3}$$

burada L_k və ℓ_k - 1 kq havanın adiabatik və həqiqi sıxılmasına sərf olunan işdir, $\frac{kC}{kq}$ .Uyğun olaraq turbindəki daxili itkiləri onun nisbi daxili FİƏ nəzərə alır:

$$\eta_{ni} = \frac{\ell_T}{L_T} = \frac{T_1 - T_2}{T_1 - T_2'}, \tag{4}$$

L_T, ℓ_T - 1 kq qazın adiabatik və həqiqi genişlənmədə turbində gördüyü faydalı işdir, $\frac{kC}{kq}$.(2) və (4) tənliklərini nəzərə almaqla kompressorda həqiqi sıxılma işi

$$\ell_k = \frac{L_k}{\eta_k}, \tag{5}$$

və turbində genişlənmə zamanı görülən iş

$$\ell_T = (1+\mu)L_T \cdot \eta_{ni} \tag{6}$$

ifadələri ilə tapılır. Burada μ - yanma kamerasına verilən 1 kq havaya düşən yanacağın miqdarıdır, $\frac{kq}{kq}$. μ-nün qiyməti təxminən 0,01 – 0,018 $\frac{kq}{kq}$ olduğu üçün çox vaxt nəzərə alınmır (4 və 5 nəzərə alınmaqla).Qaz-turbin qurğusunun daxili faydalı işi real tsikldə turbində 1 kq qazın genişlənmə işi $\left(\ell_T, \frac{kC}{kq}\right)$ ilə kompressorda 1 kq havanın sıxılmasına sərf olunan işin $\left(\ell_k, \frac{kC}{kq}\right)$ fərqi kimi tapılır və

$$\begin{aligned} \ell_i = \ell_T - \ell_k = L_T\eta_{ni} - \frac{L_k}{\eta_k} = C_p(T_1 - T_2')\eta_{ni} - C_p(T_4' - T_3)\frac{1}{\eta_k} = \\ = C_pT_1\left(1 - \frac{T_2'}{T_1}\right)\eta_{ni} - C_pT_3\left(\frac{T_4'}{T_3} - 1\right)\frac{1}{\eta_k} = C_pT_1\left[\left(1 - \frac{1}{\beta^m}\right)\eta_{ni} - \frac{1}{\eta_k\tau}\left(\beta^m - 1\right)\right]. \end{aligned} \tag{7}$$

ifadəsi ilə təyin edilir. Burada $\ell_T = L_T \cdot \eta_{ni}$, $\ell_k = \frac{L_k}{\eta_k}$ və $\tau = \frac{T_1}{T_3}$ - tsikldə temperaturun artma dərəcəsidir. Real QTQ-lərdə ideal QTQ tsikllərinə nisbətən xeyli itkilər olur ki, onlar da daxili və xarici itkilərə bölünür. Daxili itkilər işçi cismin halının dəyişməsi ilə əlaqədardır ki, bunlar da kompressorda, qaz turbinində, yanma kamerasında QTQ-nın hava qaz yolundakı müqavimətə sərf olunan və turbinin detallarının soyudulmasına hava sərfi ilə əlaqədar yaranan itkilərdir. Xarici itkilərə turbinin və kompressorun yastıqlarındakı itkilər, sızma itkiləri və köməkçi mexanizmlərə enerji itkiləri (sərfi) ilə əlaqədardır. Bu itkilərin qismən və tam aradan qaldırılması QTQ-nin faydalılığını artırır. Bunun üçün müxtəlif üsullardan: a) turbində işlənmiş qazların istiliyinin regenerasiyası; b) aralıq soyudulma tətbiq edilməklə pilləli sıxılma; v) pilləli yanma (pilləli qızdırılma); q) buxar qaz

tsikli ilə işləyən kombinələşdirilmiş qurğulardan istifadə;d) çıxan tüstü qazlarının hesabına buxar və isti suyun alınması və s. istifadə olunur.

Qaz-turbin qurğusunun istismar rejimlərindən işə buraxma və dayandırma rejimləri tədqiq olunmuşdur. İşə buraxma rejimləri dayanma müddətindən asılı olaraq, qaynar (8 saat dayanma müddəti), isti (8-48 saat dayanma müddəti), və soyuq (72 saatdan cox dayanma müddəti), vəziyyətlərdən işə buraxılmalar təhlil olunmuşdur [1,3].

Nəticə

1. Müxtəlif təzyiqlərdə buxarın qızdırma mərhələlərinin sayını artırmağa yönəlmiş BQTQ-nin istifadə edilməsi istilik sxeminin təkmilləşdirilməsi üçün iqtisadi cəhətdən əlverişli hesab edilir.
2. Tüstü qazlarının temperaturunun artması (150...170 °C) hesabına birdövrəli BQTQ-lərin istifadəsi gücü 100...150 MVt olan və bir qayda olaraq, kombinə edilmiş sənaye istilik stansiyalarında istilik (buxar) və elektrik enerjisinin birgə istehsalı zamanı yüksək faydalılıq alınır.
3. İki dövrəli sxemə əsasən, 48...55% səmərəliliyi təmin edən BQTQ-lərdən istifadə edilməsi müxtəlif rejimlərdə yüksək faydalılığın alınmasına imkan verir.

"Bakı İEM 1"-dəki 106 MVt-lıq qaz turbin qurğusunun işinin tədqiqindən faydalılıq göstəriciləri alınmışdır. Qurğunun işinin tədqiqindən alınan nəticələr qaz turbinli İEM-lərin layihə hesabatında istifadə edilir.

Ədəbiyyat

1. Abdullayev, K.M. İstilik elektrik stansiyasının buxar və qaz turbinləri. Dərslik. / K.M.Abdullayev, F.İ.Kəlbəliyev, C.P.Məmmədova, Ş.N.Nəsirov. - Bakı: «Zaman – 3», - 2013. – 531s.
2. Тепловые и атомные электрические станции / Справочник под редакцией И.А.Григорьева и В.М.Зорина. Москва: Энергоатомиздат – 2009. - 608 с.
3. Канаев, А.А. Корнеев М.И. Парогазовые установки / А.А.Канаев, М.И.Корнеев. – Ленинград: Машиностроение, – 2004. - 285 с.
4. https://www.britannica.com/technology/gas-turbine-engine
5. Григорьева, О.К. Расчет тепловых схем теплофикационных паротурбинных установок. Учеб.метод.пособие / О.К. Григорьева, О.В. Боруш. – Новосибирск: Изд-во НГТУ, - 2014. – 63 с.
6. ГОСТ Р 52200-2004 (ИСО 3977-2:1997). Установки газотурбинные Нормальные условия и номинальные показатели (дата введения 01.08.2004). – Москва: Изд-во стандартов. - 2004.– 7 с.
7. Трухний, А.Д. Современная теплоэнергетика. Учебник для вузов. [в 2-х частях] / А.Д.Трухний, А.А.Макаров, В.В.Клименко. // под общ. ред. чл. корр. РАН Е.В.Аметистова. - М.: Изд-во МЭИ. – ч.1. - 2003. – 376 с.
8. Ольховский, Г.Г. Газотурбинные и парогазовые установки за рубежом // Теплоэнергетика. – 1999. № 1. – с. 71–80.
9. Ольховский, Г.Г. Масштабы и особенности применения газотурбинных и парогазовых установок за рубежом // Теплоэнергетика. – 2002. № 9. – с. 72–77.
10. Боруш, О.В. Эффективность применения парогазовых установок в условиях топливно-энергетического баланса региона: / дис.канд. техн. наук. / – Новосибирск: Изд-во НГТУ, 2008. – 160 с.

Məqalə qəbul olunub: 12.05.2022
Tövsiyə edib: t.e.d., prof. V.H.Həsənov

UOT 621.311.22

BÖHRANDAN YÜKSƏK TƏZYİQLƏRDƏ ENERGETİK QURĞULARIN ÜFÜQİ BORULARININ GENERASİYA SƏTHLƏRİNDƏ İSTİLİYİN ÖTÜRÜLMƏSİ

Rəhimov F.A., Zeynalova M.İ.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
AZ1010, Bakı şəh., Azadlıq pr., 20
E-mail: rahimov_fa@yahoo.com

Xülasə. *İşdə gəmi energetik qurğularında istilik mübadiləsinin normal rejimində suyun istilikverməsinin təcrübi tədqiqatlarının nəticələri təhlil edilmişdir. Sübut olunub ki, mayenin istilik-fiziki xassələrinin kəskin dəyişilməsi halında üfüqi boruların perimetri və uzunluğu boyunca divarın temperaturu qeyri-bərabər paylanır. Göstərilib ki, böhrandan yüksək təzyiqlərdə mayenin istilik-fiziki xassələrinin kəskin dəyişməsi axının strukturunu dəyişir, bu da istilikvermənin intensivliyinə təsir edir.*

Abstract. *The results of experimental researches heat transfer of water at a normal mode of heat exchange in ship power plants are analyzed in work. There is underlined, that the temperature of a wall is distributed non-uniformly on perimeter and length of a horizontal pipe under conditions of strong changes of the heat physical properties of a liquid. There is marked, that the strong changes of the heat physical properties of a liquid are changed structure of a flow at high pressures, which renders influence on intensity of heat exchange.*

Аннотация. *В работе анализированы результаты экспериментальных исследований теплоотдачи воды при нормальном режиме теплообмена в судовых энергетических установках. Указывается, что при условиях сильных изменений теплофизических свойств жидкости температура стенки распределяется неравномерно по периметру и длине горизонтальной трубы. Отмечается, что при сверхкритических давлениях сильные изменения теплофизических свойств жидкости меняют структуру потока, которая оказывает влияние на интенсивность теплообмена.*

Açar sözlər: *metalın temperatur rejimi, istilikvermə əmsalı**,** böhrandan yüksək təzyiqlər, istilikvermənin pisləşmiş rejimi, istilikvermənin yaxşılaşmış rejimi*

Key words: *temperature conditions of metal, heat transfer coefficient, supercritical pressures, improved heat emission regime, degraded heat emission regime*

Ключевые слова: *температурный режим металла, коэффициент теплоотдачи, сверхкритические давления, ухудшенный режим теплоотдачи, улучшенный режим теплоотдачи*

Giriş. Böhrandan yüksək parametrlərdə energetik qurğuların layihələndirilməsi və istismarı təcrübəsi göstərmişdir ki, işin səmərəliliyini artırmaq üçün buxar-su dövrələrinin daha yüksək parametrlərinə keçmək zərurəti yaranır. Bu parametrlərlə səmərəlilik artır və enerji istehsalı üçün xüsusi yanacaq sərfiyyatı azalır. Bu problemi həll edərkən ilk vəzifə avadanlıqların etibarlılığına diqqət yetirməkdir. Buxar qazanlarında etibarlılıq əsasən buxar yaradan elementlərinin temperatur rejimindən asılıdır. Buxar generatorunun borularının radiasiyalı istilik səthlərinin etibarlılığı istilikdəyişmənin intensivliyi, yəni borunun daxili səthinin soyudulması ilə müəyyən edilir. Metalın divarının temperatur rejimi borunun soyudulması şəraitindən asılıdır. Buna görə də, qazanda şaquli və üfüqi yerləşmiş boruların divarının temperatur rejimləri öyrənilir.

Üfüqi yerləşmiş boruda suyun kritikdən yüksək təzyiqlərində energetik qurğularda metalın temperatur rejimlərinin öyrənilməsi müasir texnologiyaya və onun inkişafının perspektivli istiqamətlərinə olan ehtiyac ilə əlaqədərdir.


Borunun perimetri boyu divarın temperaturunun paylanmasının xarakteri rejim parametrlərindən, mayenin növündən və onun termofiziki parametrlərindən asılıdır. Başqa sözlə desək, bu, hərəkət üsullarından və onun quruluşundan asılıdır.

Məlumdur ki, mayenin kritikdən yüksək təzyiqlərində və axının müxtəlif strukturlarında divarın temperaturunun fərqli xarakterli dəyişmələrində istilikvermənin normal, yaxşılaşmış və pisləşmiş rejimləri mövcuddur. Hazırda xüsusi hesablamalarda divarın metalının temperaturu və ya üfüqi yerləşmiş borularda istilikvermə əmsalını hesablamaq üçün nomoqramlardan [4] istifadə olunur.

İstilikvermə üzrə mövcud təcrübi məlumatların təhlili göstərir ki, mayenin kritikdən yüksək təzyiqlərində üfüqi vəziyyətdə yerləşən və buxar yaradan boruların temperatur rejimləri kifayət qədər öyrənilməmişdir. Buna görə də, suyun kritikdən yüksək təzyiqlərində üfüqi borularda divarın temperatur rejimlərinin tədqiq edilməsinə ehtiyac yaranıb.

Təcrübi tədqiqatlar.

Suyun kritikdən yüksək təzyiqlərində və məcburi hərəkində istilikvermə prosesi tədqiq olunmuşdur. Təcrübə qurğusu məhsuldarlığı 400 t/saat və yaratdığı təzyiq 40 MPa olan üç plunjerli nasosla təchiz olunub (şək.1).



Şək. 1. *Təcrübə aparılan qurğunun prinsipial sxemi.*
1 – basqı çəni; 2 – ventil; 3 – elektrik mühərriki; 4 – plunjerli nasos;
5,7,8,22 – tənzimləyici ventillər; 6 – sakitləşdirici çənlər bloku; 9 – qabaqcadan qızdırılmanın cərəyan ayırıcı sahəsi; 10 – qabaqcadan qızdırılma sahəsi;
11,17 – avtotransformator; 12,18 – alçaldıcı transformator; 13 – nümunəvi manometr;
14 – təcrübə aparılan sahə; 15 – rəqəmsal voltmetr və yaxud potensiometr;
16 – elektron potensiometr; 19 – cərəyan transformatoru; 20 – təcrübə sahəsinin cərəyan ayırıcıları;
21- əsas qızdırmanın cərəyan ayırıcısı; 23 – soyuducu; 24 – ölçən çən; 25 – ventil.

Təcrübə qurğusunun əsas elementlərindən biri üfüqi yerləşmiş paslanmayan polad borudan olan təcrübə sahəsidir. Borunun uzunluğu və diametri aparılan sınaqların şətrlərinə uyğun olaraq seçilir. Borunun isidilməsi aşağı gərginlikli elektrik cərəyanı ilə həyata keçirilir. Borunun uzunluğu boyu müxtəlif en kəsiklərdə xromel-alümel termocütləri vasitəsilə divarın aşağı, yuxarı və yan tərəflərinin temperaturları ölçülür. Təcrübə qurğusunun təsviri, təcrübələrin aparılması və ayrı-ayrı kəmiyyətlərin ölçülməsi metodikası [1 və 2]-də verilmişdir.

Maye axınının təbiəti.


Üfüqi yerləşən boruda, istilikdaşıyıcının istilik-fiziki xassələrinin sabit qiymətlərində, təzyiq düşgüsünün təsiri altında maye ox boyu istiqamətdə hərəkət edir. Müəyyən şəraitdə mayenin istilik-fiziki xassələrinin dəyişməsi mayeni hərəkət etdirən qüvvələrə təsir edir. Bu qüvvələr axının təbiətinə,

yəni axının strukturunu təsir göstərə bilər və nəticədə axının hidravlik müqavimətini, həmçinin istilikdəyişmə proseslərini dəyişdirir.

Axına təsir edən qüvvələrin xarakteri güc sahəsinin xarakterindən və onun əmələ gəlmə şərtlərindən asılıdır. Buna görə də güc sahəsində axının hidrodinamikasının və istilikdəyişmənin birgə nəzərdən keçirilməsi onların ümumi qanunauyğunluqlarının tapılmasını asanlaşdırır. Bütün bu deyilənlər təcrübi sınaqlarla, yəni eksperimental olaraq təsdiqlənməlidir.

Təcrübi (eksperimental) tədqiqatlar.

Aşağı istilik selində mayenin istilik-fiziki xassələri az dəyişir və borunun perimetri boyu istilikvermə əmsalı eyni qiymətlərdə olur. Müvafiq olaraq, divarın temperaturu borunun en kəsiyi üzrə bərabər paylanır (əyri 1, şək.2).




Şək. 2. *Düz borunun perimetri boyu divarın temperaturunun və istilikvermə əmsalının dəyişməsi* $P = 24$ *MPa;* $\rho u = 917$ *kq/m*^{2}*san; q, Vt/m*^{2}*:* $1 – 5 \cdot 10^5$*;* $2 – 18 \cdot 10^5$*.*

Böhrandan yüksək təzyiqlərdə mayenin qızdırılması zamanı, onun sıxlığı boru divarının yaxınlığında axının nüvəsindən daha azdır. Axındakı sıxlığın qeyri-bərabərliyi (istilik genişlənməsi) səbəbindən izafi kütləvi qüvvələr yaranır. Yaranan bu izafi kütləvi qüvvələr axını poza bilər, orada sirkulyasiyalı axınlara səbəb ola bilər və ya əksinə, yaranan təzyiq qüvvələrinin təsirindən həyəcanı sabitləşdirə bilər. İstilikdəyişmə ilə müşayiət olunan maye axınında, mayenin sıxlığının asılı olduğu temperaturun dəyişməsi də kütləvi qüvvələrin paylanmasına və nəticədə ikinci axınların intensivliyinə təsir edəcəkdir.

Nəticədə axının strukturu və istilikvermənin intensivliyi dəyişir. Bundan əlavə, mayenin sıxlığının güclü dəyişikliyi zamanı borunun oxuna perpendikulyar yönəldilmiş sərbəst konveksiya yaranır.

Burada üfüqi borunun perimetri boyunca istilik selinin istiqamətinin təsirini nəzərə almaq lazımdır. Borunun aşağı hissəsində istilik divardan mayeyə aşağıdan yuxarıya, yuxarı hissəsində isə yuxarıdan aşağıya ötürülür. İstilik selinin bu cür istiqamətləri sərbəst konveksiyanın intensiv inkişafına təsir göstərir.


Sərbəst və məcburi konveksiyaların qarşılıqlı təsiri borunun oxu boyunca mürəkkəb maye axınına gətirib çıxarır və nəticədə borunun perimetri və uzunluğu boyunca istilik ötürülməsinin intensivliyi dəyişir. Yuxarıda təsvir olunan axının təbiəti temperatur rejimi və ya istilikdəyişmə üzrə aparılan təcrübi tədqiqatlarla sübut edilir. Beləliklə, şək.2-də təqdim olunan qrafikdən görünür ki, istilik selinin artması ilə üfüqi borunun yuxarı və aşağı səthləri arasındakı temperatur fərqi artır (əyri 2). Yuxarı və aşağı səthlərin temperaturları arasındakı fərq şək.3-də göstərilən $t_c=f(x/d)$ asılılıq qrafikində yaxşı təsvir edilmişdir.



Şək. 3. *Suyun böhrandan yüksək təzyiqlərində borunun uzunluğu boyu divarın temperaturunun dəyişməsi.*
P=26 MPa; ρu = 941,5 kq/(m²·san); t_m^{gir} *=76°S; q = 7,5 ·105 Vt/m².*
1 - aşağı səth, 2 - yuxarı səth.


Qrafikdən gürünür ki, borunun ilkin hissəsində yuxarı və aşağı səthlərinin temperaturları arasındakı fərq çox azdır, lakin x/d > 20-də, həmçinin istilik selinin artması ilə bu temperatur fərqi artır.

Borunun uzunluğu boyu istilikvermə əmsalının (α) dəyişməsi qrafiki göstərir ki, normal rejimdə ilkin hissədə (x/d < 20) borunun yuxarı və aşağı səthləri üçün α demək olar ki, eyni qiymətlərə malikdir (şək. 4). Stabilləşmə sahəsindən sonra, yəni. x/d > 20 olan hussədə borunun aşağı səthində istilikvermə əmsalı artır. Son nəticədə borunun aşağı səthində α-nın qiyməti yuxarı səthindən daha böyük alınır. Kütləvi axın sürətinin sabit qiymətlərində istilik seli sıxlığının sonrakı artımı ilə üfüqi borunun yuxarı və aşağı səthlərinin divarlarının temperaturları və ya istilikvermə əmsalları arasındakı fərq artır.



Şək.4. *Borunun uzunluğu boyu yuxari (qırıq-qırıq xətt) və aşaği (bütöv xətt) səthləri üzrə istilikvermə əmsalinin dəyişməsi: P = 26 MPa, ρu = 830 кq/(m²·san)*
1 – q = 10.5·10⁵ Vtm², 2 – q = 14.5·10⁵ Vt/m².

Aparılan tədqiqatlar göstərir ki, istilik selinin qiymətlərindən, mayelərin entalpiyalarından və istilik daşıyıcının kütləvi sürətindın asılı olaraq böhrandan yüksək təzyiqlərdə və müəyyən şəraitdə istilikvermənin pisləşmiş rejimi baş verir. Üfüqi şəkildə yerləşən borularda, istilikvermənin pisləşmiş rejimində borunun divarının yuxarı səthinin temperaturu aşağı səthindən xeyli yüksəkdir. Həmçinin, istilikvermənin pisləşmiş rejimində əgər üfüqi və şaquli yerləşdirilmiş boruların divarlarının temperaturlarını müqayisə etsək, maksimum temperaturun üfüqi borunun yuxarı səthində olduğunu qeyd etmək olar (şəkil 5). [3]-də üfüqi borularda istilikvermənin pisləşmiş rejimi daha ətraflı nəzərdən keçirilir.



Şək.5. *Şaquli və üfüqi boruların temperatur rejimləri.*
P = 24.5 MPa; ρu = 1450–1500 kq/(m²san); q = 9.3·10⁸ Vt/m²
1 - yuxarı səth; 2 - aşağı səth; 3 - selin temperature bütöv xətt - şaquli boru; qırıq-qırıq xətt - üfüqi boru.

Nəticə.

1. İstilikdəyişmənin normal rejimlərində suyun kritikdən yüksək təzyiqlərində və məcburi hərəkində istilikvermə prosesi tədqiq olunmuş, aparılan təcrübi tədqiqatların nəticələri təhlil edilmişdir. Mayelərin böhrandan yüksək təzyiqlərində divarın metalının temperatur rejimi üçün təcrübi qiymətlər alınmışdır.

2. Aydın olmuşdur ki, üfüqi borunun perimetri və uzunluğu boyunca divarın temperaturu qeyri-bərabər paylanır. İstilik yüklərinin (q) kiçik qiymətlərində borunun orta hissəsində yuxarı və aşağı səthlər arasındakı temperatur fərqi 20-30° S, borunun ilkin hissəsində isə bu fərq (5-10°S) təşkil edir və q-nin artımı ilə temperatur fərqi artır.

3. Təcrübələrin nəticələrinin emalı göstərir ki, böhrandan yüksək təzyiqlərdə və müəyyən şəraitdə istilikvermənin pisləşmiş rejimi baş verir. Üfüqi şəkildə yerləşən borularda, istilikvermənin pisləşmiş rejimində borunun divarının yuxarı səthinin temperaturu aşağı səthindən xeyli yüksəkdir.

Ədəbiyyat

1. Келбалиев Р.Ф., Рагимов Ф.А. Теплоотдача в горизонтальной трубе при турбулентном режиме движения и сверхкритических давлениях воды // Известия Высших Технических учебных заведении Азербайджана, 2004, № 2, - с. 50-54.
2. Келбалиев Р.Ф., Рагимов Ф.А. Ухудшенный режим теплоотдачи в горизонтальной трубе при сверхкритических давлениях воды // Известия Высших Технических учебных заведении Азербайджана, 2004, № 5, - с. 45-50.
3. Рагимов Ф.А. Отличительные особенности температурного режима металла горизонтально расположенных прямых и змеевиковых труб при сверхкритических давлениях жидкости // Пятая Российская Национальная конференция по теплообмену, - Москва, Россия, - 2010, - с. 139-141
4. Локщин В. А. Гидравлический расчет котельных агрегатов (нормативный метод), / Локщин В. А., Петерсон Д. Ф., Шварц А. Л. - М.: Энергия, - 1978, - 255 с.

Məqalə qəbul olunub: 12.05.2022
Tövsiyə edib: t.e.d., prof. V.H.Həsənov

MƏQALƏLƏRİN TƏRTİBİ QAYDALARI

1. Əlyazma A4(210x297mm) formatlı, yuxarı və aşağıdan 25 mm, soldan və sağdan 20 mm boş yer saxlamaqla çap olunur. Əlyazmanın həcmi **8-10 səhifədən** çox olmamalıdır.
2. Hər bir məqalədə **UOT indekslər** və ya PACS tipli kodlar göstərilməlidir.
3. **Məqalə üç dildə - azərbaycan, rus və ingilis** dillərində çap oluna bilər. **Məqalədə xülasə 3 dildə və 100-150 söz aralığında verilməlidir**. Müxtəlif dillərdə olan xülasələrin mətnləri eyni və məqalənin məzmununa uyğun olmalıdır. Açar sözlər üç dildə - azərbaycan, rus və ingilis dillərində verilməlidir (5 sözdən az olmamaqla).
4. Məqalənin mətni azərbaycan dilində - latın, rus dilində - kiril, ingilis dilində - ingilis əlifbası ilə Times New Roman versiyasında 12 şrift ilə, bir intervalla yığılmalıdır.
5. Tənliklər və düsturlar mətndən bir boş sətirlə ayrılmalıdır.
6. Düsturları, ardıcıl olaraq, sətrin sağ tərəfində dairəvi mötərizələrdə yerləşdirilmiş ərəb rəqəmləri ilə nömrələmək lazımdır.
7. Simvolların və ədədi əmsalların izahı bilavasitə düsturun altında, onların düsturda rast gəlindiyi ardıcıllıqla verilməlidir.
8. Məqalənin nəticələrində, elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və alınan əsas nəticələr aydın şəkildə verilməlidir.
9. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla verilməlidir. Onlara istinad [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.
10. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.
11. Məqalənin sonunda məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının müvafiq iclas protokolunun nömrəsi və tarixi qeyd olunmalıdır.
12. Müəllif(lər) məqalənin çap olunması üçün yazılı surətdə razılıq verməlidir(lər).
13. Səhifələr vərəqin sağ tərəfdəki aşağı küncündə karandaşla nömrələnməlidir.
14. Əlyazmada aşağıdakı ardıcıllıq gözlənməlidir:

- UOT indeks (qalın, 11 ölçü, böyük hərflərlə, məqalənin yuxarısında, sol hissədə abzasdan yazılmalı);
- məqalənin adı (qalın, 12 olçü, böyük hərflərlə yazılmalı, UOT indeksilə məqalənin adı arasında iki interval buraxılmalıdır);
- müəllif(lər)in soyadı, adı, atasının adı (qalın, 12 olçü, kiçik hərflərlə yazılmalı, məqalənin adı ilə müəllif(lər)in soyadı arasında bir interval buraxmalıdır);
- təşkilatın adı, ünvanı, e-mail (12 olçü, kursiv, kiçik hərflərlə yazılmalı, müəllif(lər)in soyadı ilə təşkilatın adı, ünvanı, e-mail arasında bir interval buraxılmalıdır);
- **Xülasə**
- **Abstract**
- **Аннотация**
- **Açar sözlər**
- **Key words**
- **Ключевые слова**
- **Giriş**
- **Məsələnin qoyuluşu**
- **Alınmış nəticələrin analizi**
- **Nəticə**
- **İstifadə olunmuş ədəbiyyat**

15. Əlyazmalar 2 nüsxədə və elektron variantda təqdim olunur.

PREPARATION RULES ARTICLES

1. Handwriting is published leaving 20 mms space from right and left, 25 mms from top and bottom in A4 (210 x 297 mm) form. The volume of handwriting must not exceed **8 – 10 pages.**
2. In each article indexes of **UOT** and/or PACS types codes must be shown
3. **The article can be published in three languages: Azerbaijani, Russian and English.** The texts of abstracts in different languages must be the same and must conform to the content of the article. Key words must be given in three languages: Azerbaijani, Russian and English.
4. The texts of the article in Azerbaijani must be typed in Azerbaijani language in Latin, in Russian language in Cyrillic and in the English language in Latin alphabets with one interval, with the size of 12 in Times New Roman version.
5. Equations and formulae must be separated from the text by one empty line.
6. Formulae must be systematically numbered in Arabic figures given in round brackets on the right side of the page.
7. Explanation of symbols and literary coefficient must directly be given under the formulae with the succession they are met in the equations.
8. Scientific innovation and importance of the application, economic benefit of the work must be given in accordance with the character of the article and field of science in the summary of the article.
9. The list of literature given at the end of article must be given by succession as they are referred to in the article. The reference to them must be noted like [1] or (1, p.119). Advantage must be given to the references to the scientific articles, monographs of the last 5- 10 years in the literature list.
10. The place of work of the author(s), their addresses, and e – mail address must be shown in the article.
11. At the end of the article the number of the protocol of the appropriate meeting and date of scientific council of the institution advising the article for printing must be noted.
12. The author(s) must give written consent for the printing of the article.
13. The pages must be numbered by pencil in the right corner of the bottom of the paper.
14. The following succession must be observed.
    - UOT index (bold, size 11, big letters, on the top of the article, on the left side from the new line);
    - Title of the article (bold, size 12, big letters, Two-unit space must be between the title of the article and UOT index);
    - Surname and initials of the author(s), e-mail, name of the organization, its addresses must be in bold, size of 12, with the small letters. Two-unit space must be between the name of the article and the author(s)
    - Name of the organization and its address and e-mail must be in italics of 12 size in small letters. One-unit interval must be between the name of the article.
    - **Abstract**
    - **Key words**
    - **Introduction**
    - **Formulation of the issue**
    - **Analysis of the results achieved**
    - **Result**
    - **The literature used**
15. Handwritings must be presented in two copies and electronic version

ПРАВИЛА ОФОРМЛЕНИЯ СТАТЕЙ

1. Рукопись печатается в формате А4 (210х297 мм), отступ сверху и снизу – 25 мм, слева и справа – 20 мм. Объём рукописи не должен превышать **8-10 страниц.**
2. В каждой статье должны быть указаны индексы **УДК или коды типа PACS**.
3. Статья может быть написана на одном из трёх языков: азербайджанском, русском или английском. Аннотация представляется на 3 языках. Тексты аннотации на этих языках должны быть идентичными и соответствовать содержанию статьи. Ключевые слова должны быть идентичными и соответствовать содержанию статьи. Ключевые слова должны быть на трёх языках: азербайджанском, русском и английском (не менее 5 слов).
4. Текст статьи должен быть набран с интервалом 1, шрифтом 12 версии Times New Roman: на азербайджанском языке - латиницей, на русском - кириллицей, на английском - английским алфавитом.
5. Уравнения и формулы должны быть отделены от текста одной пустой строкой.
6. Уравнения необходимо последовательно нумеровать с правой стороны строки в круглых скобках.
7. Пояснения и числовые коэффициенты даются непосредственно под уравнением в той же последовательности, что и в уравнении.
8. В выводах статьи должны в ясной форме указаны соответствующие характеру статьи научная новизна работы, прикладное значение, экономическое значение.
9. В конце статьи необходимо указывать использованную литературу в той последовательности, в которой она встречается в статье. Ссылки на источники должны обозначаться как [1] или [1, с. 119]. В качестве использованной литературы нужно отдавать предпочтение источникам, опубликованным за последние 5-10 лет.
10. В статье необходимо указывать место работы автора (авторов), его адрес и адрес электронной почты.
11. В конце статьи необходимо указывать номер и дату заседания учёного совета предприятия, рекомендующего статью к печати.
12. Автор (авторы) должны в письменной форме дать согласие на публикацию.
13. Страницы должны быть пронумерованы карандашом с правой стороны внизу страницы.
14. В статье должна быть информация в следующем порядке:
    - Индекс УДК (жирно, размер 11, прописными буквами и набраны в левой части с абзаца).
    - Название статьи (жирно, размер 12, прописными буквами, между индексом УДК и названием статьи должно быть два интервала).
    - Фамилия и инициалы строчными буквами, жирно, размер 12. Между названием статьи и информацией об авторах должен быть пробел в один интервал.
    - Название организации, адрес, e-mail авторов строчными буквами, курсив, размер 12. Между фамилиями авторов и информацией о них должен быть пробел в один интервал. Статья должна иметь следующую структуру:
    - **Аннотация**
    - **Ключевые слова**
    - **Введение**
    - **Постановка задачи**
    - **Анализ полученных результатов**
    - **Выводы**
    - **Литература**
15. Статьи необходимо представлять в двух экземплярах и в электронной версии.

Yığılmağa verilib: 20.07.22. Çapa imzalanıb 25.07.22.
Format 60x84 1/8. F.ç.v.19,3. Sifarış №105
Kağız əla növ. Tiraj 100 nüsxə. Qiyməti müqavilə ilə.

Azərbaycan Dövlət Dəniz Akademiyasının mətbəəsi